

## Ermənilər Tovuz istiqamətində mövqelərimizi atəşə tutdu - RƏSMİ

*İyunun 24-də saat 14.30-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Berd rayonunun Ayqedzor kəndi yaxınlığında yerləşən mövqelərdən Tovuz rayonu Muncuqlu kəndi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.*

Səh.2


# UNİKAL

№23 (2061) 25 İYUN 2021-ci il Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## Tağı Əhmədovun üç cümləlik təzadı

### Və ya "köhnələr"in köhnəlməyən təranəsi...

*Son illər ölkədə aparılan genişmiqyaslı islahatların mühüm tərkib hissələrindən biri də idarəetmə sistemindəki yeniləşmədir. Bir yandan kadr, digər tərəfdən struktur dəyişiklikləri ilə müşahidə olunan bu yeniləşmə prosesindən kənarda qalan vəzifə sahibləri olsa da, onlarla da yolların ayrılacağı şübhə doğurmur. Çünki yeni dövrün çağırışları eyni zamanda bu dövrün ruhunu, hədəflərini daha yaxşı qavrayan, əxz və icra edə biləcək kadrlarla mümkündür. İctimai-siyasi həyatın bütün sferalarında dəyişimin qaçılmaz zərurət olduğunu anlamaqda çətinlik çəkənlər isə təəssüf ki, qalmaqdadır. Elə dünən Unikal.org saytına açıqlama verən Bakı Metropoliteninin sabiq rəisi, hazırda hakim...*

Səh.7

Səh.13

## Azərbaycanın siyasi səhnəsində mühüm dəyişiklik

## "Məmurlar dövlət telefonlarını şəxsi mobil telefon kimi işlədirlər"



*"Unikal" qəzetinin budəfəki müsahibi Vəhdət Patiyasının sədri, Milli Məclisin deputatı Tahir Kərimlidir. Onunla söhbətə öncə Şuşa Bəyannaməsindən, onun nəticələrindən və ölkəmizə, regiona hansı töhfələr verəcəyi ilə bağlı sualla başladıq.*

Səh.4

## Elman Rüstəmovdan haqlı tələb



*Azərbaycanın bank sektorunun uzun illərdən bəridir əsas qayğılarından biri problemli kreditlərlə bağlıdır. Düzdür, bir neçə il öncəyə qədərki vəziyyətlə müqayisədə son zamanlar həmin problemin bir qədər səngidiyi müşahidə olunurdu.*

Səh.6

## Qarabağa beynəlxalq təşkilatların missiyasının göndərilməsi vacib amildir



*28 illik işğal təkcə 1 milyondan çox məcburi köçkünün öz doğma yurd-yuvasından didərgin düşməsi ilə nəticələnməyib. İşğal dövründə düşmən torpaqlarımızda xalqımıza məxsus mədəni-tarixi abidələri də dağıdaraq məhv ediblər. 44 günlük müharibə zamanı Azərbaycanın öz torpaqlarını işğaldan azad...*

Səh.15

# Həyat yoldaşından xəyanət görən Vəfa boşandı? - İLK DƏFƏ AÇIQLADI





***Müğənni Vəfa Şərifova həyat yoldaşından boşanması barədə gəzən söz-söhbətlərə aydınlıq gətirib.***

"Unikal" lent.az-a istinadən xəbər verir ki, ifaçı bu barədə sosial şəbəkədə açıqlama yayıb:

"Oxuduğum mahnıları mənim həyatıma aid edirlər. Bunu mənim həyatıma yozanlar, bir az məntiqli olun. Bu mahnıları mən yazmıram, bəstəkar yazır, mən də oxuyuram. Bir də həyat yoldaşımın məni atmasını necə mənə yaraşdırırsınız? Mən atılmağa layiq qadın deyiləm. Biz bir ailəyik, küsərik, barışarıq, amma ayrılmarıq".

Xatırladaq ki, V.Şərifova bu ay Lent.az-a müsahibəsində bildirmişdi ki, həyat yoldaşı ona xəyanət edib: Yoldaşım məni sevməsə boşanaram. Əvvəllər deyirdim ki, beş uşağım olsa da, həyat yoldaşım mənə xəyanət etsə, əl qaldırsa, boşanaram. Mənə xəyanət də etdi, əl də qaldırdı, amma boşanmadım. Dözmərəm deyim hər şeyə dözdüm. Niyə? Çünki istəmirəm ki, uşağım atasız böyüsün. Mən də başqaları kimi o bataqlıqlara düşmək istəmirəm.

Qadınlar hisləri ilə xəyanət edir. Kişilərdə isə fərqlidir. Dost əhatəsinə qoşulurlar, gedib xəyanət edirlər. Məsələn, deyirlər ki, filankəsdən qorxursan? Gəl, sən də bizlə get. Mənim düşdüyüm xəyanət bu idi. Hisləri ilə kiməsə bağlanarsa, sevərsə, mən ondan boşanaram. Çünki hislərim, sevgim mənim üçün dəyərlidir".

Qeyd edək ki, V.Şərifova iş adamı Famil Xəlilovla evlidir. Cütlüyün bu evlilikdən bir qızı var.

# "Pandemiyada bildiyim 15 cütlük ayrıldı" - Günay

***"Evlənmək fikrim yoxdur" desəm, qeyri-səmimi olaram. İstəyim var, planım yoxdur. Hazırda işim mənim üçün önəmlidir. Ailənin möhkəm olmağı üçün bəzi məqamlar var. Ailə quranda çox düşünməlisən, sonra qərar verməlisən ki, möhkəm olsun. Təmtəraqlı toy edib 1 günə ayrılanlar var. Hörmət, sayğı olmalıdır".***



Axşam.az xəbər verir ki, bu sözləri müğənni Günay İbrahimli "10-da görüşək" proqramında deyib. Sənətçi şəxsi həyatı ilə bağlı sualları cavablandırıb.

Günay bir ildir toyların olmamasından söz açaraq, ayrılan cütlüklərdən danışıb: "Toylara qadağa ötən ilin martından başladı. Pandemiyadan öncə toylar üçün mənə beh verilmişdi. Ən azı 10-15 toy ləğv olundu. Buna həmin cütlüklərin qohum-əqrabalarının müdaxilələr etməsi, bununla da münasibətlərin korlanması və ayrılma ilə nəticələnməsi səbəb olub. Uzun illər sevgili olmağın önəmi yoxdur. Bir gün eyni evdə yaşasalar, hər şey pozular".

Günay bildirib ki, bu yaya dincəlməyi düşünmür: "Toylar başlayır, iş üçün darıxmışam. Bu yay işləyəcəm. Bu yaxınlarda İstanbula getdim, bir az havamı dəyişdim. Bəsimdir".

Günay şou-biznesdəki yerindən danışıb. O bildirib ki, ilk üç sırada yer alır: "Düşünürəm ki, müğənni öz yerini tapmalıdır. Şou-biznesdən gedib sonra qayıdanda belə yerinin dolmadığını görməlisən. 15 ildir sənətdəyəm, öz yerimdəyəm, işimlə məşğulam. Aygün Kazımova və Röya Ayxanın da öz yerləri var. Yaxşı müğənnilər çox azdır, barmaqla sayılacaq qədərdilər.

Yersiz müğənnilər ortaya çıxıb. Televiziyalar həmin müğənnilərə "zapret" qoymalıdır. Keyfiyyətli musiqiyə dəyər verənlər küsürlər, efirlərdən uzaqlaşırlar. Bayağı musiqi yoxdur, bayağı ifaçı var. Təqdim etməkdən çox şey asılıdır. Bayağı mahnının birini mənə verin, fərqli bir iş görüb təqdim edərəm".



# Brilliant Dadaşova Afəti təhqir edib?

***Müğənni Afət Fərmanqızı Xalq artisti Brilliant Dadaşova ilə aralarında qalmaqal yaşandığını bildirib.***

Axşam.az xəbər verir ki, sənətçi bu haqda "7 Canlı" proqramında danışıb. Afət ona ünvanlanan "Kaş aranızda soyuqluq olmazdı" sualını Dadaşovaya aid etdiyini deyib.

İfaçı bildirib ki, mübahisəyə səbəb onun qalmaqallı "Pencu şeş" mahnısı olub:

"Brilliant xanımın sənətini sevirəm. Məlum mahnı ilə bağlı qalmaqalda bilmədi söhbət nədən gedir. Onu səhv məlumatlandırdılar. Dedilər, guya mən tənqid edəni təhqir edirəm. Yox, tənqid deyildi. Məni təhqir etdi, mən də cavab verdim. O, söhbəti yayımlamadım. Kim istəyirsə, jurnalistlər mənimlə əlaqə saxlasın. Ona həmin təhqirləri verim. Yayımlamasınlar, amma görsünlər o təhqiri".

# "Mənim kimi qızı olan atasına, anasına baxmalıdır" - Pərvindən açıqlama



***"İndiyənə kimi aldığım ən bahalı hədiyyənin qiyməti 30 min olub. Ziynət əşyası idi. Başqa hədiyyələri deməyim".***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bu sözləri aktrisa Pərvin Abıyeva "Həmin Zaur" proqramında deyib. Sənətçi aldığı hədiyyələrdən danışıb.

Ailəsindən danışan Pərvin "Evdə deyirlər hamının qızı ərə getdi, Pərvin qalıb" sualına "Atam tez-tez deyir, eşitdirir. Görür özümdə işə yaramır, bacıma deyir. Atam anamı qaçırdıb. İkisi də Bakıda təhsil alıb. Həmin vaxt tanış olublar. Ərə gedəndə ər mənə baxacaq. Hər qadın istəyir ər çörəyi yesin" cavabını verib.

"Atan işləyir? Eşitdik, ata, ananı qoymursan ki, mənim kimi qızı olan işləməz" sözlərinə aktrisa "Mənim kimi qızı olan ata, anasına baxmalıdır. Nə fərqi var, işləyir, ya yox" reaksiyasını verib.

# "Nigar Camal kimdir, aktrisadır?"

***"Nüşabə Ələsgərli, Roza Zərgərli, Sevda Sanəliyeva ilə barışmışam. Nüşabə xanımla daha böyük müsahibə olmuşdu. Sevda və Roza xanımla yüngül inciklik idi".***

"Unikalo" axşam.az-a istinadən xəbər verir ki, bu sözləri müğənni Afət Fərmanqızı "7 Canlı" proqramında deyib. İfaçı ona təqdim edilən fotolara münasibət bildirib.

Nigar Camalla bağlı "Ondan xoşunuz gəlmir" sualına Afət "Nigar kimdir? Aktrisadır? Olsun elə o" cavabını verib.

Sənətçi Xalq artisti Flora Kərimova ilə bağlı qalmaqalından bəhs edib. O bildirib ki, Kərimovanın sənətini çox sevir, amma onu bağışlamayacaq.




## Mərkəzi Bank Vətən Müharibəsi iştirakçısına kredit vermir

***Mərkəzi Bank Aprel, Tovuz döyüşlərinin və Vətən Müharibəsinin iştirakçısına kredit verilməsinə mane olub.***

Bu barədə Unikal.org-a şikayətçi Elşən Umarov məlumat verib.

E.Umarovun sözlərinə görə, Mərkəzi Bank onun adını problemli müştərilər siyahısına alıb. O bildirib ki, buna səbəb Elşən Umarovun Qarabağda vuruşan zaman kredit ödənişlərini gecikdirməsi və "Unibank" Kommersiya Bankının ona gecikmə yazması olub. Müharibə dayandıqdan sonra Elşən Umarov gəlib gecikmiş borclarını ödəyib. İndi isə o, övladının xeyir işi məqsədilə almaq istədiyi krediti Mərkəzi Bankın ona "problemli müştəri"lər siyahısına alması səbəbindən əldə edə bilmir.

Qeyd edək ki, Elşən Umarov Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.

***Seymur Əli***

## Prokurorluq "Bolluq LTD"daki qanunsuzluqlarla bağlı MƏLUMAT YAYDI

***"Bolluq LTD" MMC-nin Şirvan şəhər filialında yol verilən qanunsuzluqlarla bağlı daxil olmuş müraciət əsasında rayon Prokurorluğunda araşdırma aparılıb.***




Bu barədə Unikal.org-a Şirvan Şəhər Prokurorluğundan məlumat verilib.

Aparılan araşdırma zamanı MMC-nin satış təmsilçisi vəzifəsində işləmiş Gündüz Həsənli tərəfindən 2020-ci il noyabrın 01-dən 2021-ci il aprelin 19-dək olan dövrə 69 müştəri üzrə mədaxil və məxaricə dair həyata keçirilmiş əməliyyatlarda 15 min 400 manat məbləğində çatışmazlıq aşkar edilib.

Qeyd edilən fakta bağlı Cinayət Məcəlləsinin 179.2.3 və 179.2.4-cü (mənimsəmə-şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə xeyli miqdarda ziyan vurmaqla törədildikdə) maddələri ilə cinayət işi başlanılıb.

Hazırda cinayətin təfərrüatlarının araşdırılması və təqsirli şəxsin (şəxslərin) məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri istintaq tədbirləri davam etdirilir.

# Monopolist məmurların bitmək bilməyən "məcəllə oyunu"...

## Həftənin replikası: 15 ildir qəbulunu gözləyən layihənin "bəxti"ini bağlayan kimlərdir?

***Artıq 15 ilə yaxındır ki, Azərbaycanda düyünə düşmüş bir məsələ var: Rəqabət Məcəlləsinin qəbulu!***

Bu məcəllənin taleyi ilə bağlı yerli mətbuat 15 ilə yaxın müddətdə kifayət qədər yazıb; elə "Unikal" qəzeti olaraq biz də illərdir sözügedən sənədin qəbul edilməməsi barədə az bəhs etməmişik.

Xatırlatma: Rəqabət Məcəlləsi 2006-cı ildə prezident tərəfindən Milli Məclisə təqdim edilib. Bu qanun layihəsi iki oxunuşdan keçsə də, 3-cü oxunuşa çıxarılmayıb. Ötən ilin yayında isə məlumat yayılıb ki, Rəqabət Məcəlləsinin yeni layihəsi hazırlanıb. Bu barədə "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsinin icra vəziyyəti"nin 2017-ci il üzrə illik monitorinq və qiymətləndirmə hesabatı"nda qeyd edilib.

Hələ iki il öncə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov bildirmişdi ki, Rəqabət Məcəlləsinin qəbul edilməsi "Strateji yol xəritəsi"ndə 2019-2020-ci illər üçün nəzərdə tutulub. O əlavə etmişdi ki, hazırda sənəddə bəzi dəyişikliklər edilir: "Mənim aldığım məlumata görə, hazırda bunun üzərində iş gedir. Milli Məclis tərəfindən keçən iki oxunuşa bəzi dəyişikliklər edilir. Həmçinin, beynəlxalq maliyyə qurumları ilə razılaşmalar aparılır".

Deputat qeyd eləmişdi ki, Rəqabət Məcəlləsi mütləq qəbul edilməlir: "Çünki bu, "Strateji yol xəritəsi"ndə Prezident İlham Əliyev tərəfindən təsdiq edilib. Amma hələlik Milli Məclisə daxil olmayıb. İslahatların ciddi və kompleks şəkildə aparıldığı halda Məcəllənin qəbul olunması mütləqdir. Bu, hazırda bazarda vəziyyəti normallaşdırmaq üçün çox vacibdir... Fikir verirsinizsə, son vaxtlar bazarda ciddi problemlər, bəzi məhsulların qiymətləri ilə bağlı narazılıqlar yaranıb. Rəqabət Məcəlləsi qəbul olunacağı təqdirdə, bu kimi problemlərin həlli mümkün olacaq".

Deputat "bəziləri bu Məcəllənin qəbul edilməsinə mane olur" fikrinə də toxunmuşdu: "Bəzilər dedikdə, əsas monopolistlər nəzərdə tutulur. Əgər Rəqabət Məcəlləsi "Strateji yol xəritəsi"nə dövlət başçısı tərəfindən salınıbsa, artıq buna heç kim mane ola bilməz və qəbul olunacaq".

Həmin açıqlamadan iki il keçir!

Üstəlik, haqqında danışdığımız "Strateji yol xəritəsi" üçün 2021-ci il son ildir!

Lakin Rəqabət Məcəlləsinin qəbulundan hələ də heç bir xəbər yoxdur. Niyə? Bu sual artıq 15 ildir cavabını gözləyir...

Vaxtilə başqa bir millət vəkili, iqtisadçı Əli Məsimli KİV-ə açıqlamasında demişdi ki, bazar iqtisadiyyatı inhisarçılıqla rəqabətin sintezindən ibarət olsa da, dünyada elə ölkə yoxdur ki, rəqabət üçün şərait yaratmadan yüksək səviyyədə hərtərəfli inkişaf edə bilsin: "Çünki inhisarçılar öz mövqelərindən sui-istifadə edərək, yolverilməz vasitə və üsullardan yararlanaraq, yüksək mənfəət götürmək məqsədilə ayrı-ayrı fəaliyyət sahələrini, məhsul növlərinin idxal-ixracını və bazarların xeyli hissəsini nəzarətə alıb, azad rəqabəti boğmaqla inkişafımızın tormozlayıcı amilinə çevriliblər".

Məslimli qeyd etmişdi ki, son vaxtlar inhisarçılığın zəifləldilməsi istiqamətində müəyyən addımlar atılsa da, bu, hələlik ölkədə monopoliyaların tam aradan qaldırıldığını deməyə əsas vermir. Deputatın sözlərinə görə, inhisarçılar rəqabəti boğmaqla həm də iqtisadiyyatın şaxələnməsinə və səmərəliliyinin yüksəldilməsinə, elmi-texniki tərəqqinin inkişafına, əmək məhsuldarlığının və məhsulun keyfiyyətinin yüksəlməsinə, onun rəqabət qabiliyyətinin artmasına mənfi təsir göstərirlər.

Deputatın fikrincə, dövlətin antiinhisar siyasəti çoxşaxəli və uzunmüddətli bir proses olduğundan, antiinhisar və rəqabətə meydanvermə siyasəti müasir tələblərə cavab verən qanunvericilik aktları ilə möhkəmləndirilməlidir: "Ona görə də biz Rəqabət Məcəlləsinin qəbulunun sürətləndirilməsini, işlək mexanizm hazırlanıb həyata keçirilməsini Azərbaycanda inhisarçılığın sındırılmasının və rəqabətin inkişafının mühüm şərti hesab edirik".



Ümumiyyətlə, iqtisadçı ekspertlərin böyük çoxluğu bu ümumi qənaəti bölüşürlər ki, Rəqabət Məcəlləsinin qəbulunun dalana dirənməsi son nəticədə Azərbaycanda hələ də bazar iqtisadiyyatının üç fundamental prinsipinin effektiv kombinasiyasına nail olmağı mümkünsüzə çevirib: azad sahibkarlıq, azad rəqabət və ədalətli azad qiymətlər...

Ancaq bunların heç biri inhisarçıların maraqlarına cavab vermədiyindən onlar uzun illərdir müxtəlif vasitələrlə sözügedən qanun layihəsinin qəbulunu bu və ya digər vasitələrlə əngəlləyirlər. İtirən isə ölkə iqtisadiyyatı, dövlətin xəzinəsi (yəni büdcə) və vətəndaşların cibi olur.

Unutmamaq lazımdır ki, bazar iqtisadiyyatının ən önəmli elementi sağlam rəqabətdir. Elə bir rəqabət ki, bu həm istehsalı gücləndirir, həm də istehlakçıların keyfiyyətli və uyğun qiymətə məhsul əldə etməsini şərtləndirir. Monopolistlər isə bazarı öz əllərində cəmləməkdən, bu bazarda öz istədikləri qiyməti diqtə etməkdən başqa heç nə barədə düşünmürlər. Belə olan halda onlar niyə rəqabət mühitinin yaranmasının, dolayısı ilə, həm də belə bir mühitin ortaya çıxması üçün həlledici rol oynaya biləcək Rəqabət Məcəlləsinin qəbulunu istəsinlər ki?

Lakin dünyada, o cümlədən Azərbaycanda yaranmaqda olan yeni iqtisadi şərait ölkədəki monopolistlərin 2006-cı ildən bəri davam edən müqavimətini qırmağı və sözügedən məcəllənin qəbulunu tezləşdirməyi tələb edir. Əks halda inhisarçılar özləri üçün "qaz vurub qazan doldurmağa", dövlətin və vətəndaşın cibi isə zərər görməyə davam edəcək.

Yenə vaxtilə iqtisadçı ekspertlərdən Fuad İbrahimovun bu yaxınlarda KİV-ə dediyi kimi: " Necə ki, bəşəriyyət onkoloji xəstəliklərdən qorxur, iqtisadiyyat üçün də ən qorxulu xəstəlik inhisarçılıqdır. İnhisarçılığı tamamilə aradan qaldırmaq heç vaxt mümkün olmur. Lakin onu hansısa həddə dayandırmaq mümkündür. Bunun üçün də gərək Rəqabət Məcəlləsi mütləq qəbul edilsin. Rəqabət Məcəlləsi qəbul edilsə, inhisarçılığı müəyyən səviyyədə tənzimləmək mümkün olar... Əgər bu Məcəllənin qəbulu ləngiyirsə, belə çıxır ki, kimlərsə onun qəbul olunmamasında maraqlıdır. Qəbul edilmirsə, deməli, qəbul edilməsində maraqlı deyillər. Siz yadınıza salın, "ASAN Xidmət" olmadığı vaxtlarda "OVİR" önündəki növbələri. İnsanlar xarici pasport almaq üçün günlərlə növbəyə dayanırdılar, gecə "OVİR" önünə gəlib səhəri orada açanlar vardı.

Bu kimə sərf edirdi? Əlbəttə, bir qrup məmura. Amma "ASAN Xidmət" yaradıldı və artıq vətəndaşlar çox rahat şəkildə, sərbəst, yalnız qanunla müəyyən edilmiş dövlət rüsumu ödəyərək xarici pasport, şəxsiyyət vəsiqəsi alır, eləcə də digər hansısa sosial problemlərini, sənədləşmə işlərini həll edirlər. İqtisadiyyatımız üçün də bu gün ən əsas məsələ Rəqabət Məcəlləsinin qəbul edilməsidir. İnanın ki, bu məcəllə qəbul edilsə, bir çox müsbət dəyişikliklərin şahidi olacağıq".

Fikrimizcə, əlavə şərhə ehtiyac qalmır...

***Hüseyn İsgəndərov***

# Azərbaycanın siyasi səhnəsində mühüm dəyişiklik

## Üzvlərinin sayı 5 mindən aşağı olan, ölkənin siyasi həyatında iştirak etməyən partiyalar qapadılacaq

***Ölkənin siyasi arenasında ciddi dəyişikliklərin edilməsi planlaşdırılır. Bunun üçün öncə qanunvericilik bazasının dəyişdiriləcəyi bildirilir.***

Əsas məqsəd siyasi partiyaların fəaliyyətini gücləndirmək və siyasi prosesləri aktivləşdirməkdir. Bu səbəbdən də "Siyasi partiyalar haqqında" Qanuna dəyişiklik edilməsi nəzərdə tutulur. Əsas dəyişikliklərdən biri partiyaların qeydə alınmasında üzvlərin sayı məsələsidir.

Məlumat üçün bildirək ki, "Siyasi partiyalar haqqında" Qanunda qeyd olunur ki, siyasi partiyanın qeydə alınması üçün Azərbaycan Respublikasının azı 1000 vətəndaşı onun üzvü olmalıdır. Unikal.org xəbər portalının yazdığına görə, dəyişiklikdə isə bu rəqəmin



5 minə qaldırılması nəzərdə tutulub. Qanuna edilən dəyişiklikdən sonra partiyaların yenidən qeydiyyat məsələsi gündəmə gələcək. Bu isə üzvlərinin sayı 5 mindən az olan partiyaların ləğv olunması, ya da bir neçəsinin birləşdirilməsinə səbəb olacaq.

Artıq bununla bağlı əksər siyasi partiyaların rəhbərliyinə məlumat verilib. Hətta bəzi üzvlərinin sayı az olan partiyalar birləşmək barədə də müzakirəyə başlayıb.

Xatırladaq ki, hazırda Azərbaycanda 56 qeydiyyatdan keçmiş partiya var. Yeni dəyişiklikdən sonra partiyaların sayının yarıya qədər endiriləcəyi gözlənilir.

Qeyd edək ki, Azərbaycan Demokratik Sahibkarlar Partiyası, Azərbaycan Xalq Demokratik Partiyası, Yurddaş Partiyası və Milli Qurtuluş partiyası Yeni Azərbaycan Partiyasına (YAP) qoşulublar.

Məlumat üçün bildirək ki, partiya üzvlərinin sayının çox olduğu əsas partiyalar var və onların yenidən qeydiyyat zamanı hər hansı problemlə üzləşəcəkləri gözlənilmir. Belə ki, hakim Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı bir milyona yaxındır və bu barədə danışmağa dəyməz. Bundan əlavə, hazırda parlamentdə təmsil olunan Vətəndaş Həmrəyliyi Partiyası, "Ana Vətən" Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Böyük Quruluş Partiyası, Vəhdət Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Demokratik İslahatlar Partiyası, Vətəndaş Birliyi Partiyası, Milli Cəbhə Partiyası, REAL Partiyasının qeydiyyat zamanı çətinliklə üzləşəcəkləri ehtimal olunmur. Doğrudur, bu partiyaların sırasında 5 min üzvün olması çətindir, amma onların parlamentə yol tapmasına şərait yaradanların yenidən qeydiyyatdan keçmələrinə də yardımçı olacaqları qaçılmazdır.

Bir də bəzi müxalifət partiyaları var ki, onların həm cəmiyyətdə nüfuzları var, həm də lazımi sayda üzvləri var ki, yenidən qeydiyyat zamanı hansısa problemlə üzləşməyə bilərlər. Onlar Müsavat Partiyası, Azərbaycan Xalq Cəbhəsi Partiyası, Azərbaycan Ümid Partiyası, Klassik Xalq Cəbhəsi Partiyası, Azərbaycan Demokrat Partiyası, "Ədalət" Partiyası, Vətəndaş və İnkişaf Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası, Azərbaycan Liberal Partiyasıdır. Son illər sosial şəbəkələrdə xüsusi fəallığı ilə seçilən Tural Abbaslının sədrlik etdiyi Ağ Partiyanın da müstəqil partiya kimi yenidən qeydiyyatdan keçmək imkanları var. Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyevlə də münasibətlərin daha da gərginləşdirilməyəcəyi gözlənilir.

Yerdə qalan partiyaları da iki qismə bölmək olar: hakimiyyətin müəyyən dairələrinin dəstəyi ilə ya müstəqil qalan, ya da birləşən partiyalar. Çox güman ki, Pənah Hüseynin sədr olduğu Azərbaycan Xalq Partiyası, Böyük Azərbaycan Partiyası, Vahid Azərbaycan Milli Birlik Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Azad Demokratlar Partiyası, Azərbaycan Liberal Demokrat Partiyası, Aydınlar Partiyası, Yeni Zaman Partiyası, Azadlıq Partiyası, Azərbaycan Təkamül Partiyası, Milli Konqres Partiyası, "Milli Vəhdət" Partiyası, Cümhuriyyət Xalq Partiyası, Azərbaycan Milli Demokrat Partiyasının üzvləri yetərli olmaya bilər. Bu səbəbdən də adları çəkilən partiyaların bu və ya digər formada birləşərək fəaliyyətlərini davam etdirmələri mümkündür.

Azərbaycan Kommunist Partiyası ilə Azərbaycan Sosial Demokrat Partiyasının sol təmayüllü siyasi təşkilat olduqları üçün onların ayrıca bir partiya kimi fəaliyyətlərinə şans tanına bilər.

Azərbaycan Naminə Alyans Partiyası, Azərbaycan Sosial Rifah Partiyası hakim siyasi kursu dəstəklədiklər üçün YAP-a birləşə bilərlər.

Son sırada gələn partiyalar isə sonradan yaranan, yaxud çox az sayda üzvləri olan, hətta adları ictimai rəyə bəlli olmayan siyasi təşkilatlardır. Müstəqil Xalq Partiyası, "Birlik" Partiyası, Milli Həmrəylik Partiyası, Azərbaycan Respublikaçılar Partiyası, Azərbaycan Azad Respublikaçılar Partiyası, "Qorqud" Partiyası, Milli Demokrat İdrak Partiyası, Gələcək Azərbaycan Partiyası, Sosial Ədalət Partiyası və "Azərbaycan Mübarizləri" Partiyasının yeni elənmədən sonta siyasi səhnədə qalmaq şansları yoxdur.

Görünən odur ki, əgər həyata keçirilən bu dəyişiklik gözlənilən kimi baş tutsa, o zaman ölkənin siyasi səhnəsi xeyli "təmizlənmiş"olar. Əslində Azərbaycan kimi bir ölkədə 56 siyasi təşkilatın olması gülüncdür. Nəzərə alsaq ki, bu partiyaların əksəriyyətinin nizamnaməsi və məramı-niyyəti eynidir, o zaman bu qədər partiya nəyə lazım? Hər halda, islahatlar demokratik prinsiplərə əsaslanaraq həyata keçirilsə, o zaman siyasi sistem həm yenilənər, həm də daha çevik bir institut formalaşar.

***Z.Məmmədli***



# Ceyhun Bayramov Səudiyyə Ərəbistanının investisiya naziri ilə görüşüb

***Xarici işlər naziri Ceyhun Bayramov Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində bu ölkənin investisiya naziri, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falihlə görüşüb.***

"Unikal"a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, qonaqları səmimi salamlayan səudiyyəli nazir Bakıya səfərlərini və dövlət başçısı İlham Əliyevlə görüşlərini məmnunluqla xatırlayaraq, Azərbaycanla bağlı təəssüratlarını bölüşüb.

C.Bayramov Azərbaycan və Səudiyyə Ərəbistanı arasında dövlət başçıları səviyyəsndə münasibətlərə toxunaraq, ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu bildirib və əməkdaşlığın digər sahələrdə də inkişafının vacibliyini vurğulayıb. Nazir əməkdaşlığın inkişafında Hökumətlərarası Müştərək Komissiyanın rolunu qeyd edərək, Komissiyanın 2019-cu ilin mart ayında Bakıda keçirilən son iclasının uğurlu olduğunu vurğulayıb. O, iqtisadi əməkdaşlığın prioritet istiqamətləri kimi enerji, kənd təsərrüfatı, turizm və mədən sənayesi sahələrində əməkdaşlıq imkanlarını qeyd edib.

C.Bayramov Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələri və 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış vəziyyət barədə Səudiyyə Ərəbistanı tərəfini məlumatlandırıb.

C.Bayramov Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan yenidənqurma işləri və həyata keçirilən infrastruktur layihələrindən danışaraq, dost Səudiyyə Ərəbistanını da bu prosesdə iştiraka dəvət edib. Azərbaycanın kənd təsərrüfatı məhsullarının Səudiyyə Ərəbistanına ixracı üçün böyük potensialın olduğunu bildirən nazir, bu sahədə əməkdaşlığın fəallaşdırılmasınIn vacibliyini qeyd edib.

İki ölkə arasında turizm sahəsində əməkdaşlığa toxunan C.Bayramov qeyd olunan sahədə pandemyadan əvvəl müşahidə olunan müsbət dinamikanın gələcəkdə də davam etdirilməsinin əhəmiyyətini bildirib.

Xalid Əl-Falih ölkəsinin enerji naziri qismində Azərbaycana səfəri zamanı bərpa olunan enerji və neft-kimya sahələrində əməkdaşlıq imkanlarını müzakirə etdiyini diqqətə çatdıraraq, ölkəmizin turizm imkanlarına toxunmuş hava nəqliyyatı sahəsində əməkdaşlıqdan bəhs edərək, sərnişindaşıma ilə yanaşı, yükdaşımaların da həyata keçirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, Səudiyyə Ərəbistanı şirkətlərinin Azərbaycanda həyata keçirilən layihələrdə iştirak etməkdə maraqlı olduğunu bildirərək, bu məsələnin Hökumətlərarası Müştərək Komissiyanın cari ilin payız aylarında Ər-Riyadda keçiriləcək növbəti iclasında müzakirə olunacağını qeyd edərək, Azərbaycan - Səudiyyə Ərəbistanı Biznes Şurasının yaradılması və birgə biznes forumun təşkilindən bəhs edib.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.



# Prezident və xanımı “Gülüstan” sarayında

***Bakıdakı əzəmətli “Gülüstan” sarayı yüksək səviyyədə və özünəməxsus memarlıq üslubu saxlanılmaqla yenidən qurulub.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Gülüstan” sarayında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

“Gülüstan” sarayı ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1979-1980-ci illərdə inşa edilib. Ulu Öndər bu sarayın tikintisinin gedişini şəxsən daim nəzarətdə saxlayıb, inşaat işlərinin yüksək səviyyədə aparılması ilə bağlı mütəmadi olaraq tövsiyə və tapşırıqlarını verib. “Gülüstan” sarayı yalnız keçmiş Sovet İttifaqında deyil, daha geniş məkanda ən müasir və özünəməxsus gözəl arxitektura nümunələrindən biri hesab olunurdu. Bakının memarlıq ansamblını daha da gözəlləşdirən bu sarayın inşası o zaman Ulu Öndərin paytaxtımızın inkişafı ilə bağlı həyata keçirdiyi silsilə tədbirlərin tərkib hissəsi idi. Sarayın arxitekturasında Azərbaycanın milli memarlıq elementlərindən geniş istifadə olunub.

Öz əzəməti və bənzərsiz memarlıq üslubu ilə seçilən “Gülüstan” sarayında tarixi əhəmiyyət kəsb edən, müxtəlif sahələrə aid bir sıra ümumrespublika və beynəlxalq əhəmiyyətli tədbirlər keçirilib. Onların arasında “Əsrin müqaviləsi”nin imzalanması və digər tarixi hadisələri qeyd etmək olar. Zaman keçdikcə “Gülüstan” sarayının yenidən qurulmasına zərurət yaranmışdı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial infrastrukturun inkişafı və müasirləşdirilməsi, regionların və paytaxtımızın daha da abadlaşması, eyni zamanda, Bakının tarixi görkəminin saxlanılması, tarixi binaların bərpası ilə bağlı layihələrin icrası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Dövlətimizin başçısının tapşırığı ilə “Gülüstan” sarayının yenidən qurulması da bu istiqamətdə görülən işlər sırasında mühüm yer tutur.

“Gülüstan” sarayında 600 yerlik əsas zal, həmçinin “Şərq” zalı və konfrans zalı da müasir səviyyədə yenidən qurulub. Beləliklə saray yeni görkəmdə, yeni üslubda, amma öz tarixi koloritini saxlamaqla qapılarını qonaqların üzünə açır.

Paytaxtın dağlıq hissəsində yerləşən “Gülüstan” sarayı Bakı körfəzini və şəhərin mənzərəsini seyr etmək üçün ən gözəl məkanlardan biridir. “Gülüstan” sarayının yenidən qurulması heç şübhəsiz ki, postpandemiya dövründə də Azərbaycanın yüksək səviyyədə ev sahibliyi edəcəyi beynəlxalq tədbirlərin keçirilməsi işinə öz töhfəsini verəcək.

# Azad olunan yerlərə ilk növbədə bu məcburi köçkünlər qaytarılacaq

***”Məcburi köçkünlərin böyük əksəriyyəti birmənalı olaraq öz şəhərlərinə, rayonlarına, kəndlərinə qayıdacaqlar”.***

“Unikal” xəbər verir ki, bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Ukraynanın ”Ukrayna 24” telekanalına müsahibəsində deyib.

Onun sözlərinə görə, Ermənistanın işğalından azad



olunmuş ərazilərdə şəhərlər və kəndlər abadlaşdırıldıqdan sonra oraya ilk növbədə məhz daimi yaşayış yeri ilə təmin edilməmiş vətəndaşlar köçürələcək.

“Kifayət qədər müasir şəraitdə yaşayan məcburi köçkünlər də həmin ərazilərə qaytarılacaq, lakin biz ilk növbədə yaxşı şəraitdə yaşamayan insanlara kömək edəcəyik”, - Dövlət Komitəsinin sədri bildirib.

# Tehran Mənsimova daha iki medal verildi

***Azərbaycan Prezidenti İlham Əliyevin bu gün imzaladığı sərəncamlara əsasən, təltif edilənlər arasında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Döyüş Hazırlığı və Tədris İdarəsinin rəisi, polkovnik Tehran Mənsimov da yer alıb.***

“Unikal” xəbər verir ki, polkovnik Mənsimov Tehran Cavid oğlu “Füzulinin azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

Xatırladaq ki, T.Mənsimov Prezidentin ötən ilin dekabrında imzaladığı sərəncamla da “Azərbaycan Bayrağı” ordeninə layiq görülüb. Bundan əlavə, polkovnik “Şuşanın azad olunmasına görə”, “Vətən uğrunda” medalları ilə mükafatlandırılıb.



# BMT-nin Sivilizasiyalar Alyansının nümayəndə heyəti Bakıda olub

***Xəbər verdiyimiz kimi, BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Migel Anxel Moratinos ölkəmizdə səfərdədir. Bakıda bir sıra görüşlər keçirən nümayəndə heyəti işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarına səfər edərək, ermənilərin işğal dövründə törətdiyi vandalizmlə yerində tanış olub.***

“Unikal” xəbər verir ki, nümayəndə heyəti səfər çərçivəsində Bakıdakı Müqəddəs Qriqori erməni kilsəsinə də baş çəkib. Qonaqlara kilsə haqqında məlumat verilib. Bildirilib ki,



tolerantlığın yüksək səviyyədə təmin olunduğu Azərbaycanda heç bir ayrı-seçkilik qoyulmadan bütün dini abidələr və ibadət yerləri dövlət tərəfindən qorunur.

Qeyd olunub ki, kilsədə erməni dilində kitablar qorunub saxlanılır. Kitabların arasında bir neçə yüzillik tarixi olan nadir Bibliya nüsxələri də var. Burada saxlanılan kitabların tədqiqat üçün istifadəyə açıq olduğu da diqqətə çatdırılıb.

Vurğulanıb ki, Ermənistan öz ərazisində, eyni zamanda otuz ilə yaxın işğal altında saxladığı Azərbaycan torpaqlarında xalqımıza məxsus bütün tarixi, mədəni abidələri, o cümlədən 60-dan çox məscidi dağıdıb, talan edib, bir çox məscid binalarında heyvanlar saxlanılıb. İşğalçılar bununla təkcə Azərbaycan xalqına qarşı deyil, ümumilikdə İslam sivilizasiyasına, dini dəyərlərə barbar münasibətlərini nümayiş etdiriblər.

Ermənistandan fərqli olaraq, Azərbaycan həmişə bütün dinlərə və mədəniyyətlərə tolerant münasibət göstərib. Bakının mərkəzindəki erməni kilsəsinə münasibət də buna nümunədir. Diqqətə çatdırılıb ki, kilsə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli Qərarı ilə təsdiq edilmiş dövlət tərəfindən mühafizə olunan daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxildir.

Sonra qonaqlar işğaldan azad olunan ərazilərdə Ermənistanın otuz il ərzində məscid binalarına qarşı həyata keçirdiyi barbarlığı əks etdirən fotolardan ibarət sərgiyə baxıblar.

# Ermənilər Tovuz istiqamətində mövqelərimizi atəşə tutdu - RƏSMİ



***İyunun 24-də saat 14.30-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Berd rayonunun Ayqedzor kəndi yaxınlığında yerləşən mövqelərdən Tovuz rayonu Muncuqlu kəndi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.***

Müdafiə Nazirliyindən Unikal.org-a verilən məlumata görə, Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Baş redaktor:
Zaur Əhməd

“Turanbank” ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

**ELAN**

**Bakı şəhəri Nəsimi rayon Azadlıq prospekti 70 ev 68 ünvanında yaşayan Kərimov Əlövsət Zaur oğluna məxsus ağ bilet, doğum haqqında şəhadətnamə, 11illik attestat Bakı şəhəri Nəsimi rayonu ərazisində itdiyi üçün etibarsız sayılır.**

**Tel: (051-853-27-20)**

# Cərimələr gəlir: Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirə olundu

***İyunun 24-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib.***



"Unikal" xəbər verir ki, iclası açan Milli Məclis Sədrinin birinci müavini, bu komitənin sədri Əli Hüseynli bildirib ki, gündəliyə Milli Məclisə eyni zərfdə daxil olmuş və hamısı birinci oxunuşda müzakirəyə təqdim edilmiş 4 qanun layihəsi daxildir. Dəyişikliklər cənab Prezidentin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanının icrası istiqamətindəki tədbirlər çərçivəsində hazırlanıb. Bunlar Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında, İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında iki qanun layihəsi və "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə məsələlərdir.

Əli Hüseynli diqqətə çatdırıb ki, təklif olunan dəyişikliklər ölkəmizdə məhkəmə-hüquq sistemində davam etdirilən islahatlarla əlaqədar olaraq hazırlanıb. Dəyişiklikləri hazırlayan işçi qrupuna Ali Məhkəmənin Mülki Kollegiyasının sədri Sənan Hacıyev rəhbərlik edib. Ona görə də bu 4 qanuna təklif olunan dəyişikliklərlə bağlı o, özü məlumat verəcək.

Gündəlikdəki 4 qanun layihəsi barədə məlumat verən Ali Məhkəmənin Mülki Kollegiyasının sədri Sənan Hacıyev bildirib ki, mülki-prosessual qanunvericilikdə 160-dək maddəyə dəyişiklik təklif olunur. Əsas dəyişikliklər Yazılı icraat institutunun tətbiqi, Məhkəməyə hazırlıq institutunun gücləndirilməsi, Elektron məhkəmə sisteminin tətbiqi, Müvəqqəti təminat tədbirlərinin görülməsi, İcrada dönüş institutunun yaradılması ilə əlaqədardır.

İşçi qrupunun təhlili göstərdi ki, məhkəmələrdə işlərin uzanmasının əsas səbəbi onların məhkəmələrə hazırlıqsız şəkildə təqdim olunmasıdır. Buna görə də məhkəməyə hazırlıq institutu gücləndirilməli, sübutlar hazırlıq iclasına təqdim olunmalıdır. Burada məqsəd işlərə prosessual qanunvericilikdə müəyyən olunmuş zaman çərçivəsində baxılmasını təmin etmək, vətəndaşların ədalət mühakiməsindən məmnunluq səviyyəsini artırmaq, eyni zamanda cavabdeh tərəflərə özünümüdafiəni qurmağa imkan verməkdən ibarətdir. Yeniliklərdən biri də videokonfrans əlaqə sistemindən istifadə etməklə proseslərin həyata keçirilməsi imkanıdır. Bundan başqa, məhkəməyə sübutların təqdim edilməməsinə görə intizamlandırıcı tədbir olaraq tətbiq olunan 50 manat cərimənin məbləğinin 2000 manatadək artırılması təklif olunur. Əsassız vəsatətlərlə işin uzadılmasına nail olma halları zamanı da tərəflərin 500 manatadək cərimələnməsi nəzərdə tutulur ki, bu da intizamlandırıcı məqsəd daşıyır. Bundan başqa, dəyişikliklərdə bəzi prosessual müddətlərin azaldılması, bəzilərinin isə artırılması nəzərdə tutulur. Dəyişikliklərdə kasasiya şikayətlərinin hədləri də dəyişdirilir. Vahid məhkəmə sisteminin təmin edilməsi baxımından bu həddin 2000 manatdan 5000 manata qaldırılması nəzərdə tutulur.

Qanun layihələri ətrafında aparılan müzakirələrdə çıxış edən komitə üzvləri Qüdrət Həsənquliyev, Fəzail Ağamalı, Bəhruz Məhərrəmov, Azay Quliyev, Tahir Kərimli və Vüqar İskəndərov təklif olunan dəyişiklikləri yüksək qiymətləndiriblər. Bildirilib ki, bu dəyişikliklər məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsinə və vətəndaş məmnunluğunun artırılmasına yönəldilib.

İclasda çıxış edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim olunan dəyişikliklərin iqtisadi aspektlərinə aydınlıq gətirib.

Müzakirələrin sonunda gündəlikdəki 4 məsələnin hamısı birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov və digər rəsmi şəxslər də iştirak ediblər.

# Sahibə Qafarova BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi ilə görüşüb

***İyunun 24-də Milli Məclisin Sədri Sahibə Qafarova BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsakzaini ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.***

Milli Məclisdən "Unikal"a bildirilib ki, spiker qonağı səmimi salamlayaraq, Azərbaycanın bütün beynəlxalq təşkilatlarla, o cümlədən, BMT ilə münasibətlərə böyük əhəmiyyət verdiyini bildirib. Sahibə Qafarova ölkəmizin BMT-nin bir çox təsisatları ilə sıx əlaqələr qurduğunu və uğurlu əməkdaşlıq həyata keçirdiyini, paytaxt Bakının BMT-nin bir neçə mühüm tədbirinə ev sahibliyi etdiyini, ötən il Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi iclasının keçirildiyini qeyd edib.

BMT-nin Azərbaycandakı ofisinin müxtəlif proqramlar çərçivəsində ölkəmizin dövlət qurumları ilə fəal əməkdaşlıq etdiyini də bildirən spiker Sahibə Qafarova xüsusilə dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün görülən tədbirləri qeyd edib.

Görüşdə Milli Məclisin Sədri cənab Qulam İsakzainin Azərbaycan üçün çox əhəmiyyətli və tarixi bir dövrdə ölkəmizdə fəaliyyət göstərdiyini bildirərək, xatırladıb ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan öz torpaqlarını Ermənistanın işğalından azad edərək ərazi bütövlüyünü bərpa etdi, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı 4 qətnaməsini özü yerinə yetirdi. Hazırda isə yeni bir dövrə - bərpa və yenidənqurma dövrünə qədəm qoymuşuq.

Üçtərəfli bəyanatın imzalanmasından sonra Ermənistan tərəfindən törədilən təxribatlarla bağlı məlumat verən Sahibə Qafarova bildirib ki, müharibə başa çatdıqdan sonra azad olunmuş ərazilərdə çoxlu sayda hərbçi və mülki vətəndaşımız Ermənistan tərəfindən quraşdırılmış minalara düşüb. Azərbaycan tərəfinin mina xəritələrinin təqdim edilməsi ilə bağlı çoxsaylı çağırışlarına baxmayaraq, Ermənistan bundan imtina edir və bununla da beynəlxalq humanitar hüququ pozaraq, hərbi cinayətlərini davam etdirir. Spiker, iyunun 4-də 3 nəfər azərbaycanlının öz xidməti fəaliyyətini yerinə yetirərkən minaya düşərək həlak olmaları faktını xatırladaraq, əlavə edib ki, onlardan ikisi jurnalistdir. Sahibə Qafarova həmçinin bildirib ki, Ermənistan sərhədlərin delimitasiyası məsələsində də təxribatlara əl atır, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın müddəalarını kobud şəkildə pozaraq azad olunmuş ərazilərimizə terrorçu qruplar göndərməkdə davam edir və bu bəyanatın imzalanmasından sonra Azərbaycan ərazilərində həbs olunmuş terrorçuları "hərbi əsirlər" kimi qələmə verməyə çalışır.

Səmimi qəbul üçün minnətdarlığını bildirən BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Azərbaycanda fəaliyyəti dövründə ona göstərilən dəstəyə və yaradılan şəraitə görə təşəkkürünü ifadə edərək, bu illər ərzində təşkilatla Azərbaycanın müvafiq qurumları arasında məhsuldar əməkdaşlıq həyata keçirildiyini qeyd edib. O, son illərdə BMT-nin müvafiq proqramları çərçivəsində baş tutan tədbirlərdən danışıb.

Milli Məclisin Sədri Qulam İsakzainin Azərbaycandakı uğurlu fəaliyyətini, BMT və Azərbaycan arasındakı əməkdaşlığın inkişafına verdiyi töhfəni qeyd edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.



## Şadlıq saraylarında kondisionerlərin işləməsinə məhdudiyyət qoyulub? - Rəsmi cavab

***Son günlərdə şənlik mərasimlərinin keçirildiyi məkanlarda kondisioner və havalandırma sistemlərin işləyib-işləməyəcəyi geniş müzakirə mövzusudur.***

Qida Təhlükəsizliyi Agentliyindən verilən məlumata görə, Nazirlər Kabinetinin qəbul etdiyi qərara əsasən 50 nəfərə qədər şəxsin iştirakı ilə təşkil olunan şənlik mərasimləri "İctimai iaşə müəssisələrində koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair Metodiki Göstərişlər"ə uyğun olaraq tənzimlənir:

"Əlavə olaraq, 50 nəfərdən 150 nəfərə qədər olan şənlik mərasimlərinin keçirilməsi ilə bağlı əlavə metodiki göstərişlər təsdiq olunaraq yaxın günlərdə ictimaiyyətin diqqətinə çatdırılacaqdır. Bildirmək istərdik ki, sözügedən göstərişlərdə kondisionerlərə və havalandırma sistemlərinə dair heç bir məhdudiyyət müəyyən edilməyib. Qaldırılan digər məsələlərdən biri də fərdi yaşayış evlərinin həyətlərində keçirilən şənlik mərasimləri ilə bağlıdır".

"Bununla bağlı bildirmək istərdik ki, həyətlərdə, bağ yerlərində şənlik mərasimlərinin keçirilməsinə yalnız "İctimai iaşə müəssisələrində koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair Metodiki Göstərişlər"də müəyyən olunmuş tələblərə riayət edildiyi və qonaq sayı 50 nəfərə qədər olduğu halda icazə verilir",- deyə rəsmi məlumatda qeyd olunub.

## Prezident ona general rütbəsi verdi

***Prezident İlham Əliyev Anar Məmmədova polis general-mayoru ali xüsusi rütbəsinin verilməsi haqqında sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, sərəncama əsasən, Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Katibinin Xidmətinin Ümumi təhlükəsizlik məsələləri şöbəsinin müdiri Anar Məhəmməd oğlu Məmmədova polis general-mayoru ali xüsusi rütbəsi verilib.

## Azərbaycanda daha 51 nəfər koronavirusa yoluxdu

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 51 yeni yoluxma faktı qeydə alınıb, 76 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, ölüm faktı olmayıb.

## Paşinyan və Putin arasında telefon danışığı oldu

***Rusiya prezidenti Vladimir Putinlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında telefon danışığı olub.***

Unikal.org xəbər verir ki, Putin Paşinyanı uğurlu seçki münasibətilə təbrik edib. Tərəflər telefon danışığı zamanı Qarabağla bağlı razılaşmaları da müzakirə ediblər.

Paşinyan bildirib ki, "hərbi" əsirlərin qaytarılması vacibdir.

## Ölkə başçısından Suqovuşanla bağlı sərəncam

***Prezident İlham Əliyev iyunun 24-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının “Suqovuşanın azad olunmasına görə” medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.***

“Unikal” xəbər verir ki, Sərəncama əsasən, Azərbaycan Respublikasının Suqovuşan kəndinin işğaldan azad olunması uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik nümunəsi göstərmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 647 hərbi qulluqçusu “Suqovuşanın azad olunmasına görə” medalı ilə təltif edilib.

## Mayis Bərxudarovun qardaşları təltif edildi

***Prezident İlham Əliyev tərəfindən Vətən müharibəsindəki döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyi üçün mükafatlandırılanlar arasında general-mayor Mayis Bərxudarovun iki qardaşı da var.***

Unikal.org xəbər verir ki, Bərxudarov Bayram Şükür oğlu və Bərxudarov Niyaməddin Şükür oğlu Ali Baş Komandanın sərəncamı ilə Füzulinin və Qubadlının azad olunmasına görə medalları ilə təltif ediliblər. Əsgər olan hər iki qardaş müharibəyə könüllü yollanıblar.

Qeyd edək ki, Birlik komandiri Mayis Bərxudarov özü Vətən Müharibəsindən sonra 6 medal, 1 ordenlə təltif edilib.

## Pozuntu edən hakimlərlə bağlı qərarı Ali Məhkəmə çıxaracaq

***Ali Məhkəmənin Plenumu Mülki Prosessual Məcəllənin 265.4-cü və 265.5-ci maddələrində nəzərdə tutulmuş hallarda habelə işə birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində baxılması zamanı prosessual normaların kobud pozulmasına yol vermiş hakimlər barəsində qərardad çıxara bilər.***



Bu barədə Mülki Prosessual Məcəlləyə edilən dəyişikliklərdə bildirilir. Sözügedən dəyişiklik Məcəlləyə yeni əlavə edilən 438.1-ci maddədə əks olunub.

438.1-2 ci maddəyə əsasən isə hakimlər barəsində çıxarılmış xüsusi qərardad intizam icraatının başlanması üçün Ali Məhkəmənin sədri tərəfindən Məhkəmə-Hüquq Şurasına göndərilir.

# “Məmurlar dövlət telefonlarını şəxsi mobil telefon kimi işlədirlər”

## Tahir Kərimli: “Səhiyyə Nazirliyi ilə bağlı çox vacib məsələ var idi, bütün nazir müavinlərinə zəng elədim, biri də cavab vermədi”



***“Unikal” qəzetinin budəfəki müsahibi Vəhdət Patiyasının sədri, Milli Məclisin deputatı Tahir Kərimlidir. Onunla söhbətə öncə Şuşa Bəyannaməsindən, onun nəticələrindən və ölkəmizə, regiona hansı töhfələr verəcəyi ilə bağlı sualla başladıq.***

***-Tahir müəllim, öncə Şuşa Bəyannaməsi ilə bağlı fikirlərinizi bilmək istərdik. Artıq bir neçə gün keçib və reaksiyaları izləyirsiniz. Həm ölkə daxilində, həm də xaricdən olan reaksiyaları necə dəyərləndirirsiniz?***

-Əslinə baxanda, bu Bəyannamə yüz ilin hadisəsidir. Qars müqaviləsində Türkiyə ancaq Naxçıvanın qarantiyasıdırsa, Şuşa Bəyannaməsi bütünlüklə Azərbaycanın tühlükə qarşısında olacağı təqdirdə, Türkiyənin bütün mənalarda dəstəyini özündə ehtiva edir. Hansısa dövlət, dövlətlər birliyi tərəfindən Azərbaycana hücum olarsa, Türkiyə müdaxilə edə biləcək. Ona görə də bu, çox böyük bir hadisədir.

Bunun digər əhəmiyyəti odur ki, son iki yüz il ərzində Qafqazda yalnız Rusiyanın iştirakı var idi, indi Türkiyə də regiona gəlmiş oldu. NATO üzüvü olan bir ölkənin Qafqaza gəlişi sıradan bir məsələ deyil. Hesab edirəm ki, bu bizim üçün çox önəmli sığorta sistemidir. Yəqin ki, qarşıdakı dövrdə bütün istiqamətlərdə mühüm yeniliklərin də şahidi olacağıq.

***-Vətən Müharibəsindən sonra əldə olunan razılaşmalarla yanaşı, son Bəyannaməyə Ermənistan tərəfinin də münasibətini gözardı etmək lazım deyil. Artıq Ermənistanda seçki baş tutdu, Paşinyan qalib gələrək hakimiyyəti əldə saxladı. Necə düşünürsünüz, bütün bu razılaşmalara Ermənistanın mövqeyi necə olacaq?***

-Son seçki Ermənistan cəmiyyətinin Azərbaycanla müharibə etmək istəmədiyinin, yaxud da bizə güclərinin çatmayacaqlarının etirafı deməkdir. Köçəryan və onu dəstəkləyən generalitetin istəkləri baş tutmadı, xalq Qarabağ klanına və revanşistlərə “yox” dedi. Ona görə yox ki, Paşinyandan xoşları gəlir. Hamı bilir ki, Paşinyan Ermənistanı uduzdurmuş adamdır. Ona görə ki, artıq Azərbaycanla kəllə-kəlləyə gələ bilməyəcəklərini anladılar.

***-Amma Rusiyanın da prosesə münasibəti vacibdir...***

-Əbəttə. Amma Paşinyanın seçilməsi Rusiyanın da maraqlarına uyğundur. Çünki Rusiya 10 noyabr anlaşmasının icrasını istəyir. Əgər Köçəryan və digərləri bu anlaşmadan imtina edəcəkdilərsə, bu, Rusiyanın nüfuzunun zədələnməsi olardı. Yəni, revanşizm gündəmə gəlsəydi, yeni bir çalxalanma olacaqdı və bu da Rusiyaya sərf eləmirdi. Bu mənada Paşinyanın qərbyönümlü olmasına baxmayaraq, seçilməsi Rusiyaya sərf edir.

***-Tahir müəllim, söhbətimizin istiqamətini dəyişək. Son dövrlər sosial şəbəkələrdə ən çox müzakirə olunanlardan biri də Sizsiz. Maraqlıdır ki, problemlərdən danışsanız da, tənqidi fikirləriniz olsa da, yenə də hədəfdə olursunuz. Bu aqressiyanın səbəbi nədir?***

-Çox təəssüf edirəm ki, yuxarılar da, aşağılar da məndən narazıdır. Deputat kimi siyasi islahatların aparılmasını, referendum keçirilməsini, Nazirlər Kabinetinin paralel institut kimi ləğv olunmasını təklif edirəm, amma məndən inciyirlər. Niyə axı? Başqaları da bu kimi fikirlər səsləndirir. Amma onlara qarşı belə aqressiv mövqe olmur. Mən hər zaman demişəm, deputatlıq mənim üçün vasitədir, qazanc əldə etmək yeri deyil. 22 ildən artıq işsiz olmuşam, kommersiyam yox, gəlir yerim yox. Yəni, imkansızlığa öyrənmiş adamam. Hər an deputat mandatından imtina edə bilərəm. Hamı bilir ki, məni təhdid eləmək, yol göstərmək, təzyiq eləmək mümkün deyil. Lovğalıq üçün demirəm, olan budur. Ən kəskin formada, ən yüksək kürsündən xalqın sözünü deyirsən, yenə də hamı üçün pis adam olursan. Uşaqpulundan tutmuş kommunal xərclərə qədər bütün məsələləri qaldırmışam, amma nəticəyə bax. Elə məsələlər var ki, bizim səlahiyyətimizdə deyil. Qaldırdığımız problemlərin həll olunmamasından mən də narazıyam. Sonuncu iclasların birində tələb edirdim ki, neftin qiyməti artdığı halda niyə hökumət büdcəyə yenidən baxıb sosial müavinətləri artırmırıq. Hökuməti tənqid edirəm, yuxarıdakılar narahat olur, amma pisi odur ki, xalqın sözünü deyən adam kimi sosial şəbəkələrdə ağızlarına gələni yazırlar.

***-Yaxşı, xalqın sözünü deyirsizsə, niyə Sizə hücum edirlər, tənqid atəşinə tuturlar?***

-Məni də yandıran elə budur da. Yaxşı, nətər edək? Danışmayaq, deməyək, millətin, dövlətin dər-sərini dilə gətirməyək? Ciddi çıxışlar edirəm, mövqeyimi bildirirəm, amma sonra görürəm ki, saytlarda əleyhimə kampaniya aparılır. Danışmırsan, deyirlər, laldır, danışmır, danışanda da belə. Belə də ədalətsizlik olmaz axı.

***-Bəzi iddialar var ki, deputatlar saxta yolla parlamentə düşdükləri üçün belə münasibət olur...***

-Yenə deyirəm. Mən heç kimin səsini oğurlamamışam, saxtakarlığa ehtiyacım olmayıb. Xalqım məni parlamentə seçib. Əgər hökumət məni parlamentə buraxıbsa, qarşıma səd çəkməyibsə, gedin, ondan soruşun da. Bu o demək deyil axı, mən razılaşmışam, saxtakarlıq eləmişəm. Milli Məclisdə də, mətbuatda da sözümü deyirəm, narazılığımı ifadə edirəm. Kimlərsə, danışığa gedib 10 illə parlamentdə oturub, heç onlardan danışan yoxdur. Kimin yadındadır, 10 il ərzində AXCP üzvü olan deputatlar nə danışıblar? Biz özümüzü xalqdan ötrü öldürürük, amma yenə də axırda pis olan bizik. Amma heç bir iş görməyən adamlar bizi ittiham edirlər. Onlar olub müxalifət, biz olmuşuq iqtidar tərəfdarı. Mən nə müxalifətəm, nə iqtidaram. Mən haqq bildiyimi deyirəm. Xalqımı da, dövlətimi də müdafiə edirəm, iqtidarın da, müxalifətin də yaxşısına yaxşı, pisinə pis deyirəm.

Mən də gedib, özüm, qohum-əqrəbam üçün gün ağlayardım. Amma bunu eləmədim. İndi belə bir adama qarşı ədalətsizlik eləmək adamı yandırır. Bunlar görmürlər ki, mənim əməkhaqqımdan başqa gəlir yerim yoxdur? Nə qədər yalan demək olar ki, villası var, milyonları var. Bezdik daha, bu qədər yalan olmaz axı. Belə şeyləri eşidəndə, görəndə deyirəm ki, istefa vermək istəyirəm, pensiyaya da çıxmışam, daha bəsdir. Onda da deyirlər ki, belə danışma. Partiyanın taleyi necə olacaq, filan. Yaxşı, mən necə davranım? Kimlə sazişə girmişəm, kimə yaltaqlanmışam, kimə pislik eləmişəm? Bütün bunlar məni çox incidir.

***-Tahir müəllim, cəmiyyətdən gələn mənfi impulsları anlamaq olar. Kütləvilik var, fərqli fikirlər ola bilər. Bəs hakimiyyət nümayəndələrindən olan reaksiyalar, saymamazlıq necə, orda ki, konkret ünvan var...***

-Bilirsiniz, əgər deyilirsə ki, korrupsiya olmamalıdır, deməli, olmamalıdır. Əgər varsa, deməli, düzgün siyasət deyil. Mən istəyirəm ki,ölkəmdəki sistem təmiz olsun. O ki qaldı konkret şəxslərin ünvanının göstərilməsinə, mən bilsəm ki, ad çəksəm, iş düzələcək, ad çəkərəm. Onu da unutmayaq ki, bəyəm o cür məmurlar birdir, ikidir? Bir-iki nəfər yoxdur ki, yaxşı deyəm, qalanın hamısı eynidir də. Məmurlar dövlət telefonlarını şəxsi mobil telefon kimi işlədirlər. Hökumət telefonuna cavab vermək hər bir məmurun vəzifə borcudur, amma 90 faizi öz bildiyini edir. Yaxşı, mən naziri, nazir müavinini necə tapıb xalqın sözünü deyim, sonra da adını yaxşılığa çəkim. Bir ay bundan əvvəl Səhiyyə Nazirliyi ilə bağlı çox vacib məsələ var idi, bütün nazir müavinlərinə zəng elədim, biri də cavab vermədi. Yaxşı, mən öz vəzifəmi necə icra edim. Bunlar hələ deputata cavab vemirlər, görün, camaata necə münasibət bəsləyirlər.

***Z.Məmmədli***

# Füzuli Ələkbərovun biznesi böhran içində...

## Sabiq nazirin şirkətlərindən birinin yolu məhkəməyə düşüb, digərinin isə iki tenderi ləğv olunub, üstəlik...



***Son vaxtlar keçmiş Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərovun ailə biznesi ilə bağlı yerli KİV-də bir-birindən maraqlı məlumatlar yayılır. Məsələn, bu məlumatların birində bildirilir ki, Ələkbərova məxsus “İmprotex” Şirkətlər Qrupunun nizamnamə kapitalının azalmasından sonra bu qrupa daxil olan “İmprotex İndustruies” MMC məhkəməyə verilib. İddiaçı “EVIM Construction” MMC-dir. Məhkəmə çəkişməsinin səbəbi alqı-satqı müqaviləsi üzrə yaranmış mübahisələrdir.***

İddia Bakı Kommersiya Məhkəməsinin hakimi Aytən Əliyevanın icraatındadır.

Ələkbərov Əmək və Əhalinin Sosial Müdafiəsi naziri olarkən “İmprotex” monopolist şirkət kimi tanınıb. O , işdən çıxarılandan sonra şirkətdə də vəziyyət dəyişib. Holdinqin işləri xeyli zəifləyib; lakin son bir neçə ildə xüsusilə ”İmprotex”ə daxil olan və məşhur avtomobil markalarının Azərbaycandakı distribütoru kimi tanınan ”İmprotex Motors”un fəaliyyətində ciddi canlanma müşahidə edilirdi. Lakin ötən ildən etibarən sabiq nazirin ailə biznesinin yenidən bir çox problemlərlə üzləşdiyi barədə iddialar ortaya atılmaqdadır.

Bu ilin iyunun əvvəllərində isə ”İmprotex” nizamnamə kapitalının azaldığını elan edib. Bəzi iddialara görə, holdinq bağlanmaq təhlükəsi ilə üzləşib.

Hətta bəzi KİV-lər şirkətin fəaliyyətində qanunsuzluqlar aşkarlandığı üçün yoxlamalar aparıldığını bildiriblər. Mediada yayılan və təkzib edilməyən məlumatlara görə, hətta Füzuli Ələkbərova məxsus Bakı şəhəri, Səbail rayonu, 156-cı məhəllə, Əliyarbəyov və X.Natəvan küçələrinin kəsişməsində, Fəvvarələr meydanının yaxınlığında yerləşən boş torpaq sahəsində fəaliyyət göstərən dayanacaq da bağlanıb.

Bundan başqa, ”Unikal”ın əldə etdiyi məlumatda sabiq nazirin şirkətinin dövlət satınalmalarında iştirakının da ciddi şəkildə məhdudlaşdırıldığı bildirilir. Hətta bu ilin fevralında Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil Kommunal Təsərrüfatı Departamenti (MKTD) yanında Kommunal Xidmətlər Müəssisəsi (KXM) fevralın 9-da 2 zibil maşınının alınması üçün keçirilən tenderin nəticələrinin ləğv olunduğunu elan edib. Buna qədər analoji qərarı Bakıda MKTD-nin digər müəssisəsi qəbul edib.

Zibil maşınlarının alınmasına dair elektron tender 2020-ci ilin dekabrın 9-da başa çatıb. Tenderdə Füzuli Ələkbərovun ailə binzesinə daxil olan ”İmprotex Trucks & Buses” MMC qalib gəlib. Bir ay sonra isə KXM MM Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən məktub alıb. Məktubda xüsusi kommunal avadanlıqların alınması üçün bütün iddiaçıların təkliflərinin ”tenderin əsas şərtlər toplusunun formal tələblərinə cavab vermədiyi” qeyd edilib.

Bununla əlaqədar olaraq KXM tenderin nəticəsini ləğv edib.

”İmprotex Trucks & Buses” MMC qiyməti 914,3 min manat olan ”MAN” markalı iki zibil maşını təklif edirdi. Beləliklə, tenderin nəticələrinin ləğvindən sabiq nazir 1 milyon manata yaxın qazanc itirib.

Oxşar qərar fevralın 3-də Bakı şəhəri Nizami rayonunun MKTD-nin Mənzil Kommunal Xidmətlər Birliyi qəbul edib. Qiyməti 821,7 min manat olan iki kommunal texnikanın tədarükü təklifi ilə ”Improtex Trucks & Buses” MMC tenderin qalibi elan edilib.

Ümumiyyətlə isə 2020-ci ildə ”Improtex Trucks & Buses” Bakı şəhəri MKTD Mənzil-Kommunal Xidmətlər Birlikləri ilə cəmi dəyəri 10.4 mln. manat olan kommunal nəqliyyat vasitələrinin təchizatı üçün iki müqavilə imzalayıb.

Göründüyü kimi, əvvəlki illərdə tenderlərdən böyük məbləğdə pullar əldə edilən ”İmprotex”in ilin əvvəlindən bəri artıq iki satınalması ləğv olunub.

Bütün bunları ümumiləşdirdikdə Füzuli Ələkbərovun biznesində işlərin yaxşı getmədiyinə dair iddiaların ortaya çıxması təsadüfi təsir bağışlamır.

Sonda onu da deyək ki, “İmprotex” Şirkətlər Qrupuna “İmprotex Motors”, “İmproteks Treydinq” KM, “İmprotex Trucks&Buses”, “İmprotex İndustries”, “İmprotex Travel” və Dubayda uzun illər fəaliyyət göstərən “IMEX AZ GENERAL TRADING L.L.C” daxildir.

Füzuli Ələkbərov 2006-2013-cü illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri vəzifəsində işləyib. 2013-cü ilin yanvarında İsmayıllıda baş verən iğtişaşlar Füzuli Ələkbərovun məmur karyerasına son qoyub.

Xatırladaq ki, Füzuli Ələkbərova məxsus ”Çıraq” hotelinin inzibatçısı Emil Şəmdinovun və tanışı Elməddin Məmmədovun adıçəkilən rayonda sərxoş vəziyyətdə özgənin əmlakının zədələnməsi ilə müşayiət olunan qərəzli xuliqanlıq hərəkətləri etmələri və bununla əlaqədar hadisə yerinə toplaşmış bir qrup şəxs tərəfindən ”Çıraq” hotelinin və müxtəlif markalı avtomobillərin yandırılması ilə nəticələnən kütləvi münaqişə, daha sonra isə bir neçə kütləvi etiraz aksiyası baş vermişdi. Bu da ölkədə ciddi rezonans doğurmuşdu...

*Sənan Mirzə*

# Azərbaycanda şirkət direktoru olan qadın həbs edildi

***İyunun 18-də Baş Prokurorluğun instaqram sosial şəbəkəsindəki səhifəsində sual-cavab adlı sessiya (#prokurorluqlasualcavab) keçirilərkən ayrı-ayrı şəxslər tərəfindən Klara Cəfərovanın Avropada işə düzəltmək adı ilə onlardan və digər şəxslərdən müxtəlif məbləğlərdə pul alaraq dələduzluq etməsi barədə müraciətlər daxil olub.***

Bu barədə Unikal.org-a qurumun Mətbuat xidmətindən məlumat verilib.

Müəyyən edilib ki, bir qrup şəxsin “Poseidon Talents Consulting” MMC-nin direktoru Klara Cəfərova tərəfindən xarici ölkələrə göndərilməsi, təyyarə biletlərinin alınması, viza və sığorta sənədlərlə təmin edilməsi adı ilə vəzifə səlahiyyətlərindən sui-istifadə edərək ümumi 10 epizod üzrə müxtəlif məbləğlərdə pul alaraq dələduzluq etməsi faktına görə Xətai Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

İyunun 19-da Klara Cəfərova həmin Məcəllənin 178.2 (dələduzluq) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Qeyd olunan cinayət işi üzrə ibtidai istintaq yekunlaşdırılaraq, iş materialları ilə tanış etmə həyata keçirilir. Qısa müddət ərzində cinayət işinin məhkəməyə göndərilməsi nəzərdə tutulub. Eyni zamanda bildirib ki, digər 14 zərərçəkmiş şəxsin Klara Cəfərovanın qanunsuz hərəkətlərinə dair müraciətləri ilə bağlı daha bir cinayət işi ayrılmaqla, hazırda zəruri istintaq hərəkətləri həyata keçirilir.

# Tanınmış hərbi ekspert ordudan ehtiyata buraxıldı

***Azərbaycan Ordusunun polkovniki, tanınmış hərbi ekspert Üzeyir Cəfərov ehtiyata buraxılıb.***

Unikal.org xəbər verir ki, bunu o, özünün feysbuk səhifəsində yazıb. O qeyd edib ki, ötən ilin noyabr ayından xidməti zərurətlə əlaqədar qısa müddətə Silahlı Qüvvələriin sıralarına həqiqi hərbi xidmətə çağırılıb.

# Britaniya səfiri Rusiya XİN-ə çağırılıb

***Böyük Britaniyanın Moskvadakı səfiri Debora Bronnert Rusiya Xarici İşlər Nazirliyinə çağırılıb.***

Unikal.org xəbər verir ki, bu barədə XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

Onun sözlərinə görə, səfir Qara dənizdə Britaniyanın “Defender” esminesinin Rusiyanın ərazi sularını pozduğuna görə nazirliyə çağırılıb.

# Mikayıl Cabbarov Vibke Şlömerlə görüşüb

***İqtisadiyyat naziri Mikayıl Cabbarov Beynəlxalq Maliyyə Korporasiyasının Avropa və Mərkəzi Asiya üzrə regional direktoru xanım Vibke Şlömerlə görüşüb.***

Nazirlikdən “Unikal”a daxil olan məlumata görə, Mikayıl Cabbarov ölkəmizdə maliyyə institutları, o cümlədən Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlığa önəm verildiyini, qurumun maliyyə-texniki dəstəyinin yüksək qiymətləndirildiyini vurğulayıb. Qeyd edilib ki, İqtisadiyyat Nazirliyi ilə birgə reallaşdırılan “Azərbaycanda biznes mühitinin təkmilləşdirilməsi” layihəsi uğurla başa çatıb. “Azərbaycanda investisiya mühiti və aqrobiznesdə rəqabətlilik” və digər layihələrin icrası isə davam etdirilir. Görüşdə Azərbaycanın sosial-iqtisadi inkişafına dair prioritetlərin reallaşdırılması istiqaməti üzrə Beynəlxalq Maliyyə Korporasiyası ilə tərəfdaşlığın gücləndirilməsi imkanları diqqətə çatdırılıb.

Xanım Vibke Şlömer Azərbaycan hökuməti ilə Beynəlxalq Maliyyə Korporasiyası arasında əməkdaşlığın mövcud vəziyyəti, prioritet sahələr üzrə layihə və təşəbbüslər barədə məlumat verib, təmsil etdiyi qurumun Azərbaycanla əlaqələrinin genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

Beynəlxalq Maliyyə Korporasiyasının Qafqaz üzrə yeni regional meneceri xanım İvana Duartenin də iştirak etdiyi görüşdə Azərbaycanla Beynəlxalq Maliyyə Korporasiyası arasında investisiya-məsləhət xidmətləri sahəsində tərəfdaşlığın dərinləşdirilməsi üçün imkanlar, “Ölkənin özəl sektorunun diaqnostikası” Çərçivə Sənədinin icrasıvə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# “Azyaşlıların peyvənd olunması ilə bağlı ciddi araşdırma aparılmalıdır” - Həkim-infeksionist

***Azyaşlıların COVİD -19-a qarşı peyvənd olunması ilə bağlı ciddi araşdırma aparılmalıdır.***

Bunu Trend-ə açıqlamasında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İşçi Qrupunun rəhbəri Vasif Əliyev deyib. Həkim-infeksionist bildirib ki, bu xəstəliklə mübarizə ilə bağlı araşdırmaların hamısı 18 yaşdan yuxarı vətəndaşlarda aparılırdı: ”Hazırda yaradılan peyvəndlər 18 yaşdan yuxarı şəxslər üçün nəzərdə tutulub. Təbii ki, ilk risk qrupunda olan insanlar 18 yaşdan yuxarı yaş həddində nəzərdə tutulub. Risk qrupuna daha çox yuxarı yaşı olanlar daxildir. Uşaqlarda isə bu xəstəlik yüngül formada keçir. Azyaşlı uşaqlarda bu xəstəliyin ağır formasını görməmişik. Amma xəstəliyi ağır formada keçirməsə belə, uşaqlar özləri aktiv virus daşıyıcısıdır. Daşıyıcı olan uşaq da bu virusu evindəki böyüklərə keçirə bilər. Ona görə də uşaqların peyvənd olunması göstəriş ola bilər. Çünki bununla biz yoluxma zəncirini daha güvəncli qıra bilərik. Araşdırmalar göstərib ki, ”Pfizer” peyvəndinin 12 yaşdan yuxarı uşaqlara istifadəsi zərərsizdir. Eyni zamanda Çində ”Sinovac” peyvəndinin 3 yaşdan yuxarı uşaqlara vurulması tövsiyyə edilib. Lakin bu fikirlər hələ araşdırılmalıdır”.

TƏBİB rəsmisi vurğulayıb ki, hansı yaş qrupuna hansı peyvəndin güvənli istifadə ediləcəyi ciddi araşdırılmalıdır. Əgər araşdırmalar yekunlaşarsa, uşaqlar da peyvənd oluna bilər. Bundan sonra daha yaxşı nəticə əldə etmək olar.

# Nazir qayınatanı çıxardı, yerinə kürəkənini gətirdi

***Kamran Rəsulov Azərbaycan Texniki Universitetində (AzTU) Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor vəzifəsinə təyin olunub.***

Unikal.org xəbər verir ki, bu barədə təhsil naziri Emin Əmrullayev əmr imzalayıb.

Nazir AzTU-da prorektor olan Abuzər Mirzəliyevi tutduğu vəzifəsindən azad edərək, Kamran Rəsulovu prorektor vəzifəsinə təyin edib.

Qeyd edək ki, yeni təyin olan Kamran Rəsulov işdən çıxarılan Abuzər Mirzəliyevin kürəkənidir.

# Şəhid polkovnik-leytenantlar da təltif edildi...

***Xəbər verdiyimiz kimi, bu gün Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının “Füzulinin azad olunmasına görə” medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

“Unikal” xəbər verir ki, həmin sərəncama əsasən, yeddi nəfər şəhid polkovnik-leytenant da ölümündən sonra adıçəkilən medalla təltif edilib.

Abdullayev Rasim Yaqub oğlu - tibb xidməti polkovnik-leytenantı (ölümündən sonra);

Baxşəliyev Qərib İnqilab oğlu - polkovnik-leytenant (ölümündən sonra);

Cəfərov Ramiz Sübhan oğlu - polkovnik-leytenant (ölümündən sonra);

Əliyev Anar Vaqif oğlu - polkovnik-leytenant (ölümündən sonra);

İbrahimov Xeyrulla Mais oğlu - polkovnik-leytenant (ölümündən sonra);

Quliyev Rəşad Rəşid oğlu - polkovnik-leytenant (ölümündən sonra);

Məmmədov Sadiq Sadəddin oğlu - polkovnik-leytenant (ölümündən sonra).

# Nurlana Əliyevanı o əvəz edəcək

***Bakı Slavyan Universitetinə rektor əvəzi təyin olunub.***

Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas şöbəsinin müdir müavini Anar Nağıyev Bakı Slavyan Universitetinə rektor əvəzi təyin edilib. A.Nağıyev kollektivə təqdim olunub.

Qeyd edək ki, Prezident İlham Əliyevin iyunun 22-də imzaladığı sərəncamla Nurlana Əliyeva Bakı Slavyan Universitetinin rektoru vəzifəsindən azad edilib.

# Elman Rüstəmovdan haqlı tələb

## Problemli kreditlər artır, bəs Mərkəzi Bank rəhbərliyi bu barədə nə düşünür?

***Azərbaycanın bank sektorunun uzun illərdən bəridir əsas qayğılarından biri problemli kreditlərlə bağlıdır. Düzdür, bir neçə il öncəyə qədərki vəziyyətlə müqayisədə son zamanlar həmin problemin bir qədər səngidiyi müşahidə olunurdu.***

Lakin cari ilin ilk 4 ayında bankların kredit qoyuluşları ilə yanaşı problemli kreditlərin həcmi də artıb. Belə ki, ötən ili 14 milyard 530 milyon manat kredit portfeli ilə başa vuran bank sektoru bu göstəricini 14 milyard 987 milyon manata çatdıra biliblər.

Digər tərəfdən, ötən ilin sonunda 893 milyon manat problemli kreditləri olan banklar artıq 921 milyon manat geri qaytarılmayan kreditlərə sahibdirlər.

Məsələyə münasibət bildirən iqtisadçı ekspert Natiq Cəfərli bildirib ki, kredit portfelindəki artım faizlərin yüksək olmasına baxmayaraq, bazarda kredit tələbatının yüksək olması ilə əlaqədardır. Ekspertin sözlərinə görə, son illər ərzində bankların depozit faizləri ilə kredit faizləri ara-

sında da kəskin fərq yaranıb. Artıq bəzi banklar xarici valyutada dividendlərə ya faiz ödənişi etmirlər, ya da cüzi dividend hesablayırlar. Manat üzrə depozit dividendləri də azalıb”.

Bununla belə, millət vəkili onu da qeyd edib ki, depozit dividendlərinin düşməsinə baxmayaraq kredit faizlərində nəzərəçarpan azalmalar yoxdur: ”Yüksək kredit faizləri problemli kreditlərin həcminə təsir göstərir və nəticədə 2021-ci ilin geridə qalan aylarında qaytarıla bilməyən kreditlərin həcmində artım müşahidə olunub. Bu baxımdan, faizlərin optimallaşdırılması və kreditlərə əlçatanlığın artırılması üçün Mərkəzi Bank tərəfindən daha sistemli tədbirlərin həyata keçirilməsinə ehtiyac var”.

Əslində ölkənin baş bankından sözügedən istiqamətdə illərdir eyni fikir təkrarlanır: problemli kreditlərin yaranmasının başlıca səbəbi kredit faizlərinin yüksək olmasıdır. Yəni vətəndaş kredit götürür, lakin faizlər yüksək olduğu üçün həmin krediti müəyyən müddətdən sonra geri qaytarmaq mümkünsüzə çevrilir. Bu baxımdan faizlərin yüksək olması heç də kommersiya banklarının gəlir imkanlarını artırmır, əksinə, problemin həcminin böyüməsinə gətirib çıxarır.

Və yenə illərdir ölkənin baş bankının rəhbərliyindən kredit faizlərinin endirilməsinə dair çağırışlar edilir.

Lakin Elman Rüstəmov və komandasının belə çağırışları cavabsız qoyması, yüksək kredit faizlərinin qalması belə təəssürat yaradır ki, baş bankir və ətrafı çoxluqdan tamamilə fərqli qənaətdədir. Əks halda



Məsələni şərh edən Milli Məclisin deputatı, iqtisadçı ekspert Vüqar Bayramov yola salmaq üzrə olduğumuz həftə bununla bağlı maraqlı fikirlər səsləndirib. O bildirib ki, bu ilin ilk 4 ayında kredit portfeli ilə problemli kreditlərin həcmi ilin əvvəli ilə müqayisədə eyni nisbətdə artıb: ”Hər iki göstəricidə 3.1 faiz artım qeydə alınıb. Kredit portfelinin artması müsbət məqam olsa da, problemli kreditlərin məbləğinin son ilin ilk 4 ayında 3.1 faiz artması arzuolunan hal deyil.

Problemli kreditlərin həcminin artmasında pandemiyanın təsirləri xüsusi rol oynasa da, bankların bahalı kredit siyasəti, o cümlədən bir sıra hallarda ödəmə qabiliyyətini yoxlamadan maliyyələşmələr həyata keçirilməsi də təsirsiz qalmayıb.

Eyni zamanda, depozit dividendləri ilə kredit faizləri ara-

gözləntilər uzun müddətdir mövcuddur. Lakin təəssüf ki, həmin gözləntilər elə gözlənti olaraq da qalmaqdadır. Nəticədə problemli kreditlər məsələsi gündəmdən düşmək bilmir, ümumilikdə isə həm vətəndaş maraqları, həm də bank sektorunun tamamilə sağlamlaşdırılması baxımından ciddi əngəl olaraq qalır.

İstər cəmiyyət, istərsə də iqtisadçı ekspertlər davamlı şəkildə baş bankir Elman Rüstəmovun komandasından problemli kreditlər düyününün kökündən çözülməsi üçün konkret addımların atılmasını tələb edirlər; bu tələblər deputatın yuxarıda da vurğuladığı kimi, faizlərin optimallaşdırılması və kreditlərə əlçatanlığın artırılması kimi ümumiləşdirilir, lakin təəssüf ki, Mərkəzi Bank hələ ki, hərəkətə keçməkdə, həmin tələbləri yerinə yetirməkdə həvəsli görünmür.

Azərbaycanın bank sektorunun az qala ”qara yara”sına çevrilən problemli kreditlər məsələsini böyük ölçüdə ”müalicə” (oxu: həll!) edə biləcək addım niyə atılmasın ki? Bunun hansısa məntiqi izahı varmı?

Hətta ölkə parlamentinin üzvü olan tanınmış iqtisadçılar belə Mərkəzi Bankın hərəkətə keçməsini - yəni faizlərin optimallaşdırılması və kreditlərə əlçatanlığın artırılması yönündə mexanizmlər hazırlanmasını, qərarlar verilməsini istəyirsə, baş bankımızın və baş bankirimizin həmin istiqamətdə tam passivliyi anlaşılmazdır.

Əlbəttə, ola bilsin, Elman Rüstəmov və komandasının belə bir addımın atılmaması ilə bağlı öz arqumentləri var. Lakin, heç olmasa, həmin addımları cəmiyyətlə, media və iqtisadçı ekspertlərlə bölüşmək doğru deyilmi?!

***Toğrul Əliyev***

# Tağı Əhmədovun üç cümləlik təzadı

## Və ya "köhnələr"in köhnəlməyən təranəsi...

***Son illər ölkədə aparılan genişmiqyaslı islahatların mühüm tərkib hissələrindən biri də idarəetmə sistemindəki yeniləşmədir. Bir yandan kadr, digər tərəfdən struktur dəyişiklikləri ilə müşahidə olunan bu yeniləşmə prosesindən kənarda qalan vəzifə sahibləri olsa da, onlarla da yolların ayrılacağı şübhə doğurmur. Çünki yeni dövrün çağırışları eyni zamanda bu dövrün ruhunu, hədəflərini daha yaxşı qavrayan, əxz və icra edə biləcək kadrlarla mümkündür.***

İctimai-siyasi həyatın bütün sferalarında dəyişimin qaçılmaz zərurət olduğunu anlamaqda çətinlik çəkənlər isə təəssüf ki, qalmaqdadır. Elə dünən Unikal.org saytına açıqlama verən Bakı Metropoliteninin sabiq rəisi, hazırda hakim Yeni Azərbaycan Partiyasının Yasamal rayon təşkilatının sədri Tağı Əhmədovun dediklərini də məhz həmin müstəvidə qiymətləndirmək olar.

Tağı müəllim rəhbərlik etdiyi rayon təşkilatının videoformatda keçiriləcək hesabat yığıncağında sədr vəzifəsindən gedəcəyi barədə iddiaya münasibət bildirib. 73 yaşlı Tağı müəllim Unikal.org-a deyib: "Mən YAP-dakı vəzifəmdən getmək istəyirəm. Amma YAP qoymur. Əslində, YAP-dan gedənlərin ikinci vəzifəsi var deyə, sədr vəzifəsindən kənarlaşdırılırlar".

Üç cümləlik açıqlamada üç diqqət çəkən məqam var. Birincisi, Tağı müəllimin dediklərindən belə anlaşılır ki, hakim partiya daxilində kimlərsə YAP-ın hələ də qocaman kadrlarla yola davam etməsində maraqlıdır. Əks təqdirdə, təqaüd yaşını çoxdan keçmiş sabiq "metro şefi" rayon təşkilatının sədri postundan getmək istədiyi halda buna imkan verməməyin başqa hansı məntiqi izahı ola bilər?

İkincisi, Tağı müəllim "Mən YAP-dakı vəzifəmdən getmək istəyirəm. Amma YAP qoymur" deməklə özünün "əvəzedilməz" obrazını yaratmaq fikrinə də düşə bilər. Həqiqətən maraqlıdır: doğrudanmı, yüz minlərlə üzvü olduğu bildirilən hakim partiyada Bakının aparıcı rayonlarından birindəki yerli təşkilata rəhbərlik edəcək imkanlara malik şəxs yoxdur? Hökumətdə ən yüksək postlara belə gənc, enerjili kadrlar gətirildiyi halda YAP-ın Yasamal rayon təşkilatının 73 yaşlı sədrini əvəzləmək kimlərisə niyə tələşlandırır? Bir halda ki, hakimiyyət genişmiqyaslı kadr islahatları aparır, yeni dövrün ruhunu, çağırışlarını bilən, fəaliyyətini də ona görə quran kadrlar nazir, icra başçısı və s. kimi önəmli vəzifələrə gətirilir, elə isə hakim partiyada niyə bu tendensiya eyni sürətlə davam etməməlidir?



Və nəhayət üçüncüsü, Tağı müəllim üç cümləlik açıqlamada əslində özü- özünü təkzib və ya inkar da edib. Məsələn, ilk cümlədə "Mən YAP-dakı vəzifəmdən getmək istəyirəm..." dediyi halda son cümlədə bildirir: "Əslində YAP-dan (yəqin ki, YAP rayon təşkilatının rəhbəri postundan demək istəyir - red.) gedənlərin ikinci vəzifəsi var deyə, sədr vəzifəsindən kənarlaşdırılırlar". Bu nə deməkdir? Bu o deməkdir ki, sabiq "metro şefi" düzünə qalsa sədr postunu itirməsinə o qədər də isti yanaşmır. Çünki Tağı müəllimin uzun müddətdir yalnız bir vəzifəsi var. Nəticə? İkinci vəzifəsi olanlar sədrlikdən uzaqlaşdırılırsa, onda Əhmədova nə üçün toxunulmalıdır? Axı onun ikinci vəzifəsi yoxdur!

Bir sözlə, Tağı müəllim bir tərəfdən guya rayon təşkilatı sədrliyindən getmək istədiyini, ancaq buna hakim partiyadan imkan verilmədiyini söyləyir, digər tərəfdən isə ikinci vəzifəsinin olmadığı üçün sədrlikdə saxlanılmasına işarə vurur. Köhnə kadrlara xas köhnə taktika!

Buna "köhnə təranə" də deyə bilərik.

Heç bir halda vəzifədən qopa bilməmək, üzdə hər hansı ambisiyasının olmadığını göstərib arxada isə oturduğu kreslodan ikiəlli yapışmaq, eyhamlarla danışmaq, bu eyhamlarda özlərinin keçmiş xidmətlərini, əvəzedilməzliklərini, toxunulmazlıqlarını gizlətmək, altdan-altdan cəmiyyətə, mediaya, digər kəsimlərə ötürmək! - Bu "köhnələrin" köhnəlməyən adəti, tərgitməyi bacarmadıqları vərdişləridir.

Və açığı, onların belə "manevrləri" artıq yorucu göründüyü qədər də qıcıq doğurur.

Adama deyərlər: uzun illər yüksək vəzifələrdə pis-yaxşı işləmisiniz, özünüzə, ailə üzvlərinizə geniş imkanlar, imtiyazlar qazanmısınız, karyera və komforta qovuşmusunuz,1000-1500 manatlıq maaşlarla yüz milyonluq varidata sahib olmusunuz, ancaq yaş gəlib 70-ə, 80-ə dayananda belə tutduğunuz postlardan əl çəkə bilmirsiniz, əl çəkməyə can çəkirsiniz. Gözləyirsiniz ki, az qala güclə təqaüdə göndəriləsiniz.

Türkiyəli qardaşlarımız demiş, "bu kadarına da, vallahi, pes yani!"

***Toğrul Əliyev***



# "Azərbaycan Ordusu sülh yolunda çarpışdı" - Türk general

***"Azərbaycan Ordusu 1992-ci ildə sıfır səviyyəsində idi". Bunu Türkiyənin Azərbaycandakı keçmiş hərbi attaşesi, ordunun ehtiyatda olan generalı Yücel Karauz deyib.***

General bildirib ki, Azərbaycanın öz sərhədləri daxilində azad yaşaması üçün Ordusu daim güclənməlidir: "O vaxtlar ortada bir ordu, silah, təchizat, hərbi geyim yox idi. Sovet İttfaqı dövründə orduda xidmət etmiş azərbaycanlı qardaşlarımız könüllü olaraq 1992-ci ildən etibarən Azərbaycan Ordusunun təməlini təşkil etdilər. 1991-ci ildə müstəqillik qazandıqdan sonra, 1992-ci ildə ilk türk təhsil qrupu gələrək Azərbaycan hərbi korpuslarında, hissələrində çalışmağa başladı. Dolayısı ilə 1992-ci ildə Azərbaycan Ordusunu dəyərləndirə biləcək bir ünsür yox idi.

İndi dünyada 200-dən çox ölkə var. O zaman onların sayı 150-160 olarkən, Azərbaycan ordusu olmayan ölkə idi. 1992-ci ildən sonra Ordu quruculuğuna verilən dəstək getdikcə artdı. Xüsusilə Heydər Əliyev zamanında fəaliyyətə başlayan Naxçıvanski adına Hərbi Liseyin ordu quruculuğu baxımından çox əhəmiyyətli yeri vardı. 1992-ci ildən türk zabitlərinin Azərbaycanda təhsil-tədris prosesləri başladı, zabit, gizirlər Türkiyəyə təhsil almağa göndərildi və qarşılıqlı hərbi məktəblər açıldı. Beləcə vəzifədə olan türk zabitləri Azərbaycan Ordusuna dəstək olmağa başladılar.

Azərbaycan təkcə Türkiyəyə yox, Rusiyaya, İngiltərəyə, Amerikaya, Çinə gənc hərbiçilərini göndərərək təhsil-təlim fəaliyyətlərini daha da artırdı. Ordu quruluşunda dəyişikliklər edərək modern, müasir, manevr qabiliyyəti yüksək bir ordu yaratmaq yönündə işlər görüldü. Bu istiqamətdə rusların köhnə silah sistemi əldən çıxarıldı. Başda Türkiyə olmaqla İsrail, Belarus, Ukrayna kimi dövlətlərdən müasir silah sistemləri alınmağa başladı.

2010-cu ildən etibarən Türkiyə ilə Azərbaycanın münasibətlərinin yüksək səviyyəyə çatması ilə hər iki ölkənin ordularının birgə təlimləri keçirilməyə başladı. Eyni zamanda Türkiyənin də böyük dəstəyi ilə NATO fəaliyyəti çərçivəsində Azərbaycanın sülhməramlı kontingenti başda Əfqanıstan olmaqla, bir sıra qaynar nöqtələrdə xidmətə başladı. Azərbaycan Ordusu 1992-ci ildən 2016-cı ilə qədər həm doktrina olaraq, həm təhsil-tədris fəaliyyəti olaraq, həm də təchizat baxımından özünü gücləndirdi.

2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusunun çatdığı səviyyə, bu işi təkbaşına, öz silahlı qüvvələri hesabına edə biləcəyini nümayiş etdirdi. Və artıq 2020-ci ildə Azərbaycan Ordusu dünya orduları sıralanmasında ilk 50-liyə daxil olmağı bacardı.

Xüsusilə II Qarabağ müharibəsində Azərbaycan Ordusu dövləti, milləti, bayrağı üçün mübarizə əzmini, qətiyyətini ortaya qoydu, təhsil-tədris fəaliyyətini pik həddə çatdırdı və dünyanın ən modern, müasir silah sistemlərini bu müharibədə istifadə etdi. Azərbaycan Ordusunun bu müharibədəki tarixi zəfərinin səbəbi bütün qoşun növləri arasındakı rabitənin yüksək səviyyədə qurulması, göstərdikləri qəhrəmanlıqlar və Şuşanın azad edilməsi əməliyyatında da gördüyümüz kimi Xüsusi Təyinatlı Qüvvələrin böyük missiyanın öhdəsindən gəlməyi bacarması ilə bağlıdır.

Yeni aparılacaq təhlillərdən, analizlərdən sonra Azərbaycan Ordusunun dünya ordularının siyahısında daha da irəliləyərək ilk 40-45 ölkə arasında yer alacağına inanıram.

Təbii ki, sülh, sabitlik və təhlükəsizliyi uzunmüddətli təmin etmək üçün güclü bir Orduya sahib olmalısan. Azərbaycan Ordusu sülh yolunda tər tökdü, savaşda qan tökdü və yüzillər keçsə belə, dünya durduqca xatırlanacaq II Qarabağ savaşını qazanaraq dünyanın ən güclü orduları arasında, Qafqazın ən güclü Ordusu olduğunu isbat etdi. Azərbaycan Ordusun əldə etdiyi bu Zəfər Prezident, Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, ordu quruculuğuna verdiyi önəm, xalqın milli və mənəvi maraqlarına olan yüksək diqqəti və qayğısı, eyni zamanda Ordusunu müasir silah-sursatla təmin etməsinin nəticəsidir. Amma Azərbaycan ordusunun hazırkı durumu rahatlaşdırmamalıdır. Bölgədə sülh və sabitlik üçün və Azərbaycan xalqının öz sərhədləri daxilində azad, arxayın yaşaması üçün qalxan Dəmir yumruğu olan Azərbaycan Silahlı Qüvvələri daim güclənməlidir".

***Təhməz Əsədov***

# Bəzi icra başçılarının yersiz arxayınlığı...

## Həbslərə ara verilməsi bir sıra rayon rəhbərlərində rahatlıq yaradıb

***2019-cu ilin sonlarından etibarən Azərbaycanda icra başçılarına qarşı xüsusi əməliyyatlara start verilib. Hüquq-mühafizə orqanlarının həyata keçirdiyi bu əməliyyatlar nəticəsində 7 icra başçısı korrupsiya və rüşvət faktlarına görə saxlanılıb, barələrində həbs-qətimkan tədbiri seçilib.***



Bir müddətdir sözügedən anti-korrupsiya əməliyyatlarına fasilə verilməsi isə deyəsən bəzi rayon rəhbərlərində arxayınlıq yaradıb. Bunu mətbuatda və sosial şəbəkələrdə artan şikayətlərdən, giley-güzarlardan görmək olar. Belə görünür, ayrı-ayrı rayonlarda yerli məmurlar özbaşınalıqlarını davam etdirir, vətəndaşların probleminə ənənəvi münasibət sərgiləyir, laqeyd yanaşırlar.

Həmçinin bəzi rayonlardan rüşvət və korrupsiya məzmunlu xəbərlər gəlməkdədir. Xüsusilə tenderlərin keçirilməsində şəffaflığın və obyektivliyin təmin edilmədiyi, rayon rəhbərlərinin qohum-əqrəbalarına, yaxınlarına üstünlük tanındığı barədə şikayətlər dilə gətirilməkdədir.

Lakin müəyyən icra başçılarının arxayınçılığı əsassızdır. Hökumət daxilindən ötürülən mesajlar məmur özbaşınalığına və korrupsiyaya qarşı mübarizənin bundan sonra da intensiv şəkildə davam etdiriləcəyindən xəbər verir. Yəni son aylarda hansısa yüksək çinli məmurun, o cümlədən, icra başçısının kabinetində, cinayət başında qandallanmaması prosesin səngidiyi mənasına gəlmir.

Məlum olduğu kimi, ötən ilin payızında 44 günlük Vətən müharibəsində qazanılan Şanlı Qələbənin ardından yeni mərhələyə start verən ölkə rəhbərliyi diqqəti işğaldan azad edilən torpaqlarda quruculuq və abadlıq işlərinə yönəltməklə yanaşı, genişmiqyaslı islahatları davam etdirməkdə israrlıdır. Bu islahatların əsas hədəflərindən biri isə Azərbycanda məmur-vətəndaş münasibətlərini daha da sağlamlaşdırmaq, ölkənin yüksəlişinə əngəl yaradan zərərli meylləri, o cümlədən də rüşvət və korrupsiyanı tamamilə aradan qaldırmaqdır.

Odur ki, hüquq-mühafizə orqanlarının mənfi reputasiyalı vəzifə sahiblərinə yönəlmiş xüsusi əməliyyatlarının mütəmad şahidi olacağımıza şübhə yoxdur. Belə vəzifə sahibləri arasında isə icra başçılarının öz yeri var.

Dəfələrlə vurğulandığı kimi, Azərbaycanda şəhər və rayon icra hakimiyyətləri ən çox tənqid, irad , ittiham hədəfi olan dövlət qurumlarının ön cərgəsində yer alır. İcra başçıları çox zaman vətəndaşlarla kobud rəftarı, laqeyd münasibəti, korrupsiyaya meylliliyi ilə gündəmə gəlib. Sovet dövrünün idarəetmə sisteminin təsirindən irəli gələn haldır ki, bəzi icra başçıları özlərini az qala əyalət padşahı kimi aparırlar. Bu səbəbdən yeni anti-korrupsiya əməliyyatlar, yeni həbslər qaçılmazdır.

Bir sözlə, nə qədər ki, ölkədə aparılan islahatlar dalğası fonunda yeni çağırışlara cavab vermək iqtidarında olmayan, köhnə (və zərərli!) vərdişlərdən qurtulmaqda çətinlik çəkən, rüşvət və korrupsiyadan tutmuş vətəndaşların problemlərinə həssas münasibətəcən xeyli məsələdə öz fəaliyyətlərini korrekt etmək istəməyən icra başçıları var, deməli, hazırda dəmir barmaqlıqlar ardında olan Nizaməddin Quliyevin, Qoca Səmədovun, İsmayıl Vəliyevin, Ceyhun Səfərovun, Mahir Quliyevin, Vilyam Hacıyevin, Namiq Zeynalovun aqibətini yaşayacaq icra başçıları da olacaq.

Bu səbəbdən o, rayon rəhbərləri ki, nəinki postlarını, hətta azadlıqlarını itirmək istəmirlər, onda qətiyyən arxayınlaşmamalı, vəzifələrinə məsuliyyətlə yanaşmalı, vətəndaşa münasibətdə və dövlətə xidmətdə keçmişin zərərli vərdişlərindən əl çəkməlidirlər.

Əks halda nə olacağını hamıdan yaxşı elə onların özləri bilirlər!

***Sənan Mirzə***

# "Ermənilər Köçəryan-Sarkisyan xunta rejiminə səs vermədi" - Çingiz Qənizadə

***Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan daxili və xarici siyasət Ermənistanı regionun siyasi və iqtisadi həyatından kənarda qoydu. İşğalçılığı dövlət siyasətinin prioritetinə çevirən, qonşu dövlətlərin torpaqları hesabına dövlət quran Ermənistanın iqtisadiyyatı çökdü, yoxsulluq, işsizlik probleminin ciddi şəkil alması nəticəsində yerli əhali xarici ölkələrə üz tutdu. Ermənistan xarici yardımdan asılı vəziyyətə düşdü. Artıq beynəlxalq birliyə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl günahkarının kimliyi bəlli oldu. Bu ölkə döyüş meydanında olduğu kimi, beynəlxalq informasiya məkanında və diplomatiya sahəsində də ciddi məğlubiyyətə uğradı. Bununla da Azərbaycanın rəşadətli ordusu Ermənistanın 30 illik işğal siyasətinə son qoydu. Bütün bunlar Ermənistanda keçirilmiş növbədənkənar parlament seçkilərinin nəticələrinə təsir etməyə bilməzdi.***



Unikal.org xəbər verir ki, bu fikirləri Ermənistanda keçirilən növbədənkənar parlament seçkilərinə münasibət bildirən Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə bildirib.

Ç.Qənizadə deyib ki, Ermənistanda keçirilmiş parlament seçkiləri beynəlxalq aləmin diqqət mərkəzində idi. Ona görə ki, onilliklərlə insanları düşmənçilik ab-havasına kökləmiş, ölkəni talamış və əhalini dilənçi vəziyyətinə salmış revanşist meyilli qüvvələr - sabiq prezidentlər Robert Köçəryan və Serj Sarkisyan yenidən ölkəyə rəhbərlik iddiasına düşmüşdülər. Ancaq əvvəlki illərdən fərqli olaraq, bu dəfə yerli əhali xunta rejiminin cəlladlarını rədd etdi.

Artıq yerli əhaliyə də bəllidir ki, bu gün Ermənistanın ciddi sosial- iqtisadi problemlərlə üzləşməsində, regionda həyata keçirilən bütün infrastruktur layihələrdən kənarda qalmasında baiskar Köçəryan və Sarkisyandır. Söz yox ki, hələ də işğal siyasətindən əl çəkməyərək, qonşu dövlətlərin ərazilərinə göz dikən Köçəryan və Sarkisyan rejimi tarixin arxivinə atılıb. Buna baxmayaraq, xunta rejiminin tərəfdarları olan bu iki şəxs hakimiyyəti ələ keçirmək üçün min bir hiyləyə əl atırlar.

Hüquq müdafiəçisi dedi ki, bu rejimin tədricən sıradan çıxarılmasında Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs mühüm əhəmiyyət kəsb edib “Məhz müstəqil və milli maraqlara əsaslanan siyasətin nəticəsi olaraq, Azərbaycan regionda güclü dövlətə, siyasi, iqtisadi və humanitar mərkəzə çevrilib. 44 günlük müharibədə Ermənistanı diz çökdürən və kapitulyasiya aktına imza atdıran dövlətimizin və onun lideri İlham Əliyevin dünya birliyindəki reytinqi getdikcə yüksəldi. Bu gün respublikamız beynəlxalq münasibətlər sistemində öz prinsipial mövqeyi ilə seçilən və yüksək nüfuza malik ölkəyə çevrilib”, - deyə o qeyd edib.

Təbii ki, erməni xalqı bütün bu problemləri yaradan Köçəryan-Sarkisyan rejiminə yenidən etimad göstərə bilməzdi. Göründüyü kimi, erməni xalqı 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi mənzərəni, müharibənin nəticələrini qəbul edir, revanşistlərə yenidən meydan vermək niyyətində deyil. Bir daha aydın oldu ki, Qarabağsız “Qarabağ klanı” artıq Ermənistanda heç kəsə lazım deyil. Dövlət başçımızın dediyi kimi, “Köçəryan və Sarkisyan, Azərbaycan xalqının cəlladları, Xocalı cəlladları, biz sizi məğlub etmişik, sizin ordunuzu məhv etmişik”.

Komitə sədri qeyd edib ki, revanşistlər bütün qüvvələrini səfərbər etsələr də hətta xarici himayədarlarından ciddi dəstək alsalar da, iflasa uğradılar və Ermənistanın siyasi arenasında tam küncə sıxışdırıldılar. Artıq onların heç bir siyasi perspektivi yoxdur. Əslində, 2016-cı ilin Aprel döyüşlərində rəşadətli ordumuz Serj Sarkisyanın rəhbərlik etdiyi silahlı qüvvələri darmadağın etməklə bu ölkənin xunta rejiminə öz yerini göstərmişdi. Ötən il 44 günlük müharibədə isə qazandığımız tarixi qələbə revanşistlərin hakimiyyətə qayıdış yolunu birdəfəlik kəsdi. Əgər onlar yenidən müharibəyə cəhd etsələr, bu dəfə də başları üzərində “dəmir yumruğu” görəcəklər.

Ç.Qənizadə qarşıdan gələn dövrdə Ermənistan hakimiyyəti konstruktiv mövqe nümayiş etdirməsinə də münasibət bildirib. Deyib ki, onların ayrı yolları da qalmayıb. Növbədənkənar parlament seçkilərində qələbə qazanmış Nikol Paşinyan Ermənistanın bütün sahələr üzrə inkişafını istəyirsə, Azərbaycanın və Türkiyənin ərazi bütövlüyünü tanımalı və ölkəmizlə sülh sazişi imzalamalı, həm də Zəngəzur dəhlizinin açılmasına dəstək olan addımlarını əyani şəkildə sübut etməlidir. Yəqin ki, bundan sonra Ermənistan infrastruktur layihələrindən kənarda qalmaya və artıq formalaşmış yeni geosiyasi reallığın yaratdığı imkanlardan bəhrələnə və dinc həyatını qura bilər.

# Ermənistanda "seçki" adı ilə keçirilən əslində nə idi - TƏHLİL

***Ehtiraslar sakitləşib və indi ayıq başla düşünmək olar: Ermənistanda keçirilən seçki nə idi, hansı məqsədi daşıyırdı? Aydındır ki, məqsəd yeni baş nazir seçmək deyildi. Dövlət idarəçiliyində yaranmış böhranı aradan qaldırmaq, sabitliyi təmin etmək də deyildi. Hadisələr göstərirdi ki, Ermənistanda sabitliyin pozulması təhlükəsi də yoxdur.***

Yada salaq: Ermənistanda növbədənkənar parlament seçkilərinin keçirilməsilə bağlı müzakirələr yanvar ayında başlamışdı. Amma Paşinyan buna qarşı çıxırdı. Fevralın 26-da İrəvanın mərkəzi meydanında keçirilən mitinqdə baş nazir özünün istefası ilə bağlı tələblərə toxunaraq, aksiya iştirakçılarından soruşmuşdu: "Siz növbədənkənar parlament seçkisinin keçirilməsini istəyirsinizmi?"

Cavabında kütlə "voç!" ("yox"),- deyə uğuldamışdı.

- Vəssalam, - Paşinyan məsələnin nöqtəsini qoymuşdu,- Mən sizin istəyinizi nəzərə alaraq, növbədənkənar seçki məsələsini gündəmdən çıxarıram.

Bir də xatırladaq ki, bu hadisə fevralın 26-da olub. Cəmi 4 ay əvvəl. Ardınca "Mənim Addımım" fraksiyası növbədənkənar seçkinin keçirilməsi məsələsini parlamentin də gündəmindən çıxardı.

Fəqət bundan düz bir ay sonra, martın 28-də Armavir sakinlərilə görüşündə Paşinyan ilk dəfə elan etdi ki, növbədənkənar seçkilərin keçirilməsi məqsədilə apreldə istefaya gedəcək.



Həmin o bir ayda nə baş vermişdi? Bəlkə müxalifət xeyli güclənmiş, nəzarətdən çıxan böyük kütləvi mitinqlər keçirilmişdi? Xeyr. Tam əksinə. Birləşmiş müxalifət getdikcə zəifləməkdə idi. Elə isə Paşinyanı bir aya fikrini dəyişməyə və növbədənkənar seçkiyə razılaşmağa nə vadar etmişdi?

Gəlin, aydınlaşdırmağa çalışaq.

Bəzən hansısa siyasi oyunun məqsədini başa düşmək üçün onun qurtarmasını gözləmək və sonunu görmək lazım gəlir. Ermənistandakı seçki oyunu da belə oldu. İndi nəticələrə baxanda aydın olur ki, bu seçki Paşinyanı baş nazir eləmək üçün keçirilməmişdi. Bu seçki Koçaryanı (geniş mənada isə "Qarabağ klanı"nı) parlament müxalifəti eləmək üçün keçirilmişdi. Məqsəd hökumətin yox, məhz parlament müxalifətinin restruktizasiyası olub.

Görün, Koçaryanın özü nə deyir: "Elə bilirsiniz, parlamentə mandat üçün gedirik? Yox. Gedirik ki, hökumətdən məsul olaq". Bu, onun bəlkə də, bütün həyatı boyu verdiyi ən səmimi açıqlamadır. Bir xırda düzəliş ilə: Robert Sedrakoviç "hökumətdən məsul olmağa" GETMİR, GÖNDƏRİLİR. Qalan hər şey düzdür.

Parlamentə keçən qüvvələrin arasında həm ikinci, həm də üçüncü yerləri tutan blokların Rusiyaya bağlı "Qarabağ klanı" ilə əlaqəli olması oyunun bütün mahiyyətini açıb göstərir. Koçaryan parlament müxalifəti olmaqdan çox, Paşinyanın başının üstündə asılan Domokl qılıncıdır. Bir siyasi qüvvənin başının üstündən digərini bu sayaq qılınc elə şəkildə həyata keçirir ki, biz kənardan baxanda onu "demokratiyanın təzahürü" kimi görürük. Halbuki, ssenari lap əvvəldən belə cızılmışdı: Nikol hakimiyyətdə qalmalı idi və qaldı da, amma bir şərtlə: Başının üstündən "qılınc" asılmalıdır. "Seçki" adı ilə keçirilən proses həmin qılıncın asılması prosesi idi.

Hər şey necə olmalı idisə, o cür də oldu. Paşinyan 10 noyabr sazişini sona qədər icra etməli olan şəxsdir, bu, onun belinə yüklənmiş çarmıxıdır və sonacan daşımalıdır. O səbəbdən, vəzifəsində qalmalı idi və qaldı. Amma bu zaman ona nəzarət etmək istəyənlərə əvvəlki parlament əl vermirdi və ora daha sərt, daha dişli bir müxalifət, yaxud, daha güclü bir təsir rıçaqı yerləşdirilməli idi. Seçki bunun üçün keçirildi və Paşinyanın üzərində həmin nəzarət mexanizmi yaradıldı. Bundan sonra proses daha rahat gedəcək.

***Vüsal Məmmədov***

# Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi Qrupun növbəti iclası olub

***Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.***

İclasda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin, eləcə də Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və digər müvafiq dövlət qurumlarının məsul nümayəndələri iştirak ediblər.

Azad edilmiş torpaqlarda mina və partlamamış hərbi sursatların təmizlənməsi istiqamətində görülən işlərin əlaqələndirilməsi məqsədilə aidiyyəti dövlət orqanlarının nümayəndələrinin cəlb olunduğu Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə məsələləri üzrə İşçi Qrupunda işğaldan azad edilmiş ərazilərdə təmizləmə fəa-



liyyəti üzrə hesabatlar dinlənilib, hesabatlarda əksini tapmış məsələlər müzakirə olunub.

Müəyyənləşdirilən prioritetlərə əsasən infrastruktur, nəqliyyat, həmçinin əkin sahələrinin minalardan təmizlənməsi işləri barədə məlumatlar verilib.

İşçi Qrupun iclasında minatəmizləmə fəaliyyətinin əsas meyarlarından biri olan mina və partlamamış sursatların təhlükəsinə dair maarifləndirmə istiqamətində fəaliyyət, mina qurbanları riskinin qarşısının alınması məqsədilə qeyri-hökumət təşkilatlarının maarifləndirmə işlərinin aparılmasına cəlb edilməsi və bu sahəyə dair Maarifləndirmə və Təlim proqramı hazırlanmaqla "Train-the-trainer" proqramının həyata keçirilməsi üzrə fikir mübadiləsi aparılıb.

Eləcə də, dövlət strukturlarının bu sahədə fəaliyyətinin media vasitəsilə ictimaiyyətə çatdırılması, baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması üçün kütləvi xəbərdaredici və maarifləndirici təbliğatın davam etdirilməsinin vacibliyi vurğulanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.



# 41 dərəcədən çox istidə açıq havada işlər dayandırılmalıdır- XƏBƏRDARLIQ

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) İsti hava şəraiti ilə əlaqədar işəgötürənlərə müraciət edib.***

DƏMX-dən "Unikal"a verilən məlumata görə, işəgötürənlərə müraciət edərək bildirilib ki, havanın temperaturunun 41 dərəcə Selsidən çox olan hava şəraitində işçilərin həyat və sağlamlığının qorunması üçün əmək qanunvericiliyinə əsasən zəruri tədbirlər görmək işəgötürənin əsas vəzifələrindən biridir.

Qeyd olunub ki, Əmək Məcəlləsinin 233-cü maddəsinə uyğun olaraq, havanın temperaturu 41 dərəcə Selsidən çox olan hava şəraitində açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalıdır. İşçilərə sərinləmək üçün imkan yaradılmalı, onlara fasilələr verilməli, fasilənin sayı və müddəti işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı əsasında müəyyən olunmalıdır.

Məcəlləyə əsasən, bu fasilələr iş vaxtına daxil edilir və fasilələr zamanı əmək haqqı işçilərin tarif maaşına görə ödənilir. İş dayandırıldıqda boşdayanma vaxtının haqqı işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilir.

İşəgötürənlər yay mövsümündə havanın temperaturunun 41 dərəcə Selsidən çox olduğu günləri nəzarətdə saxlamalı, gün ərzində havanın temperaturunun 41 dərəcə Selsidən çox müşahidə olunduğu saatlarda açıq hava şəraitində və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsini dayandırmalı və işçilərə sərinləşmək üçün imkan yaradılmaqla fasilələrin verilməsini təmin etməlidirlər.

Əmək şəraiti şərtləri imkan verdiyi hallarda günün isti vaxtında iş dayandırılaraq (uzun fasilə verərək) iş günü hissələrə bölünməklə iş rejimi tənzimlənə bilər.

# Azərbaycanda 36 faiz körpəyə ilk 3 ayda ana südü verilir

***"Ananın QİÇS, müalicə edilməyən vərəm və süddə keçən infeksion xəstəlikləri varsa, ana südü verilməməlidir".***

Bunu Səhiyyə Nazirliyinin Səhiyyənin təşkili şöbəsinin məsləhətçisi Aynurə Zeynalova deyib.

Onun sözlərinə görə, "ana südü allergiya verir" deyə bir anlayış yoxdur.

"Əgər ana süd verdikdən sonra uşaq səpirsə, qidaya fikir verməlidir. Analar bəzən fikirləşir ki, süd versə kökələcək. Bu tamamilə yanlış fikirdir. Süd verən ana düzgün qidalanırsa, o, heç vaxt kökələ bilməz".

A.Zeynalova qeyd edib ki, Azərbaycanda körpələrin ilk 3 aya qədər ana südü ilə qidalanması 36 faiz, 6 aya qədər isə 42 faizdir.

"Biz istərdik ki, bu rəqəmlər 100 faiz olsun. Rəqəmlərin artması üçün tibb işçiləri olaraq işlər görəcəyik".

# Dünya yaşıl enerjiyə keçir: Bəs Azərbaycanda hansı işlər görülür?

***Azərbaycan 2030-cu ilə qədər enerji balansında bərpa olunan enerjinin payını 30%-ə yüksəltməyi hədəfləyir.***

2010-cu ildən etibarən texnologiyanın sürətli inkişafı, neft qiymətlərinin yüksəlməsi, habelə ölkələrin yaşıl enerjiyə keçid strategiyaları bərpa olunan enerji mənbələrinə diqqəti artırdı. Bu çərçivədə, 2010-2019-cu illər ərzində bərpa olunan enerji sektoruna 3 trilyon dollar, 2019-cu ildə isə 302 milyard dollar həcmində investisiya qoyulub. Ümumilikdə isə son 10 ildə alternativ enerji istehsalının tutumunda qlobal miqyasda iki dəfədən çox artım müşahidə edilib.

## Azərbaycanın bərpa olunan enerji potensialı

Dünyada bərpa olunan enerji mənbələrinə olan bu qədər tələbat Azərbaycanı da bu istiqamətdə düşünməyə vadar edir. Azərbaycanda günəşli günlərin il ərzində 2500-3200 saat arasında dəyişdiyini nəzərə alsaq, bu göstərici enerjinin istehsalı üçün yüksək səciyyələndirilə bilər. Bakıətrafı ərazilərdə ilin orta hesabla 250 günü küləkli olur. Hesablamalara görə, küləyin sürətinin saniyədə 3-4 m olması ondan elektrik enerjisi əldə etmək üçün kifayət edir. Bakıda isə küləyin orta illik sürəti saniyədə 11 metrdən çoxdur.

Azərbaycan Energetika Nazirliyinin məlumatına görə, Azərbaycanın bərpa olunan enerji mənbələri üzrə potensialı 27000 MVt olaraq dəyərləndirilir. Bunun 23000 MVt-ı günəş, 3000 MVt-ı isə külək enerjisinin payına düşür. Günəş enerjisi üzrə, demək olar ki, bütün ölkə ərazisində layihələrin həyata keçirilməsi mümkündür. Külək enerjisi üzrə isə Xəzər akvatoriyasında, Abşeron yarımadasında, Bakıda, habelə Xızı rayonu daha əlverişli sayılır. Bununla yanaşı, Qarabağ bölgəsinin də alternativ enerji potenisalı kifayət qədər yüksəkdir. İlkin qiymətləndirməyə görə, bölgənin günəş enerjisi potensialı 4000 MVt, külək enerjisi potensialı isə 500 MVt-dır. Günəş enerjisi əsasən, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonlarında, külək enerjisi isə Laçın və Kəlbəcər rayonlarında daha yüksək qiymətləndirilir. Kəlbəcər rayonunun dağlıq ərazilərində küləyin orta illik surəti 7-8 m/s təşkil edir ki, bu da külək enerjisinin istehsalı baxımından yüksək qiymətləndirilə bilər. Azərbaycanda yerli su ehtiyatlarının 25%-nin Qarabağda formalaşdığı nəzərə alınmaqla, Tərtər, Bazarçay, Həkəri kimi əsas çaylar və onların qollarından elektrik enerjisi istehsalı əlverişli sayılır.

Bununla yanaşı, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən hissəsində əhəmiyyətli dərəcədə bərpa olunan enerji potensialı mövcuddur. Energetika Nazirliyinin məlumatına görə, Xəzər dənizi offşor külək enerjisi baxımından böyük potensiala malikdir. İlkin qiymətləndirmələrə görə, təkcə Azərbaycan sektorunda 157 min meqavatt səviyyəsində enerjinin olduğu hesab edilir. Bu, Azərbaycanda elektrik stansiyalarının ümumi gücündən 20 dəfə çoxdur. Bütün bunlar nəzərə alınaraq, son illərdə Azərbaycanda bərpa olunan enerji sektoruna dövlət səviyyəsində böyük diqqət ayrılır. Belə ki, Azərbaycan 2030-cu ilə qədər enerji balansında bərpa olunan enerjinin payını 30%-ə yüksəltməyi hədəfləyir. Atılan əsaslı addımlar nəticəsində, son illərdə ölkədə alternativ enerji mənbələrinin istehsalında kəskin artım müşahidə edilir. Belə ki, 2013-2019-cu illər ərzində külək enerjisinin istehsalı 131 dəfə artaraq, 0,8 milyon Kvt/saat-dan 105,4 milyon Kvt/saata yüksəlib.

Xatırladaq ki, ötən ilin dekabr ayında Energetika Nazirliyi və "Azərenerji" ASC ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında qoyuluş gücü 240 MVt olan külək elektrik stansiyası layihəsi üzrə "İnvestisiya müqaviləsi" imzalanıb. Müqavilənin imzalanması və layihənin icrası Azərbaycanda formalaşmış əlverişli biznes mühitinin bariz nümunəsi kimi dəyərləndirilə bilər. İlk dəfə xarici sərmayə əsaslı belə bir layihənin həyata keçirilməsi nəticəsində külək elektrik stansiyası,



təxminən, ildə 1 milyard kVt/saat elektrik enerjisi istehsal edəcək, 220 milyon kub metr qazın sərbəstləşməsini təmin edəcək, atmosferə 400 min tondan artıq CO2 emissiyasının atılmasının qarşısını alacaqdır.

Digər tərəfdən, 2013-2019-cu illər arasında ölkədə günəş elektrik stansiyalarının istehsal həcmi isə 55 dəfə artaraq, 0,8 milyon Kvt/saatdan 44,2 milyon Kvt/saata yüksəlib. Artım tendensiyasının gələcəkdə də davam edəcəyi gözlənilir. Belə ki, cari ilin aprel ayında Energetika Nazirliyi və "Azərenerji" ASC ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında 230 MVt gücündə günəş elektrik stansiyası layihəsi üzrə "İnvestisiya müqaviləsi" imzalanıb. Müqavilə çərçivəsində, ildə 500 milyon kVt/saat elektrik enerjisinin istehsalı nəzərdə tutulur ki, bu da, öz növbəsində, 110 milyon kub metr təbii qaza qənaət edilməsinə, 200 min ton karbon emissiyasının azaldılmasına, yeni iş yerlərinin yaradılmasına, habelə yeni investorların digər layihələrə cəlbinə yol açacaqdır.

## Qarabağda yaşıl enerji zonası yaradılacaq

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi müasir inkişaf strategiyasında Qarabağın "yaşıl enerji" zonasına çevrilməsi mühüm əhəmiyyət daşıyır. Bu çərçivədə, may ayının 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Dövlət başçısı bu ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391 min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara alıb. Beləliklə, Azərbaycanın Energetika Nazirliyi ilə Yaponiyanın "Tepsco" şirkəti arasında işğaldan azad edilmiş ərazilərdə külək, günəş, hidro, geotermal və bioenerji kimi bərpaolunan enerji potensialından səmərəli istifadə, enerji səmərəliliyi texnologiyaları, müasir enerji idarəetmə yanaşmaları əsasında regionun enerji təminatını həyata keçirilməsi məqsədilə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üzrə müqavilə imzalanıb.

Bütün bu addımlar, Azərbaycanın bərpa olunan enerji mənbələrinin inkişafında və Qarabağda yaşıl enerji zonasının yaradılmasında nə qədər istəkli və maraqlı olduğunu bir daha əyani şəkildə ortaya qoyur. Beləliklə, bölgədə yaşıl enerji zonasının yaradılması məqsədilə özəl investisiyalar və dövlət-özəl tərəfdaşlığı üçün hökumət tərəfindən bütün əlverişli imkanlar yaradılır. Bunun nəticəsidir ki, iyun ayının 3-də Azərbaycan Respublikasının Energetika Nazirliyi və bp şirkəti arasında Zəngilan/Cəbrayıl zonasında 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair İcra Müqaviləsi imzalanıb. Qeyd edək ki, bu müqavilə Qarabağa xarici sərmayənin cəlb edilməsi, habelə regionda yeni iş yerlərinin yaradılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

## Alternativ enerji mənbələrinin Azərbaycan üçün faydaları nədir?

Alternativ enerji mənbələrinin inkişafı bir neçə istiqamətdə ölkə iqtisadiyyatı üçün əhəmiyyətlidir. Öncəliklə, enerji təhlükəsizliyi baxımından ilkin enerji istehlakının şaxələndirilməsi vacibdir. İlkin enerji istehlakı nə qədər çox şaxələndirilsə, bir o qədər karbohidrogen yanacaqlarından asılılıq azalacaq. Beləliklə, alternativ enerjinin istehsalı artırılmaqla daxildə təbii qazın sərfiyyatı azaldıla bilər. Qənaət edilən təbii qaz isə həm sənayedə xam mal kimi istifadə edilə, həm də ixrac edilərək ölkəyə əlavə valyuta qazandırıla bilər. Qeyd edək ki, Azərbaycanda "SOCAR Methanol" və "SOCAR Karbamid" zavodlarında təbii qazdan xam mal kimi istifadə edilir. Məsələn, təbii qaz emal olunub karbamid istehsal olunduqda onun əlavə dəyəri iki dəfədən çox artır. Başqa sözlə, qənaət edilən təbii qaz ilə sənayedə əlavə dəyər yaradıla bilər.

Son illərdə kənd təsərrüfatı sektorunun inkişafı biokütlə, əsasən də bioqazların istehsalı baxımından əlverişli fürsətlər ortaya çıxarır. Bioqazlar məişət tullantıları ilə yanaşı, toyuq peyininin istifadəsi ilə də əldə edilir. Toyuq peyini torpaqlarda şoranlığa səbəb olduğu üçün kənd təsərrüfatı üçün yararsız sayılır. Ancaq, bu gübrə bioqaza çevrilərək iqtisadi baxımdan faydalı ola bilər. Eyni zamanda, bioqaz istehsal edilərkən ondan gübrə almaq da mükündür ki, bu gübrələr həm kimyəi gübrələri əvəz edə, həm də əlavə gübrə kimi istifadə oluna bilər. Bu da, öz növbəsində kənd təsərrüfatında torpağın məhsuldarlığının artmasına və bitkilərin xəstəliklərə qarşı daha müqavimətli olmasına töhfə verə bilər.

Bərpa olunan enerji sektorunun inkişafı Azərbaycanda kiçik və orta biznes subyektlərinin inkişafı və məşğulluq səviyyəsinin yüksəldilməsi baxımından da əhəmiyyətlidir. Belə ki, 2019-cu ildə dünyada 11,5 milyon insan bərpa olunan enerji sektorunda çalışıb.

Təkcə Aİ-də bu rəqəm 1,2 milyon nəfər təşkil edir. Almaniyada isə bu sektorda 300 minə yaxın insan çalışır. Almaniya günəş panellərini və külək turbinlərini istehsal etməklə həm bərpa olunan enerjini daha ucuz istehsal edir, həm də bu avadanlıqları xarici ölkələrə sataraq iqtisadiyyatını gücləndirir.

Azərbaycan da öz növbəsində bu sektoru uğurla inkişaf etdirə bilər. Nəzərə alsaq ki, hazırda Qarabağda yaşıl enerji zonasının yaradılması prioritet istiqamət kimi götürülüb, Qarabağda alternativ enerji avadanlıqları və qurğuları istehsal edilərək Qarabağın dayanıqlı iqtisadi inkişafına dəyərli töhfə verilə bilər. Belə ki, sözügedən qurğular daxildə istehsal ediləcəyi üçün, ölkədə bərpa olunan enerji mənbələri daha əlverişli qiymətlərdən istehsal edilə bilər.

Ümumiyyətlə, alternativ enerji sektoru əmək tutumu yüksək olan bir sektordur və məşğulluğun artırılması baxımından olduqca əhəmiyyətlidir. Beləliklə, Qarabağda bərpa olunan enerji sektorunun inkişafı, regionda yeni işyerlərinin açılmasına zəmin yaradacaqdır. Bu isə öz növbəsində, məcburi köçkünlərin Qarabağa geri qayıtma prosesini daha da sürətləndirə bilər.

Qarabağda istehsal ediləcək alternativ enerji qurğuları qonşu ölkələrə ixrac edilərək ölkənin ixrac potensialı artırıla bilər. Çünki Azərbaycanın ətrafında olan ölkələrin əksəriyyəti neft və təbii qaz istehlakından həddindən artıq asılı olan ölkələrdir. Hətta, Özbəkistanın və Türkmənistanın ümumi enerji istehlakında təbii qazın payı, müvafiq olaraq, 88% və 79%-dir. Bu ölkələr orta və uzun müddətli perspektivdə alternativ enerji mənbələrindən istifadə etməklə neft və təbii qazdan asılılıqlarını azaltmaqda maraqlıdır.

Azərbaycan Paris İqlim Sazişinin tələblərinə uyğun olaraq, 2030-cu ilə qədər istixana qazlarının emissiyalarının səviyyəsinin 35% azaldılmasını hədəf kimi götürüb. Bərpa olunan enerji ekoloji cəhətdən təmiz olduğu üçün, bu həm Azərbaycanın Paris sazişi çərçivəsində öhdəliklərinin yerinə yetirilməsinə, həm də ölkədə ekoloji vəziyyətinin daha da yaxşılaşdırılmasına mühüm töhfə verəcəkdir.

Beləliklə, Azərbaycan, əsasən, günəş və külək enerjisinin istehsalında istifadə olunan qurğuları istehsal etməklə həm daxildə alternativ enerji istehsalını kommersiya baxımından daha səmərəli edə, həm də xarici ölkələrə sataraq ixrac gəlirlərini artıra bilər. Bütün bunlar, öz növbəsində ölkədə kiçik və orta biznes subyektlərinin inkişafına və məşğullq səviyyəsinin yüksəlməsinə təkan verə bilər.

# 3 medalla təltif olunan əsgərin döyüş xatirələri: "Qürurlu, acılı, təəssüf dolu..."



***"Bu gün Cənab Prezidentin sərəncamları ilə Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirakıma görə 3 medalla təltif olundum. Mənim üçün çox qürurverici bir hadisədir. Buna görə Müzəffər Ali Baş Komandanımıza dərin təşəkkürümü bildirirəm".***

Bunu Bakıvaxtı.az-a açıqlamasında bu gün Prezidentin imzaladığı sərəncam ilə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilən Rəsul Həsənov bildirib.

Qəhrəmanımız bildirir ki, onun xidmət etdiyi hərbis hissənin hərbi qulluqçuları müharibə başalayan günü cəbhəyə yollanıb: "Mən kiçik çavuş Həsənov Rəsul İqrar oğlu Qusar rayonu N saylı hərbi hissədə xidmət edirdim. Hərbi xidmətə 2019-cu ilin oktyabr ayında yola düşmüşəm. Ali təhsilli olduğum üçün mənim hərbi xidmət müddəti 1 il idi. Yəni 2020-ci ilin oktaybr ayında xidmətimi başa vurub evə dönməliydim. Amma qismətdə nə yaılmışdısa, o da baş verdi. Tərxis olmağımıza sayılı günlər qaldığı halda sentyabr ayının 27-sində hərbi hissə komandirinin verdiyi tapşırıqla briqadaya toplanış həyəcanı verildi və tez bir zamanda hərbi hissəni tərk elədik.

2020-ci ilin yay aylarında məğlub düşmənlərimizin hər zamankı kimi cəbhəboyu ərazilərdə təxribatları davam etdirməsi, Tovuz hadisələri, general Polad Həşimov və polkovnik İlqar Mirzəyev kimi qəhrəman zabitlərimizin şəhid olması xəbərləri qəhrəmanlıq ruhunu aşıladı.

Taktiki təlimlər, tez-tez elan verilən həyacan siqnalı hazırlıq səviyyəmizin daha da yüksəldilməsinə və hazırlıqlı olmağımıza yönəlmişdi".

R.Həsənov bildirib ki, 44 günlük müharibə şəraitində əsgər yoldaşları, komandirlərilə birlikdə çiyin-çiyinə düşmənlə vuruşublar: "Qürurlu, acılı, təəssüf dolu, stresli günlərimiz də çox oldu.

Bizlə birgə yola düşən, amma birgə qayıtmayan neçə-neçə əsgər yoldaşım, komandirlərim oldu. Onlar Vətənin müdafiəsi uğrunda canlarını qurban verdilər. Allah onların hamısına rəhmət eləsin. Ruhları qarşısında baş əyirəm".

# Qubadlıda daha bir hərbi hissə istifadəyə verildi

***24 iyun tarixində Qubadlı rayonu ərazisində Dövlət Sərhəd Xidmətinin (DSX) yeni hərbi hissə kompleksi xidməti istifadəyə verilib.***

DSX-dən Unikal.org-a verilən məlumata görə, bununla əlaqədar təşkil olunmuş mərasimdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev işğaldan azad olunmuş ərazilərimizdə Dövlət Sərhəd Xidmətunin növbəti hərbi hissəsinin xidməti-döyüş fəaliyyətinə başlaması münasibətilə şəxsi heyəti təbrik edib.

Açılış mərasimindən sonra hərbi hissədə qərargaha, xidməti və inzibati otaqlara, zabit heyəti üçün yaşayış evlərinə, əsgər yataqxanasına, yeməkxanaya, hamam-camaşırxana, ərzaq, əşya-geyim, yanacaq və silah anbarlarına, avtomobil parkına, döyüş texnikasına və silah-sursatlara baxış keçirilib.

Tədbirin sonunda şəxsi heyətlə birgə nahar edilmiş və xatirə fotoşəkilləri çəkilib.

Tədbirdən sonra "Qubadlı" əlahiddə sərhəd diviziyasının rəhbər heyətinin iştirakı ilə xidməti müşavirə keçirilmiş, Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin verdiyi tapşırıqların icra vəziyyəti, xidməti ərazidə mövcud olan əməliyyat şəraiti və görülən tədbirlər haqqında vəzifəli şəxslərin məruzələri dinlənilmiş, dövlət sərhədinin müdafiəsi və mühafizəsi istiqamətində həyata keçirilən tədbirlər yüksək qiymətləndirilib.



Hərbi hissə və bölmələrin döyüş hazırlığının daha da yüksəldilməsi və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi üzrə görülən işlər yoxlanılmış, sərhəd-döyüş məntəqələrində xidmət aparan sərhədçilərlə görüşülüb, hərbi qulluqçuların xidməti-döyüş və məişət şəraitlərinə baxış keçirilib.

# AZAL xarici hava yolu şirkətlərinə süni maneələr yaradır - Açıqlama

***"Azərbaycanda hava yolu infrastrukturunun, aeroportların AZAL-dan ayrılması zəruri çağırışlardandır və qurumun səlahiyyətlərinin azaldılması yolunda atılan ilk addımlardandır".***

"Unikal" qaynarinfo-ya istinadən xəbər verir ki, bunu açıqlamasında İqtisadi və Sosial İnkişaf Mərkəzinin eksperti Rəşad Həsənov Azərbaycan Baş naziri Əli Əsədovun Naxçıvan Beynəlxalq Hava Limanının AZAL-ın tabeliyindən çıxarılıb, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tabeliyinə verilməsi barədə qərarını şərh edərkən deyib. O bildirdi ki, indiki halda Azərbaycan vətəndaşı dünyada ən bahalı hava yolu xidmətindən istifadə etmək zorundadır:

"İndiki mövcud şərtlərdən istifadə edərək AZAL xarici hava yolu şirkətlərinin Azərbaycana uçuşlarına süni maneələr yaradır. Nəticədə Azərbaycan vətəndaşı dünyada ən bahalı hava yolu xidmətindən istifadə etmək məcburiyyətində qalır".

Ekspertin fikrincə, qəbul edilən qərar Naxçıvan hava limanının gəlirlərində əhəmiyyətli artıma gətirib çıxaracaq:

"Hazırkı şərtlər daxilində Naxçıvan hava limanının AZAL-dan ayrılması ilk simptom olaraq müsbət qiymətləndirilə bilər. Artıq o ayrıca hava limanı olaraq fəaliyyət göstərəcək. Qəbul etdiyi hava yolu şirkətlərilə ayrı-ayrılıqda müqavilələr bağlamaq imkanı qazanacaq. Naxçıvana uçan hava yolu şirkətlərinin sayı artacaq. Dolayısı ilə qiymət rəqabətliliyi də güclənəcək".

Bununla belə, həmsöhbətimiz düşünür ki, həmin hava limanı Nazirlər Kabinetinin idarəsinə deyil, özəl şirkətlərə verilsə, daha məqsədəuyğun olar:

"Türkiyənin TAV şirkəti bu istiqamətdə ciddi təcrübəyə sahibdir. Bu şirkət Gürcüstanda Kutaisi limanının işlənməsini həyata keçirir. Nəticədə 4 il müddətində bu hava limanı sərnişin daşımanı 3 dəfəyə qədər artırmağa nail olub. Azərbaycanda isə həmin dövrdə Bakı istisna olmaqla bütün digər hava limanlarında sərnişindaşımada azalma baş verib. Ümumiyyətlə, Türkiyənin bu şirkəti dünyanın 8 ölkəsində hava limanlarını idarə edir. Təbii ki, bu fonda hava limanı Naxçıvan Nazirlər Kabinetinin (NK) tabeliyində qalacaq. Amma NK növbəti mərhələdə onu optimal şərtlər daxilində özəl şirkətlərə uzunmüddətli idarəetməyə verməlidir".

# Bu günədək 578250 hektar sahədə biçin aparılıb

***Respublikada taxıl biçini davam edir. İyunun 24-nə olan operativ məlumata görə, artıq 578250 hektar sahədə biçin başa çatıb. Sahələrdən 1832176 ton məhsul yığılıb.***

Unikal.org xəbər verir ki, hazırda taxıl üzrə orta məhsuldarlıq 31,7 sentner təşkil edir.

Bugünədək 321086 ha sahədə arpa, 257164 ha sahədə buğda biçini aparılıb. Sahələrdən 993115 ton arpa, 839061 ton buğda yığılıb. Biçin prosesində 1720 kombayn iştirak edir. Bunlardan 977 kombayn fiziki və hüquqi şəxslərin mülkiyyətində olan kombaynlardır. Biçin zonasında "Aqroservis" ASC-nin rayon bölmələrində olan 495 kombayn iştirak edir, "Aqroservis" tərəfindən aktv biçin gedən rayonlara digər bölgələrdən 248 kombayn dislokasiya edilib. İndiyədək "Aqroservis" ASC-nin kombaynları ilə 179315 ha, özəl kombaynlar ilə isə 398935 ha sahə biçilib. Biçin davam edir.

# Milli Qəhrəman Mübariz İbrahimovun anım günü keçirildi

***İyunun 18-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Milli Qəhrəman Mübariz İbrahimovun anım gününə həsr olunmuş tədbir keçirilib. Onlayn formatda keçirilən tədbirdə ADNSU-nun rektoru, professor Mustafa Babanlı, Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, polkovnik Əzizağa Qənizadə, eləcə də universitetin professor-müəllim heyəti və tələbələr iştirak edib.***

Universitetdən Unikal.org-a verilən məlumata görə, Dövlət Himninin səslənməsi ilə başlanan tədbirdə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra çıxış edən ADNSU-nun rektoru, professor Mustafa Babanlı Milli Qəhrəman Mübariz İbrahimovun igidliyinin hər bir azərbaycanlı gənc üçün örnək olduğunu qeyd edərək, qəhrəmanımızın ömür yolundan və göstərdiyi şücaətdən danışıb. Qeyd edib ki, 11 il bundan öncə M.İbrahimovun göstərdiyi igidlik Azərbaycan Ordusunun gücünü dünyaya tanıtdı və yüzlərlə, minlərlə Mübarizlərin yetişməsinə vəsilə oldu.

Rektor əlavə edib ki, bu gün Mübarizin ruhu şaddır, çünki onun uğrunda şəhid olduğu Vətən torpağı 44 gün ərzində yenilməz Azərbaycan Ordusu tərəfindən düşmən tapdağından azad olunub.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, polkovnik Əzizağa Qənizadə, ADNSU-nun əməkdaşı, Vətən Müharibəsi iştirakçısı, qazi Niyaz Zeynalov Milli Qəhrəman Mübariz İbrahimovun döyüş yolundan danışaraq, belə döyüşçülərin hər zaman qəlbimizdə yaşayacağını, gənclərimizə nümunə olacağını bildiriblər. Qazi Niyaz Zeynalov 44 günlük Vətən müharibəsi zamanı hər bir döyüşçünün özünü M.İbrahimova oxşatdığını, onun kimi qəhrəmanlıq göstərməyə çalışdığını deyib.




## ABŞ hərbçiləri Kabil aeroportunun təhlükəsizliyi ilə bağlı Türkiyədə səfərdədir

***ABŞ Müdafiə Nazirliyinin (Pentaqon) nümayəndə heyəti bu gün Türkiyəyə səfər edib.***

APA-nın yerli bürosunun xəbərinə görə, bu barədə Türkiyənin milli müdafiə naziri Hulusi Akar bildirib. Onun sözlərinə görə, Pentaqonun nümayəndə heyət ilə Türkiyə Milli Müdafiə Nazirliyində danışıqlar aparılır.

"Hazırda hər hansı bir qərar verilməyib", - deyə nazir vurğulayıb.

Qeyd edək ki, səfər zamanı Kabildə Həmid Kərzai Beynəlxalq Hava Limanının təhlükəsizliyinin təmin edilməsində Türkiyənin rolu müzakirə ediləcək. Türkiyə hərbçiləri 6 ildir NATO-nun "Qətiyyətli dəstək" missiyası çərçivəsində Həmid Kərzai Beynəlxalq Hava Limanında fəaliyyət göstərir.

## İsrail hökuməti xarici turistlərlə bağlı sərhədlərin açılmasının vaxtını uzadıb

***İsrail hökuməti iyulun 1-də fərdi qaydada ölkəyə gələn xarici turistlərlə bağlı sərhədlərin açılmasını nəzərdə tutan qərarın avqustun 1-dək təxirə salındığını bəyan edib.***

APA Reuters-ə istinadən xəbər verir ki, bu barədə hökumət başçısının ofisi məlumat yayıb.

Eyni zamanda bildirilib ki, qadağa koronavirus infeksiyasının nisbətən az yayıldığı ölkələrdən peyvənd olunmuş turist qruplarına şamil edilmir. Sözügedən ölkələrdən gələn turistlərin artıq bu ilin may ayının sonundan etibarən İsrailə girişinə icazə verilib.

Qeyd edək ki, "qadağan olunmuş" ölkələr siyahısına Rusiya, Argentina, Hindistan, Cənubi Afrika, Meksika və Braziliya da daxildir.

## Gürcüstanda karantin və maska cərimələri ləğv edilir

***Gürcüstanda karantin və maska ??rejiminin pozulmasına görə bütün cərimələr ləğv edilir.***

"Unikal" "Sputnik Gürcüstan"a istinadən xəbər verir ki, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili cərimələrlə bağlı amnistiya elan edib.

"Bu gün pandemiya zamanı qaydaların pozulması səbəbindən inzibati və ya cinayət məsuliyyətinə cəlb olunan şəxslərə aid iki qanun layihəsi parlamentə təqdim edildi",- deyə Qaribaşvili bildirib.

Gürcüstan hökumət başçısının sözlərinə görə, bu təşəbbüs çərçivəsində 245 min vətəndaş və 344 hüquqi şəxs həm inzibati, həm də cinayət məsuliyyətindən azad olunacaq. Bununla 76 milyon lari ödənilməmiş cərimələrin də ləğvi nəzərdə tutulub.

"Bu qərarı, əlbəttə ki, pandemiyanın yaratdığı ağır sosial-iqtisadi vəziyyəti nəzərə alaraq verdik. Virusun yayılmasının idarəolunması zamanı qaydalara riayət olunmasının lazım olduğunu, lakin bİ. Qaribaşvili əlavə edib.

Qeyd edək ki, bu yaxınlarda Gürcüstanda açıq havada maska taxma tələbi ləğv edilib, 1 iyuldan etibarən isə ölkədə komendant saatının

# Koçaryan parlamentdə "səngər qazacaq" - Ermənistanın seçkisonrası reallıqları



***Nikol Paşinyanın rəqibləri onun rəhbərlik etdiyi "Vətəndaş Müqaviləsi" partiyasının parlament seçkilərindəki qələbəsini sindirə bilmirlər. Müxalif "Ermənistan" blokunun lideri Robert Koçaryan bəyan edir ki, "Bu hökumətin qazandığı mandat, ona qarşı inamı əks etdirəcək səviyyədə deyil". O, nəticələrə yenidən baxılması üçün Konstitusiya Məhkəməsinə müraciət edib. Bununla yanaşı, hələlik küçələrdə etiraz aksiyaları keçirmək niyyətində olmadıqlarını dilə gətirib.***

Paşinyana gəlincə, bir müddət əvvəl müxalifəti dəmir barmaqlıqlarla hədələsə də, indi dialoqa başlamağı təklif edir. Bu arada Xankəndidə olmayan respublikanın prezidenti, "Paşinyanın adamı" hesab edilən Arayik Arutyunyanın istefası yenidən gündəmə qayıdıb.

Nikol Paşinyanın seçkilərin birinci turunda qalib gəldiyi günün səhəri rəqibləri özlərini xatırlatmaq qərarına gəldilər. Səsləri həm Yerevandan, həm də ermənilərin tanınmamış Dağlıq Qarabağ Respublikasının (DQR) "paytaxtı" hesab etdikləri Xankəndindən gəldi.

- Məndə belə bir təəssürat yaranıb ki, seçkilərdə eks-prezidentlərin hər üçünün iştirakı fonunda, cəmiyyətin keçmiş hakimiyyət orqanlarının geri qayıtma ehtimalından qorxması bizə qarşı işlədi. Kəndlərdə bu qorxuları aşa bilmədik, vaxt az idi, Paşinyan və səlahiyyətliləri isə səyləri ni birləşdirib, bölgələri öz tərəfinə çəkməyi bacardılar,- deyə "Ermənistan" blokunun rəhbəri (erməni dilində "Hayastan" kimi səslənir), ölkənin keçmiş prezidenti Robert Koçaryan Yerevanda keçirilən mətbuat konfransında bildirib.

Belə deməklə, əslində, Koçaryan çatışmazlıqlarını boynuna almış oldu. Xarakterinə xas olmayan bu gözlənilməz etirafından sonra, eks-prezident seçki nəticələrindən Konstitusiya Məhkəməsinə şikayət etmək niyyətində olduğunu açıqladı. Hələlik bir qərar qəbul etməmiş olsalar da, görünür, o və yandaşları qazandıqları mandatları qoruyub saxlayacaqlar.

- Blokda hələ bir qərara gəlməmişik ki, mandatlarımızı qəbul edək, yoxsa yox. Bu məsələ ilə bağlı şəxsi fikrim belədir: mandat qazandıq ki, mübarizəmizi davam etdirək. Bu baxımdan, əlimizə ciddi bir fürsət keçib. Parlamentdəki mübarizəmiz küçə mübarizəmizi də gücləndirəcək,- desə də, Koçaryan, yeni hökumətlə qarşıdurmanın küçə hissəsini hələlik təxirə salıb, yaxud da yalnız özünün bildiyi vaxtadək ertələyib: "Biz seçkilərdən sonra camaatı küçələrə çıxarmadıq, düşündük ki, seçkisonrası proseslər hüquqi müstəvidə davam etdirilməlidir".

Ermənistan Milli Məclisindəki tərəfdarlarının işi barədə danışarkən isə, Koçaryan metaforaya müraciət edib: "Biz parlamentin səngərlərini ələ keçirdik, indi güclənməli və tam qələbəmizi təmin etməliyik. Elə bilirsiniz, parlamentə mandat üçün gedirik? Yox. Gedirik ki, hökumətdən məsul olaq" .

"Sizcə, baş nazir postuna sahib ola biləcəksinizmi" sualına da Koçaryan müsbət cavab verib.

Bütün bunlara rəğmən, Robert Koçaryanın ipə-sapa yovuşmaz rəqibi Nikol Paşinyan, çox güman ki, qələbənin eyforiyası ilə düşmənçiliyin daşını atıb, sülhsevər olub. Amma seçkiqabağı təbliğat kampaniyası ərəfəsində o, "keçmiş elitanı" həbslərlə hədələyirdi. Amma qələbə mitinqində bu ritorikasından əl çəkərək, bütün rəqiblərinə "barış əlini" uzatdı.

- Ermənistan və Qarabağın tarixində yeni səhifə açılır və bu səhifə milli potensialın konsolidasiyası, yeni, əsl demokratiya dəyərlərinin yaradılması ilə başlamalıdır. Buna cavabdehliyi ilk növbədə, özüm üzərimə götürürəm və tərəfdarlarımı təhqirlərə, aqressiyaya, düşmənçiliyə son qoymağa çağırıram,- deyə Paşinyan iyunun 22-dəki çıxışında bildirmişdi.

Bu arada, İrəvan Beynəlxalq İnsan İnkişafı Mərkəzinin rəhbəri, politoloq Tevan Poqosyan Ermənistandakı cari vəziyyəti şərh edərkən qeyd edib ki, parlamentdə müxalifətin yeni təmsilçiləri hakimiyyət orqanlarına müqavimət göstərmək üçün kifayət qədər resursa sahibdirlər. Poqosyanın sözlərinə görə, parlamentdə müxalifət hər an müxtəlif məsələlərlə bağlı müvəqqəti istintaq komissiyaları yarada, hökumət nümayəndələrini məsuliyyətə cəlb edə bilər, buna səsləri çatır.

Nikol Paşinyanın qələbə zəlzələsinin dalğası Xankəndidə də hiss olundu. İyunun 22-də qondarma "DQR prezidenti" Arayik Arutyunyanın istefası tələbilə mitinqlər başladı. Buna səbəb Arutyunyanın seçki günü "Vətəndaş Müqaviləsi" Partiyasının qərargahında görünməsi oldu. Gərginliyi aradan qaldırmaq üçün, Arayik iyun 23-də öz mitinqini keçirməyə məcbur oldu. "Son günlərdə yaranan daxili siyasi gərginliyi və son aylar ərzində yaranmış sualları nəzərə alaraq, bu gün insanlara müraciət edəcəyəm" deyən Arutyunyan, üzləşdikləri problemlər və onların həlli barədə açıq danışmaq niyyətində olduğunu Facebook profilində bəyan edib. Mitinqində isə özünü "günahsız" hesab etmədiyini, kreslodan yapışmadığını və hər an istefaya hazır olduğunu bildirib.

Ancaq istefaya getməzdən əvvəl Arutyunyan həmvətəndaşlarının növbədənkənar seçkilərə münasibətini öyrənmək üçün ictimai-siyasi müşavirələr çağırmağı planlaşdırıb. Onun sözlərinə görə, müsbət reaksiya veriləcəyi halda, uyğun bir vaxtda özünün qatılmayacağı fövqəladə seçki elan edəcək.

Arayikin mitinqindən dərhal sonra rəqibləri meydana toplaşaraq, öz mitinqlərini keçiriblər.

Tevan Poqosyana görə, Qarabağın erməni sakinləri düşünürlər ki, Yerevanda hakimiyyət orqanları onları unudub, problemləri ilə maraqlanmır, buna görə də, özlərini lazımsız hiss edirlər. Erməni politoloq əmindir ki, Arayik Arutyunyana qarşı hazırkı mitinqlər bu vəziyyətlə əlaqədar ictimai düşüncənin təzahürüdür.

***Səbinə Həsənova***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Qarabağa beynəlxalq təşkilatların missiyasının göndərilməsi vacib amildir

## Nizami Cəfərov: "Bu məsələ dünyanın teleskopundan görünməlidir ki, Dağlıq Qarabağ həqiqətləri dünyaya yayılsın"

***28 illik işğal təkcə 1 milyondan çox məcburi köçkünün öz doğma yurd-yuvasından didərgin düşməsi ilə nəticələnməyib. İşğal dövründə düşmən torpaqlarımızda xalqımıza məxsus mədəni-tarixi abidələri də dağıdaraq məhv ediblər. 44 günlük müharibə zamanı Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi düşmənin bu barbarlığının üstünü açaraq onların tarixi- mədəni irsimizə qarşı soyqırım həyata keçirdiyini üzə çıxartdı.***

Hazırda Azərbaycan erməni vandallığının mədəni-tarixi irsimizə vurduğu ziyanın hesablanmasına beynəlxalq təşkilatların cəlb edilməsi ilə bağlı iş aparır. Bu günlərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Azərbaycanın "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə" 1954-cü il Haaqa Konvensiyasına uyğun olaraq ölkəmizin münaqişənin təsirinə məruz qalmış ərazilərinə dəvət etdiyi YUNESKO missiyası ilə bağlı son yenilikləri açıqlayıb. O, bildirib ki, "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin UNESCO-nun Baş direktoru Odre Azule ilə telefon danışığının davamı olaraq, son aylar ərzində Azərbaycan və YUNESKO arasında videokonfrans formatında bir sıra görüşlər keçirilib. İki gün öncə, iyunun 21-də baş tutmuş sonuncu görüş zamanı Azərbaycan tərəfi ölkəmizin YUNESKO missiyasını qəbul etməyə hazır olduğunu bir daha vurğulayaraq təşkilatı bu prosesi sürətləndirməyə çağırıb. Bu xüsusda, YUNESKO missiyasının işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarına və Şuşa şəhərinə səfəri ilə bağlı müzakirələr aparılıb. L. Abdullayeva deyib ki, Azərbaycan tərəfi və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMTQAK) arasında aparılmış müzakirələr nəticəsində BMTQAK-ın ölkəmizin münaqişənin təsirinə məruz qalmış ərazilərinə missiyasının həyata keçirilməsi ilə bağlı razılıq əldə edib. Azərbaycan BMTQAK missiyasını da qəbul etməyə



tam hazırdır. Hal-hazırda Azərbaycan tərəfi səfərlə əlaqədar işlərin yekunlaşdırılması üçün hər iki təşkilatdan cavab gözləyir.

Ekspertlər də işğaldan azad edilmiş ərazilərdə beynəlxalq təşkilatların missiyasının Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması baxımından əhəmiyyətli məsələ olduğunu söyləyirlər. Onların sözlərinə görə, hazırda azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ilə yanaşı daha bir mühüm məsələ işğalçı Ermənistanın Azərbaycana vurduğu ziyanı beynəlxalq standartlar əsasında hesablamaqdır ki, bu, o qədər də asan iş deyil. Onların qənaətinə görə, abidələrin beynəlxalq qiymət standartlarına uyğun qiymətləndirilməsi mövcud nəzəri təcrübi biliklər əsasında abidələrə dəyən zərərin real qiymətləndirilməsinə xidmət edir. Memarlıq abidələrinə dəyən zərərin bazar qiymətlərinə uyğun müəyyən edilməsi qaydaları var. Belə ki, dünya təcrübəsində mədəni irs obyektlərinin qiymətləndirilməsi üçün əsasən xərc yanaşması tətbiq edilir. Qiymətləndirmə meyarları tarixi və memarlıq abidələrinin qiymətlilik göstəriciləri şkalası üzrə müəyyən olunur. Obyektin tipi, tikilməsi, tarixi, mürəkkəbliyi kateqoriyası, obyektin nadirliyi, bərpaolunanlığı, şəhərsalma əhəmiyyətliliyi və s. nəzərə alınır. İşğal zonasında olan tarixi abidələrin 30 ilə yaxın bir müddətdə baxımsız qalmasını və onlardan bəzilərinin qeyri-sivil qaydada istifadə olunmasını və bəzilərinin tamamilə dağıdıldığını nəzərə alsaq Azərbaycana bu sahədə də çox böyük həcmdə maddi və mənəvi ziyan vurulub.

Milli Məclisin Mədəniyyət Komitəsinin üzvü Nizami Cəfərov YUNESKO missiyasının işğaldan azad olunmuş ərazilərə gəlməsinin çox vacib olduğunu söyləyir. Deputat deyir ki, bu məsələ dünyanın teleskopundan görünməlidir ki, Dağlıq Qarabağ həqiqətləri dünyaya yayılsın: "Dağlıq Qarabağ münaqişəsi ulu öndər Heydər Əliyevin sayəsində dünyanın diqqətinə çatdırıldı. Dünya onun sayəsində bu münaqişədən xəbər tutdu. Düzdür, 28 il işğal davam etdi. Torpaqlarımız bədnam qonşularımızın tapdağı altında qaldı. Hətta bu müddətdə BTM-nin qətnamələri də icra olunmamış qaldı. Amma biz bu münaqişənin beynəlxalq səviyyədə həlli üçün fəaliyyətimizi davam etdirdik. Beynəlxalq hüquq Azərbaycanın tərəfində oldu. Biz müharibə ilə torpaqlarımızı azad etdik. Bu zaman da Fransadan başqa heç kəs Ermənistanın yanında olmadı. Deməli biz bu münaqişədə Azərbaycanın haqlı olduğunu dünyaya qəbul etdirə bilmişdik. 44 günlük savaş zamanı Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Dünya da bu torpaqların Azərbaycanın olduğunu qəbul etdiyi üçün heç bir əks fikir söyləmədi. İndi biz Dağlıq Qarabağ həqiqətlərini işğaldan azad olunmuş torpaqlarımızda törədilmiş vandalizm aktları ilə dünyaya çatdırmalıyıq".

N. Cəfərov deyir ki, beynəlxalq təşkilatların bu mənada Qarabağa missiya göndərməsi vacib amildir. Deputat onu da bildirir ki, dünya ermənilərin Azərbaycanın tarixi-mədəni abidələrinə tutduğu divanı görməli, rəsmiləşdirməli və dəymiş ziyanı müəyyənləşdirməlidir: "Biz bu işi özümüz də edə bilərik. Amma UNESCO mədəni irsin qorunması ilə məşğul olan beynəlxalq təşkilatdır. Onların missiyası bizim tarixi abidələrimizin işğaldan sonrakı vəziyyətini görməlidir. Əvvəlki ilə müqayisə edib erməni vəhşiliyinin dünya uçun təhlükə olduğunu anlamalıdır. Bu onların imzası altında dünyaya çatdırılmalıdır".

Deputat deyir ki, işğalçı dövlətin bu müddətdə Azərbaycan torpaqlarına tutduğu divan Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması üçün ən böyük sübutdur: "Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşada olarkən çox önəmli mesaj verdi. Dünyaya səslənərək dedi ki, azərbaycanlılar bu torpaqlardan məcburi köçkün düşərkən heç nəyi yandırmadı, heç nəyi dağıtmadı. Çünki, onlar bu torpağa bir gün geri dönmək ümidi ilə burdan çıxmışdılar. Ermənilər isə evlərinə qədər yandırıb çıxdılar. Dünya bundan anlamalıdır ki, bu torpaqların əsil sahibi kimdir. Bu çox önəmli mesaj idi. Dünyanın teleskopundan biz bu gün Dağlıq Qarabağ həqiqətlərini dünyaya çatdırmağa davam etməliyik. Bizim tarixi -mədəni abidələrimizin vəziyyətini beynəlxalq təşkilatların missiyası gəlib görməli, qiymətləndirməlidir. Biz bu vandalizmi beynəlxalq aləmə onların səsindən çatdırmalıyıq. Bu çox önəmli məsələdir. Ona görə də mən Qarabağa beynəlxalq təşkilatların nümayəndələrinin gəlməsini alqışlayıram. Onlar bu vəhşiliyi öz gözləri ilə görməlidirlər ki, sabah biz bunu deyəndə təsdiqləsinlər. Bizə qarşı çıxmasınlar" deyə N. Cəfərov bildirir.

Qeyd edək ki, indiyədək aparılmış monitorinqlər zamanı dövlət qeydiyyatında olan 313 tarix-mədəniyyət abidəsinin monitorinqi həyata keçirilib. Həmçinin həmin ərazilərdə yerləşən dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji əlamət daşıyan 113 obyekt (yeni aşkar olunmuş abidə) aşkar edilib. Baxış keçirilən tarix-mədəniyyət abidələrinin və tarixi, memarlıq, arxeoloji əlamət daşıyan obyektlərin əksəriyyətini işğalçılar tamamilə məhv ediblər. Həmin abidələrin dağıdıldığı, vandalizmə məruz qaldığı aşkarlanıb. Həmçinin 846 mədəniyyət müəssisəsi monitorinq edilib ki, onlardan 451-i kitabxana, 342-si mədəniyyət evi və klub müəssisəsi, 20-si muzey, 25-i uşaq musiqi məktəbi, 1-i kinoteatr, 2-si teatr, 2-si qalereya, 3-ü kinoklubdur. Bu müəssisələrdən 14-ü ilkin monitorinq nəticəsində aşkar edilsə də, nazirliyin şəbəkəsində yoxdur. Müəssisələrin hamısı demək olar ki, tamamilə dağıdılmış vəziyyətdədir.

Monitorinqlər Şuşa, Cəbrayıl, Füzuli, Zəngilan, Xocavənd, Qubadlı, Ağdam və Kəlbəcər rayonları üzrə aparılıb. Baxış keçirilmiş tarix-mədəniyyət abidələrinin və tarixi, memarlıq, arxeoloji əlamət daşıyan obyektlərin əksəriyyətinə mənfur işğalçılar müdaxilələr etdiyi üzə çıxır. Onlar vandalizmə məruz qalıb, bir çoxları tamamilə dağıdılıb, yalnız qalıqları qalıb. Monitorinq davam edir və bu proses yekunlaşandan sonra erməni işğalı dövründə mədəniyyətimizə vurulmuş ziyanın tam mənzərəsi həm ölkə ictimaiyyətinin, həm də beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılacaq.

***Mələk Eyvazlı***

**Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Abşeronda 33 yaşlı kişi bıçaqlandı

***Abşeron rayonunda bıçaqlanma hadisəsi baş verib.***

Hadisə Müşfiqabad qəsəbəsində qeydə alınıb. 1988-ci il təvəllüdlü Həşimov İrza Vaqif oğlu mübahisə zəminində bıçaqlanıb. Yaralı təcili tibbi yardımın köməkliyi ilə xəstəxanaya çatdırılıb. Müayinə zamanı ona döş qəfəsinin kəsilmiş-deşilmiş bıçaq yarası diaqnozu qoyulub.

Hadisənin təfərrüatı araşdırılır.

# Qohumlarını öldürüb qaçan şəxs axtarılır



***Lənkəran rayon prokurorluğu baş verən qətllə bağlı məlumat yayıb.***

İyunun 23-ü saat 22 radələrində Lənkəran rayonu Havzava kənd sakinləri Elmar Fərəcov və Amil Mirzəzadənin ölmələri barədə rayon prokurorluğuna məlumat daxil olub.

Aparılmış ilkin araşdırmalarla zərərçəkmişlərin qohumu Seymur Şiriyevin şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı Elmar Fərəcov və Amil Mirzəzadəyə odlu silahdan atəş açmaqla onları qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Lənkəran rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda cinayəti törətmiş şəxsin müəyyən edilərək tutulub istintaqa cəlb edilməsi istiqamətində intensiv və zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Sabirabad sakinləri marixuanaya görə saxlanıldı



***Sabirabad Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri "Xaş-xaş-2021" şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər nəticəsində kultivasiya yolu ilə yetişdirilmiş narkotik tərkibli bitkilər aşkar edilib.***

DİN-in Mətbuat Xidmətinin Şirvan regional qrupundan Unikal.org-a bildirilib ki, daxil olmuş məlumat əsasında polis əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olmaqda şübhəli bilinən, rayonun Şəhriyar kənd sakinləri Binyamin Hüseynov və Cəfər Cəfərov saxlanılıb. B.Hüseynovun kənd ərazisində yerləşən evinin həyətyanı sahəsinə baxış keçirilən zaman 66 ədəd aqrotexniki qaydada yetişdirilmiş çətənə bitkisi və 8 kiloqram qurudulmuş marixuana, C.Cəfərovun evinə baxış keçirilən zaman isə 9 ədəd çətənə bitkisi və 2 kiloqramdan artıq qurudulmuş marixuana da aşkar edilərək götürülüb. Hər iki faktla bağlı Sabirabad RPŞ-də araşdırmalar davam etdirilir.

# Sumqayıtda qonşusunuqətlə yetirən şəxs saxlanıldlı

***İyunun 23-ü saat 23 radələrində 1972-ci il təvəllüdlü Sevil Abdullayevanın H.Z.Tağıyev qəsəbəsi ərazisində ölməsi barədə şəhər prokurorluğuna məlumat daxil olub.***

Bu barədə Unikal.org-a Sumqayıt Şəhər Prokurorluğundan məlumat verilib.

Aparılmış ilkin araşdırmalarla zərərçəkmişin qonşusu 1993-cü il təvəllüdlü Ağabəy Atabalayev tərəfindən şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı Sevil Abdullayevaya çoxsaylı bıçaq xəsarətləri yetirərək qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Sumqayıt Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. A.Atabalayev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda cinayət işi üzrə istintaq davam etdirilir.

# Arvadını maşınla bazara gətirən qonşu kişiyə hücum etdi... - Şok olay

***Yevlax rayonunda 1972-ci il təvəllüdlü Zamiq arvadı ilə münasibətdə olan həmyerlisi Eldara (adlar şərti verilib - red.) xəsarət yetirib.***

Teleqraf.com-un xəbərinə görə, Zamiq 24 yanvar 2021-ci ildə saat 10.35-də Yevlax şəhərindəki mərkəzi bazarda arvadı Səbinənin qonşu Eldarın avtomobilində həmin bazara gəldiyini görüb. O, Eldarın arvadı ilə cinsi əlaqədə olduğunu düşünüb və qısqanclıq zəminində qisas almaq məqsədi ilə deşici-kəsici alətlə Eldara xəsarətlər yetirib.

İstintaq orqanı tərəfindən Zamiqin barəsində Cinayət Məcəlləsinin 127.1-ci (zərərçəkmiş şəxsin həyatı üçün təhlükəli olmayan və bu Məcəllənin 126-cı maddəsində nəzərdə tutulan nəticələrə səbəb olmayan, lakin sağlamlığın uzun müddət pozulmasına səbəb olmuş və ya ümumi əmək qabiliyyətinin üçdə bir hissəsindən az olmaqla əhəmiyyətli dərəcədə itirilməsi ilə nəticələnən qəsdən sağlamlığa az ağır zərər vurma) maddəsi ilə ittiham elan edilib.

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Zamiq ittiham üzrə özünü təqsirli bilib.

O, ifadəsində göstərib ki, 2020-ci ilin oktyabrında Yevlax şəhəri mərkəzi bazarın qarşı tərəfindən keçən yolda olan zaman arvadı Səbinənin Eldarın idarə etdiyi avtomobildən düşdüyünü görüb: "Səbinənin Eldarın avtomobili ilə gəlməsi məni əsəbləşdirdi. Səbinə və Eldarla mübahisə etdim. Sonra Yevlax rayon polis şöbəsinə gedərək Eldarın barəsində şikayət ərizəsi yazdım. Həmin vaxtdan sonra Eldar avtomobilini küçədə dayandırıb, mənə acıq verməyə başladı. Aramızda bir neçə dəfə münaqişə baş verdi və Yevlax rayon polis şöbəsində araşdırma aparıldı".



Zamiq qeyd edib ki, 2021-ci ilin yanvarında Eldara bədən xəsarəti yetirməklə qisas almaq qərarına gəlib: "Yanvarın 24-də səhər saatlarında meyvə-tərəvəz almaq üçün Yevlax şəhəri mərkəzi bazara getdim. Eldarı qayınatası Lətiflə bazarda gördüm. Eldar da məni bazarda gördü, lakin heç nə demədi. Üzərimdəki meyvə bıçağı ilə Eldara bədən xəsarəti yetirmək, bununla da ondan qisasını almaq qərarına gəldim.

Bir neçə dəqiqə sonra arxa tərəfdən Eldara yaxınlaşdım. Həmin vaxt yaxın ətrafda başqa şəxs yox idi. Lətif isə Eldardan qabaq tərəfdəydi. Meyvə bıçağını çıxararaq Eldarın sol ayağının bud nahiyəsinin arxa tərəfindən vurdum. Geriyə dönərək oradan qaçdım, bazarı tərk etdim. Eldara xəsarət yetirdiyim meyvə bıçağını xatırlamadığım zibilxanaya atdım. Bundan sonra yaşadığım evə getdim".

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində ifadə verən Eldar bildirib ki, oktyabrın 16-da səhər saatlarında Yevlax şəhər bazarına getmək üçün idarə etdiyi "Ford Transit" markalı avtomobili ilə yaşadığı ünvandan çıxaraq yola düşüb: "Avtomobillə məhəllədən keçərkən Zamiqin arvadı Səbinə yolun kənarında dayanmışdı. O, əllə mənə işarə etdi. Avtomobilimi dayandırdım. Səbinə mənə bazara getmək istədiyini, avtomobili ilə onu da aparmağımı xahiş etdi, etiraz etmədim.

Səbinə avtomobilimin qabaq sağ oturacağında əyləşdi, birbaşa Yevlax şəhəri mərkəzi bazara getdik. Maşını bazarın qarşısında dayandırdım, Səbinə aşağı düşdü. Həmin vaxt Zamiq gələrək Səbinədən nə səbəbə mənim avtomobilimlə gəldiyini soruşdu. Onlar mübahisə etdilər. Səbinə bazara gəlmək üçün başqa avtomobil tapmadığını, qonşu kimi mənim avtomobilimlə gəldiyini dedi. Zamiq barəmdə Yevlax rayon polis şöbəsinə şikayət etdi və araşdırma aparıldı".

Eldarın sözlərinə görə, təxminən bir ay sonra Səbinə Zamiqin hədə-qorxusu ilə Yevlax rayon polis şöbəsinə şikayət edib: "O şikayətdə göstərib ki, guya onu zorlamışam. Bununla bağlı Yevlax rayon polis şöbəsinin təhqiqat bölməsində araşdırma aparıldı. 2020-ci ilin dekabrında Zamiq əlində bıçaqla yaşadığım ünvana hücum etdi, ailə üzvlərimin yanında məni söydü, sonra məni öldürəcəyi ilə hədələdi. Arvadım Daxili İşlər Nazirliyinin 102 xidmətinə zəng edərək hadisə barədə məlumat verdi. Zamiqin barəsində Yevlax rayon polis şöbəsinin təhqiqat bölməsində araşdırma aparıldı. Həmin hadisədən sonra Zamiq bir müddət görünmədi".

Eldar qeyd edib ki, 24 yanvar 2021-ci ildə, saat 09.30-da qayınatası Lətiflə birlikdə Yevlax şəhəri mərkəzi bazara gedib: "Bazarda Zamiqi gördüm. Onun məni izlədiyindən şübhələndim. Sonra gözümdən itdi, onun hara getdiyini bilmədim. Lətiflə birlikdə bəzi əşyalar aldıq. Saat 10.35-də piyada bazarın çıxış qapısı istiqamətində hərəkət etdik. Lətif də yanımda idi. Əlimdəki stəkan qutusu sürüşərək çıxdığı üçün aşağı əyildim. Həmin vaxt arxa tərəfdən ayaqlarımın arasından mənə bıçaq zərbəsi vuruldu.

Arxa tərəfə baxdım və Zamiqin qaçdığını gördüm. Lətif də Zamiqin arxasınca qaçdı. Ayağımın kəsildiyini və qan axdığını hiss etdim. Avtomobillə Yevlax şəhəri Ailə Sağlamlıq Mərkəzinə getdim. Həkimlər məni müayinə etdi, təcili olaraq Mingəçevir şəhər xəstəxanasına getməli olduğumu bildirdilər. Təcili tibbi yardım avtomobili məni Mingəçevir şəhər xəstəxanasına apardı. Həmin xəstəxanada həkim məni müayinə edərək yarama tikiş qoydu".

Eldarın sözlərinə görə, bundan sonra evə buraxılıb və ev şəraitində müalicə olunub. O, Zamiqlə barışdığını, ona vurulmuş ziyanın ödənildiyini və ona qarşı heç bir şikayəti olmadığını bildirib.

Bu cinayət işinə Yevlax rayon Məhkəməsində hakim Günay Cavadovanın sədrliyi ilə baxılıb. Zamiqin zərərçəkmiş Eldarla barışmasını əsas gətirən hakim onun barəsində olan cinayət təqibinə xitam verib. Zamiq cinayət məsuliyyətindən azad olunub.

# Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri Birgə Hökumətlərarası Komissiyasının növbəti iclası keçiriləcək



***Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iqtisadiyyat naziri Abdulla Bin Touq Al Marrinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla anaraq abidəsi önünə əklil qoyub. Nümayəndə heyəti, həmçinin ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanların xatirəsini ehtiramla yad edib.***

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, həmin gün nazir Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirlikləri nümayəndə heyəti arasında görüş keçirilib. Vurğulanıb ki, qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslanan Azərbaycan-BƏƏ əlaqələri yüksək səviyyədədir.

Birləşmiş Ərəb Əmirlikləri ilə iqtisadi sahədə uğurlu əməkdaşlıq həyata keçirildiyini qeyd edən Azərbaycanın iqtisadiyyat naziri qarşılıqlı ticarətin əməkdaşlığın əsas istiqamətlərindən olduğunu, 2021-ci ilin yanvar-may aylarında ticarət dövriyyəsinin 41 faiz, ixracın isə 40 faiz artığını diqqətə çatdırıb. Qeyd edilib ki, ölkələrimiz arasında ticarət və investisiya sahəsində əməkdaşlığın inkişafı üçün bir sıra mexanizmlər tətbiq olunur, Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərində ticarət nümayəndəsi və Dubayda Azərbaycan Ticarət Evi fəaliyyət göstərir. Ölkəmiz Birləşmiş Ərəb Əmirliklərində təşkil edilən investisiya forumlarının fəal iştirakçılarındandır. Görüşdə Azərbaycan-BƏƏ Birgə Hökumətlərarası Komissiyasının iqtisadi tərəfdaşlığın inkişafında səmərəli rolu qeyd edilib və qısa müddətdə Komissiyanın növbəti iclasının keçirilməsi barədə razılığa gəlinib.

M.Cabbarov rəqəmsal iqtisadiyyat, nəqliyyat-tranzit, alternativ enerji, kiçik və orta biznes, aqrar, turizm və sair sahələr üzrə əməkdaşlıq imkanlarını diqqətə çatdırıb, Birləşmiş Ərəb Əmirliklərinin iş adamlarını Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühitindən yararlanmağa, sənaye zonalarına investisiya yatırmağa dəvət edib. Bildirilib ki, hər iki ölkənin Dördüncü Sənaye İnqilabı Mərkəzləri şəbəkəsinə qoşulması bu sahədə əməkdaşlıq üçün yeni perspektivlər açır.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Birləşmiş Ərəb Əmirliklərinin iqtisadiyyat naziri Abdulla Bin Touq Al Marri ölkəmizlə bir sıra sahələrdə uğurlu tərəfdaşlığı vurğulayıb, iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi potensialı barədə fikirlərini bölüşüb.

Görüşdə tərəflər iqtisadi əlaqələrin inkişafı istiqamətlərini müzakirə ediblər.

# Pambıq sahələrində zərərvericilərə qarşı mübarizə tətbiqinə başlanılıb



***Düzgün planlaşdırılmış müşahidə və mübarizə sistemi pambığı təhlükəli zərərvericilərdən qorumağa imkan verir. Bu baxımdan bioloji mübarizə üsulu mühüm əhəmiyyət kəsb edir. Bioloji mübarizə zamanı pambıq sovkasının təbii düşməni olan trixoqrammadan istifadə edilir.***

Unikal.org xəbər verir ki, bununla əlaqədar Aqrar Xidmətlər Agentliyinin (AXA) Laboratoriya Ekspertiza və Sertifikatlaşdırma Mərkəzinin Mərkəzi Laboratoriyası tərəfindən pambıq sovkasına qarşı bioloji mübarizə aparmaq məqsədilə zərərvericiləri müşahidə etmək üçün feromon tələlərin tətbiqinə başlanılıb. Qeyd edək ki, feromon tələlər fermerlərə və sahibkarlara təsərrüfatlarda zərərvericilərin mövcudluğu və mübarizənin dəqiq vaxtının müəyyənləşdirilməsinə imkan verir. Hazırda Beyləqan rayonunda "Azərpambıq" MMC-yə məxsus olan 400 ha, "Qarabağ Taxıl və Toxum "MMC-yə məxsus olan 800 ha pambıq, qarğıdalı, soya sahələrində zərərvericiləri müşahidə etmək üçün feromon tələlərin qoyulması həyata keçirilib. Feromon tələlərin tətbiqindən sonra zərərvericilərlə sirayətlənmə dərəcəsindən asılı olaraq bioloji mübarizə tədbirləri həyata keçiriləcək.

Qeyd edək ki, bioloji mübarizə üsullarından olan trixoqramma tüfeylisi Aqrar Xidmətlər Agentliyinin Laboratoriya, Ekspertiza və Sertifikatlaşdırma Mərkəzinin Bioloji agentlərin istehsalı şöbəsində çoxaldılır və tarlalara buraxılır. Trixoqramma olduqca kiçik, pərdəqanadlı həşərat olub 0,5-0,8 mm uzunluğundadır. Həşərat öz yumurtasını müxtəlif kəpənəklərin (pambıq sovkası, kələm kəpənəyi, payızlıq əkin sovkası, gövdə kəpənəyi və.s ) yumurtasının daxilinə qoyur. Həşəratın hər bir dişi fərdi 40-a qədər yumurta qoyur və yumurtadan çıxan sürfə zərərvericinin yumurtasının daxilini yeyərək məhv edir. Yumurta içərisində trixoqrammanın inkişafı 8-11 gün ərzində başa çatır. Zərərverici orqanizmlərin hər nəslinə qarşı 3-4 dəfə və hər hektara 60-70 min fərd olmaqla trixoqrammanın tətbiqi nəzərdə tutulur.

Trixoqramma vasitəsi ilə həyata keçirilən bu bioloji mübarizə üsulunun qarğıdalı, bostan bitkiləri və meyvəçilikdə də istifadə olunması məqsədəuyğundur. Bioloji agentlərdən istifadə kimyəvi preparatların tətbiqinin məhdudlaşdırılmasına, məhsulun maya dəyərinin aşağı düşməsinə səbəb olur ki, nəticədə keyfiyyətli və təhlükəsiz məhsul əldə olunur.

# Pandemiyadan zərər çəkən sahibkarlara maliyyə dəstəyi davam etdirilir

***Pandemiyadan zərərçəkmiş fəaliyyət sahələrinə investisiya qoyuluşlarının sürətləndirilməsi və bu fəaliyyət sahələri üzrə məşğulluğun qorunub saxlanması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu sahibkarlara yeni verilən bank kreditləri üzrə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılmasını, eləcə də mövcud kredit borcu olan sahibkarların kredit faizlərinin bir hissəsinin dövlət tərəfindən subsidiyalaşdırılmasını davam etdirir.***

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, mayın 31-dək dövlət zəmanətli kredit və faizlərin subsidiyalaşdırılması mexanizmi çərçivəsində 1026 müraciət üzrə 258,3 milyon manat kreditə 149,7 milyon manat məbləğində dövlət zəmanəti verilib. Mövcud kredit portfelinin subsidiyalaşdırılması mexanizmi üzrə isə kredit qalığı 819,2 milyon manat olan 4497 müraciətə 57 milyon manat faiz subsidiyasının verilməsi barədə müsbət qərar qəbul edilib və artıq 49,3 milyon manat subsidiya ödənişi həyata keçirilib.

Qeyd edək ki, sahibkarların dövlət zəmanətli kredit və faizlərin subsidiyalaşdırılması mexanizmi üzrə müraciətləri Elektron Kredit Platforması üzərindən qəbul olunur. Sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının daha da asanlaşdırılması məqsədilə fond tərəfindən xidmətlərin tam elektronlaşdırılması istiqamətində tədbirlər görülür.

# "Azərişıq" yenidən qurma işlərini davam etdirir

***"Azərişıq" ASC elektrik enerjisi tələbatçılarının dayanıqlı, keyfiyyətli və fasiləsiz enerji ilə təmin edilməsi, mövcud şəbəkələrin yenidən qurulması və itkilərin qarşısının alınması istiqamətində işləri davam etdirir.***

Unikal.org xəbər verir ki, "Şimal" Regional Elektrik Təchizatı və Satışı İdarəsi ərazisində son illər ərzində 28 ədəd 35 kV-luq yarımstansiya tikilmiş, 7 ədəd 35/0,4 kV -luq KTM quraşdırılmış və 3 ədəd 35 kV-luq mövcud köhnəlmiş yarımstansiya yenidən qurulmuşdur. Yeni tikilmiş və yenidənqurma işləri aparılmış bütün yarımstansiyalarda müasir avadanlıqlar quraşdırılmışdır.

124 km-dən artıq 35 kV-luq yeni hava elektrik veriliş xətləri çəkilmiş, 445 ədəd müxtəlif güclü KTM quraşdırılmış, 1534 km ÖİN tipli naqil çəkilmiş və abonetlərin ünvanlarına 140 min 744 ədəd elektrik hesabat sayğacları quraşdırılmışdır.

Bu işlərin davamı olaraq hazırda Siyəzən rayonu Dağquşçu kəndində gücü 2,5 MVA olan yarımstansiya tikilir və yarımstansiyanı qidalandırmaq üçün 10,5 km uzunluğunda 35 kV hava elektrik veriliş xəttlərinin çəkilişi işləri aparılır. Xaçmaz şəhəri, 21, 25-ci məhəllələrində və İstisu qəsəbəsində, Qusar şəhəri, M. Vəliyev küçəsində Həmzə və Aladaş kəndlərində, Şabran rayonu, Surra kəndində, Quba rayonunun Amsarqışlaq və Vəl-Vələ kəndlərində 10 və 0,4 kV-luq şəbəkələrində yenidənqurma işləri davam etdirilir.

# Ət idxalı azalıb

***Yanvar-may aylarında ölkəyə 14,7 min ton ət idxal edilib. "Unikal" Dövlət Gömrük Komitəsinə (DGK) istinadla xəbər verir ki, idxal edilən ətin dəyəri 25,8 milyon ABŞ dolları olub.***

Xatırladaq ki, ötən ilin ilk 5 ayında 40,4 milyon dollarlıq 22,5 min ton ət idxal edilib.

# 46 yerli investisiyalı MMC qeydiyyata alınıb

***Cari ildə yeni qeydiyyat üsulu ilə (fin kod+mobil nömrə) 746 yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyət qeydiyyata alınıb.***

Dövlət Vergi Xidmətinin Media və Kommunikasiya İdarəsindən verilən məlumata görə, bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 313 vahid və ya 72,3 faiz çoxdur.

Sözügedən üsulun ümumi qeydiyyatda xüsusi çəkisi artaraq 16,3 faiz, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin qeydiyyatında isə 17,9 faiz təşkil edib.

# Magistraturaya ixtisas seçiminin vaxtı açıqlandı

***Dövlət İmtahan Mərkəzi Ali təhsil müəssisələrinin magistratura səviyyəsinə proqram və ixtisaslaşma seçimi etmək hüququ olan bakalavrlara müraciət edib.***

DİM-dən Unikal.org-a verilən məlumata görə, 2021/2022-ci tədris ili üçün ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olmaq üçün proqram və ixtisaslaşma seçimi 2021-ci il iyunun 29-dan iyulun 5-dək aparılacaq. Proqram və ixtisaslaşma seçiminə magistraturaya 28 fevral və 26 may 2021-ci il tarixlərində keçirilmiş qəbul imtahanının birinci və ya ikinci cəhdinin (bəzi proqramlar üzrə həmçinin qabiliyyət imtahanının) nəticələrinə əsasən müəyyən edilmiş minimal tələbləri ödəyən və ixtisaslaşma seçimində iştirak etmək hüququ qazanan bakalavrlar buraxılırlar.

Məlumat üçün qeyd edək ki, bu il imtahanların 2 dəfə keçirilməsi ixtisaslaşma seçiminə buraxılanların sayına müsbət təsir edib. 16624 bakalavr minimal tələbləri ödəyərək ixtisaslaşma seçimində iştirak etmək hüququ qazanıb. Ötən il müvafiq göstərici 11615 nəfər olub.

Müsabiqədə iştirak etmək hüququ olan bakalavrlar 2021-ci il iyunun 29-dan iyulun 5-dək ali təhsil müəssisələrinin və AMEA-nın magistra tura larına qəbul aparılan ixtisaslaşmaların müsabiqəsində iştirak etmək üçün internet vasitəsilə proqram və ixtisaslaşma seçimini aparmalıdırlar. Bakalavrlar öz istəklərinə görə ixtisaslaşma seçimində və müsabiqədə imtahanın hər hansı bir cəhdində göstərdikləri nəticə (topladıqları bal) əsasında iştirak edə bilərlər. Bakalavr h?r iki c?hdd? iştirak etdiyi halda müsabiq?d? öz ist?yin? ?sas?n birinci v? ya ikinci imtahandan topladığı balla iştirak edir. Hər iki imtahan nəticəsi müsabiqə şərtini ödəyən bakalavrlar müsabiqədə iştirak etmək istədikləri imtahan nəticəsini seçirlər.

İxtisaslaşma seçimi aparılan müddətdə bakalavr bitirdiyi ixtisasa müvafiq və istəyinə uyğun olan proqram(lar)ı və həmin proqram(lar)a aid olan 20-dək ixtisaslaşmanın kodunu seçərək "Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi"nə istədiyi ardıcıllıqla daxil edib təsdiqləyir, yəni seçilən bütün ixtisaslaşmalar bakalavrın bitirdiyi ixtisasa görə seçim cədvəlinə əsasən seçmək hüququ olan bir və ya daha çox sayda qəbul proqramına aid ola bilər (qəbul aparılan ixtisaslaşmalar və həmin ixtisaslaşmalara ayrılan yerlərin proq ramlar üzrə siyahısı yaxın günlərdə "Magistr" jurnalının 4-cü sayında dərc olunacaq).

Müsabiqəyə yalnız müəyyən edilmiş vaxt ərzində "Bakalavrın elektron ərizəsi"ndə proqram və ixtisaslaşmaları seçmiş və təsdiq etmiş bakalavrlar buraxılacaqlar.

# Bu gündən I siniflərə məktəb seçimi başlayır

***Bu gündən tədris digər dillərdə aparılan birinci siniflərə qəbulla bağlı müsahibələrdən uğurla keçmiş uşaqlar üçün məktəb seçiminə start veriləcək.***

Unikal.org xəbər verir ki, valideynlər (qanuni nümayəndə) www.mektebeqebul.edu.az portalında "Şəxsi kabinet"lərinə daxil olaraq müsahibələrdən uğurla keçmiş övladları üçün seçdikləri məktəbə sorğu yerləşdirə bilərlər.

Qeyd edək ki, aprelin 27-dən növbəti tədris ili üzrə I sinfə şagird qəbuluna start verilib. Şagirdlərin qəbulu prosesi www.mektebeqebul.edu.az elektron portalı vasitəsilə aparılır.

# Türkiyədə peyvənd yaşı 18-ə düşdü

***18 yaşı tamam olmuş hər bir Türkiyə vətəndaşı peyvənd oluna biləcək.***

Unikal.org xəbər verir ki, bu barədə Türkiyə Səhiyyə Nazirliyi məlumat yayıb.

"Cümə günündən etibarən 18 yaşına çatmış bütün vətəndaşlarımız peyvənd oluna bilər", - deyə məlumatda qeyd olunub.

# İntihar edən baş memar, Parisdən gətirilən qənimət, 100 min manatlıq saray




***"70 il əvvəl babam alıb buranı. Yadıma gəlir ki, biz uşaq olanda bura belə deyildi. Qaranlıq, toz-torpaqlı, divarları hisdən qaralmış...Bura 1918-ci ildə ermənilər tərəfindən yandırılıb. Buna görə də divarları qara hisli qalıb".***

Şamaxıdayıq. Şirvanşah İbrahim küçəsində. Xəqan Eyyublu qarşılayır bizi. 27 yaşı var Xəqanın. Həmsöhbətimiz deyir ki, gözünü bu evdə açıb, bu evdə boya-başa çatıb.

"Bura əvvəllər əsasən anbar kimi istifadə olunurmuş. Hətta babam 3-4 heyvan da saxlayırdı. Biz uşaq olanda düşüb burada oynayırdıq. Əslində, xeyli əvvəl fikrimizdə var idi ki, buranı təmir edək. Gördüyünüz indiki halından əsər-əlamət yox idi. Evin 1890-cı ildə tikildiyi deyilir. Amma bəzi mənbələrdə ondan da əvvəl tikildiyi iddia olunur. Biz buranı alanda bircə bura olub, bir də üstündə iki otaq. İndi gördüyünüz bu evi özümüz tikmişik. Daha sonra təmir işləri aparıldı, sanki yenidən quruldu".

Hə, Xəqanın mərhum atası buranın təmirinə və dizaynına 100 min manata yaxın pul xərcləyir. Doğrudan da indi bura möhtəşəm sarayı xatırladır.

"Atam sahibkar idi. İstəmədi ki, tarix itsin. Tamamilə öz büdcəsi ilə təmir etdirdi buranı. 2016-cı ildə atamın öz təşəbbüsü ilə təmir işlərinə başlanıldı. Düz, 40 gün buranın divarları əllə yonulub, təmizlənib. Ortalığa bu divarlar çıxıb. Yəni üzərində heç bir boya yoxdur. Amma təmir zamanı divarın bir hissəsində hisli yeri nümunə kimi saxlatdırır.

Təmiri təxminən 100 min manat pul xərclənib. Gördüyünüz əşyaların bir qismi nənəmin cehizidir. Sandıq, bu divardakı kələğayı, gümüş sapla bəzədilmiş kəmər və başqa bir neçə əşya.

Digərləri isə alınmadır. Məsələn, bu gördüyünüz qədim sinini atam Fransada olarkən sərgidən alıb.

Sən demə, bunu bir erməni satırmış. Erməni də bunu elə azərbaycanlılardan alıb. Atam da baxıb görüb ki, bu Azərbaycana məxsus bir əşyadır. Özünün də belə şeylərə böyük həvəsi var idi. Elə əlində olan pulu verib bu sinini alıb. Bu sini o vaxt sərgidə birinci yerə çıxıbmış".

Möhtəşəm memarlıq üslubu var bu evin. İçindəki 14 tağ, otaqları bir-birindən ayırır və bişmiş kərpicdən hörülüb. Tağlar o qədər dəqiq işlənilib ki, istənilən nöqtədən baxıldıqda onların səliqəli düzülüşünü görmək mümkündür.

Şəbəkə üsulu ilə hazırlanan pəncərələr isə evə fərqlilik və gözəllik verir. Evin altında dərinliyi 4 metr olan su quyusu da var. Bu quyunu bir neçə dəfə boşaltsalar da, mənbəyi məlum olmayan yerdən gələn su yenidən dolub.

Bu sudan istifadə edir Xəqangilin ailəsi. Evin içərisi xüsusi dekorativ əşyalarla bəzədilib. Xəqan deyir ki, bu gün bu evi görmək üçün çoxlu qonaqlar gəlir.

"Buranı da evimizin bir hissəsi kimi istifadə edirik. Gördüyünüz kimi çox sərindi. Otururuq, çay içirik, dincəlirik. Qonaqlıqlarımızı adətən burada təşkil edirik. Turistlər, qonaqlar çox gəlir bura. Onlara samovar çayı vermədən yola salmırıq".

Hə, bayaqdan haqqında danışdığımız bu ev bilirsinizmi kimindi? Zivər bəy Əhmədbəyovun. Vaxtı ilə yaşadığı qış evi. Həmin evdəyik. Bu evi qoruyan Əhmədbəyovun nə ailəsidir, nə qohumu, nə də uzaqdan-uzağa tanışı. Tamamilə yad biridir ona. Amma tarixi bir evi qorumağı özlərinə necə deyərlər, borc biliblər.

Zivər bəy Əhmədbəyovun Şamaxıda iki evi olub. Onlardan biri hələ də qorunub saxlanılır. Sonralar satılan və Sovet rejimində istismar olunan tikili daha sonra sahibləri tərəfindən yenidən əldə edilib.

Zivər bəy Əhmədbəyovun yeganə övladı olan Firəngiz xanımın oğlu, hüquq elmləri doktoru Oktay Əfəndiyev də bu evdə qonaq olub. O, mətbuata açıqlamasında bildirmişdi ki, ev təmir olmazdan əvvəl də bura tez-tez gəlib.

"Babamın yaşadığı bir evdə olmaq qəribə hisslər bəxş edir insana. Şamaxıda olanda həmişə gedirdim o evə. O insanları da çox istəyirəm. Sonsuz hörmətim var onlara".

Bəs kimdir Zivər bəy Əhmədbəyov? İlk ali təhsilli azərbaycanlı memar! 1873-cü ildə Şamaxı şəhərində doğulub Zivər bəy. Orta təhsilini Şamaxıda alıb. 1902-ci ildə Peterburq İnşaat Mühəndisləri İnstitutunu bitirib. Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra Bakı şəhərinin baş memarı olub. 1922-ci ilə kimi bu vəzifədə çalışıb. Şamaxıda Cümə, İmam, Bakıda Təzə Pir, Göyçayda Əbülfəzl Abbas, Əmircanda Murtuza Muxtarov məscidi və Vladiqafqazda bir sıra yaşayış, məişət binaları o tikib. Əmircanda layihəsini verdiyi məscid Şərq memarlığının ən yaxşı incilərindən biri kimi UNESCO-nun tarixi abidələr siyahısına salınaraq qorunur.

Zivər bəy Əhmədbəyov 1925-ci ildə Bakıda intihar edib. O, Çəmbərəkənd qəbiristanlığında dəfn olunub. O qəbiristanlıq ki, vaxtı ilə burada Zivər bəy Əhmədbəyovun layihəsi əsasında "Səadət" məktəbi tikilmişdi. O qəbiristanlıq ki, indi yoxdur. Elə Zivər bəyin qəbiri də...

# Qarabağa böyük qayıdış...

***Azərbaycan - Ermənistan münaqişəsi hər bir azərbaycanlının qəlbinə dərin kök salmış, nəticəsində milyonlarla insanın taleyinə ciddi təsir göstərib. Ermənistanın Azərbaycana açıq şəkildə etdiyi ərazi iddiaları, iyrənc siyasəti, etnik zəmində olan təxribatları ilə başlamış bu münaqişə Azərbaycana qarşı hərbi cinayətlə nəticələnib.***

Azərbaycanlılar dəfələrlə qəddarlıqla öz tarixi torpaqlarından deportasiya edilib. Nəticədə insanlar torpaqlarından zorla qovulub, yaralanıb, həlak olmuşdur. 30 il ərzində Azərbaycan, qəlbi olan Qarabağsız qaldı. Lakin bu müddət ərzində adı nə yaddaşlardan, nə də qəlblərdən silindi. lərdə...

Döyüşlərin gedişatı ərzində Azərbaycana qarşı beynəxalq təzyiqlər baş verdi. Bir sıra ölkələr Azərbaycanı işğalın nəticələri ilə barışmağa, Azərbaycan xalqının iradəsini sındırmağa və Dağlıq Qarabağda ikinci erməni dövlətinin yaradılmasına dəstək verirdilər. Azərbaycan uzun illər beynəlxalq ictimaiyyəti ədalətli olmağa,beynəlxalq təşkilatların qərar və qətnamələrinin icra olunmasına çağırsa da, 30 ilə yaxın müddətdə ölkəmizin haqq səsi eşidilmədi. Bunun əksinə olaraq həmsədrlər “münaqişənin hərb yolu ilə həll variantı yoxdur”, “münaqişə ancaq sülh yolu ilə həll oluna bilər” kimi bəyanatlar verirdi. Sentyabrın 27-də Ermənistanın təxribatlarına qarşı Azərbaycan əks-hücuma keçdi. Azərbaycanın bu siyasətindən narahat olanlar da var idi. Lakin Azərbaycan xalqı hər zaman qələbəyə tam səmimi qəlbdən inanmışdır.

44 günlük müharibə ərzində bütün xalq qarabağlı olduğunu sübut etdi. O günlər hər kəs cəbrayıllı, şuşalı, füzulili, zəngilanlı, ağdamlı...- bir sözlə, qarabağlı idi. Buna görə də igidlərimiz döyüşməyə, torpaqlarımızı düşmən tapdağından azad etməyə qəlbində qorxu hissi olmadan getdi. Vətən yetişdirdiyi igid oğulları ilə fəxr edir. Vətənə olan sevgisindən, şəhidlik zirvəsinə ucalan oğulları ilə..ölümü gözə alıb geri dönməyən oğulları ilə... Çünki “Torpaq qanla qarışarsa, Vətən olar.”

Hər birimiz bu gözəl baxçalara çatmaq üçün tikanlı yollardan keçdik. Qanında Azərbaycanlı qanı axan hər bir vətəndaş inamla, səbrlə, dözümlə qələbəni gözlədi. Hərkəs əlindən gələninin ən yaxşısını etməyə çalışdı, qəhrəmanlarımıza yardımlar edildi, vətənpərvər musiqilərlə igidlərimizə ruh yüksəkliyi bəxş edildi. Qəlbi, mərhəməti, vətən eşqi dünyadan daha böyükdü millətimin. İndi hər bir Azərbaycanlının nəbzi tarixi zəfərlə döyünür. O zəfər ki, bizi Qarabağa qovuşdurdu! O zəfər ki, şəhidlərimizin qanı yerdə qalmadı! O zəfər ki, dünyanın hər yerində “QARABAĞ AZƏRBAYCANDIR!” deyilir. O zəfər ki, üçrəngli bayrağımızı ən yüksəklərə qaldırdı! Bu qürur izah olunmaz bir hisdir! Bu hissi isə sadəcə yaşayanlar bilər!

Bu gün işğaldan azad olunan torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Qarabağdan çıxarkən necə əziyyətlə, vəhşicəsinə qovulmuşdusa bu millət, indi eyni qürurla, lakin bu səfər başıdik və alnıaçıq qayıdacayıq torpaqlarımıza.Əzəli torpaqlarımız bizim qayıdışımızı gözləyir. O qayıdış ki, neçə-neçə şəhidlərin qanı-canı bahasına başa gəldi. Atasız qalan günahsız balaların, 30 il vətən həsrəti ilə yaşayan hər bir azərbaycanlının qayıdışıdır bu əslində. Yuxusuz qalıb,səhərə kimi yatmayıb,cəbhədəki atasından,qardaşından xəbər gözləyən ana-bacıların qayıdışıdır bu. 30 il öncə Birinci Qarabağ müharibəsində itirdiyimiz hər bir zərrənin qayıdışıdır bu qayıdış...



Unudulmadı Qarabağ, çünki vətənin bir parçası idi, vətən idi Qarabağ. Hər zaman hər bir qarabağlı o günlərə qayıtdı. Yurdundan, yerindən didərgin düşmüş anaların fəryadı, uşaqların qorxusu, nənəbabalarımızın göz yaşları qəlbimizə dağ çəkdi.

Ermənilərin bu günə kimi etdiyi çirkin əməllərə susulduğu kimi, 2-ci Qarabağ Müharibəsi zamanı baş verən haqsızlıqlara, vəhşiliyədə dünya susdu. 2-ci Qarabağ müharibəsinin gedişatında Gəncə, Bərdə, Tərtər faciələri Ermənilərin etdiyi daha bir terror idi, susuldu və görməzdən gəlindi. Bu terror nəticəsində neçə insan həlak oldu, neçə ailənin həyat çırağı söndü. Onca insan bu terrorun qurbanı oldu. Hansı ki, bu müharibə döyüş meydanında aparılmalı idi, insanların həyat yolunda deyil. Orada dağılan isə sadəcə binalar deyildi, eyni zamanda neçə-neçə xəyallar, sabah uğrunda qurulan arzular məhv oldu o binaların,evlərin içində,mərmilər atılan küçə-

Burdan balasını qurban verən analara, qürurlu atalara, yoldaşını itirmiş qadınlara, o şəhid balalarına və ölməz şəhidlərə səslənirəm haqqınızı halal edin. Bu millət sizi heç zaman unutmayacaq! Bu xalq sizin etdiyiniz qəhrəmanlıqları unutmayacaq! Unutmayacaq! Bu gün mən bir Azərbaycan vətəndaşı olaraq bizi qorumaq uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət, ailələrinə səbr diləyirəm..

Bu gün hər bir azərbaycanlı fəxr edir ki, belə bir dövlətdə yaşayır, belə bir milləti var, uzaqgörən, dediyindən dönməyən Ali Baş Komandanımız, dövlət başçımız var. O bütün dünyaya Azərbaycan ordusunun gücünü göstərdi və dünya buna şahid oldu. Dünya onun güclü siyasəti qarşısında susdu. Bu gün bizi müdafiə edən dövlətlər çoxdur. bu da Ulu Öndər Heydər Əliyevin siyasi davamçısı olan möhtərəm İlham Əliyevin müdrikliyi, uzaqgörən siyasəti, əzmkarlığı nəticəsidir.

Rəşadətli Azərbaycan ordusuna isə minnətdarlığımı bildirirəm. Bizə birliyi, mübarizəni siz öyrətdiz.. Siz bizə azərbaycanlı olmağın fəxrini yaşatdız. Haqqınızı ödəyə bilmərik!

***Lalə Əhmədova, BDU Jurnalistika fakültəsinin tələbəsi***



# Tarix yazan, şücaəti ilə seçilən qəhrəman şəhid...

***Emil Vaqif oğlu Qurbanov Vətənini canından əziz tutmaqla, İkinci Qarabağ müharibəsində tarix yazan igidlərdən oldu. İndi 1980-ci ildə doğulub boya-başa çatdığı Lənkəran elində adı çəkiləndə hamı qürur hissi keçirir. Emil şəhidlik zirvəsinə ucalanda ömrünün 40-cı ilini yaşayırdı. O, həyatını Vətəninə həsr edib bu işıqlı dünyadan getdi. Odur ki, Azərbaycan nə qədər var, Emil də ürəklərdə yaşayacaq.***

Emil həyatı dərk edəndən Vətəninə, xalqına bağlanıb. Bacardıqca yaxşı işlər görməyi özünə ali məqsəd seçir. Orta təhsilini başa vurub Lənkəran Dövlət Universitetinin Fiziki tərbiyə və gənclərin çağırışaqədərki ixtisasına daxil olur. Emil tələbə biletini alan gündən bütün eşqini, məhəbbətini oxumağa, öyrənməyə bağlayır. Bütün bu dəyərlərə görə Emil ali məktəbdə seçilir, çoxunun sevimlisi olur. Universiteti bitirəndə isə xalqına, millətinə fayda vermək əzmi mənəvi dünyasına daxil olmaqla, ona işıqlı sabahların yolunu göstərir.

Emil 2002-ci ildə ordu sıralarına gedir. Vətənini göz bəbəyi kimi qoruyur, xidmət etdiyi hərbi hissədə son dərəcə mərd, cəsur, ağıllı, vətənpərvər bir gənc kimi tanınır. Baş leytenant rütbəsində ona həvalə olunan taqım komandiri vəzifəsini layiqincə yerinə yetirir. Tabeliyində olan əsgərlərə tələbkarlıqla yanaşmaqla bərabər, onlara böyük qardaş qayğısı göstərir.

Həqiqi hərbi xidmətdən sonra Emil Qurbanov Lənkəran şəhərində Zirvə İdman Kompleksində baş məşqçi işləyir. Onun bütün arzularının zirvəsində Vətənin, xalqın xoşbəxtliyi durur. Elə bu nəcib məqsəd naminə yaxşı idmançılar yetişdirməyə çalışır. Özü isə Pauerliftinq idman növü üzrə keçirilən bir çox yarışların qalibi olur. 2012-ci ildən Lənkəran şəhər 7 saylı tam orta məktəbdə hərbi müəllimi və təlim-tərbiyə üzrə direktor müavini işləyir.

Erməni qəsbkarları ötən ilin sentyabrın 27-də Azərbaycan torpaqlarına növbəti təcavüzündə Emil könüllü Vətən uğrunda döyüşən oğulların sırasına qoşulur və düşməndən intiqamımızı alana qədər vuruşacağına söz verir. Müharibə meydanında qəhrəman komandir Emil igidlik nümayiş etdirir. Ordumuzun gücü qarşısında tab gətirə bilməyən düşmən silah-sursatını atıb qaçır. Emil də digər qəhrəmanlarımız kimi Qarabağın işğal altında olan strateji yüksəkliklərinin, yaşayış məntəqələrinin alınmasında, sözün əsl mənasında, qəhrəmanlığı ilə seçilir. Yaxşı döyüşməklə bərabər, həm də dəfələrlə yaralı əsgərləri ağır döyüş meydanından çıxardır. O, Cəbrayılın, Qubadlının azad olunmasında daha çox fədakarlıq göstərir. Özü şəhid olsa da, hünəri, şücaəti komandirlə çiyin-çiyinə döyüşən silahdaşlarını qələbəyə doğru aparır...

Şəhid zabitin həyat yoldaşı Vüsalə xanım deyir:

- Emil ailəsinə bağlı olmaqla, Vətənini, xalqını da çox sevirdi. İdmanda qazandığı uğurlara görə ona bütün Lənkəran camaatı hörmətlə yanaşırdı. Emil isə əlinə silah alıb döyüş meydanında olmaq, düşməni əzmək arzusu ilə yaşayırdı... Arzusunu yerinə yetirdi. Əvvəllər onu mənim qədər sevən yox idi. İndi bütün Azərbaycan öz igid oğlu ilə fəxr edir. Onsuz çətindir mənə... Emilin layiq görüldüyü ”Vətən uğrunda”, ”Cəbrayılın azad olunmasına görə”, ”Qubadlının azad olunmasına görə” medallarına baxanda həmişə onun nurlu siması gözlərimdə canlanır.

***Zəfər Orucoğlu, AJB üzvü***

**ELAN**

**FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Quluzadə Seyfəddin Hacıbaba oğluna verilmiş AA 01312 nömrəli gəmi bileti itdiyi üçün etibarsız sayılır.**

# Zaqatalanın ölməz qəhrəmanı, şəhid - Əhməd Laçınov!

## ...və yaxud yuxusu gerçəkləşən - cəsur Xüsusi Təyinatlı cəfakeş...

***İkinci Vətən Müharibəsi bizə yurdumuzun mərd oğullarını yenidən tanıtdı. Bu savaş bir daha göstərdi ki, Azərbaycanın iradəli qadınları daima mərd, qəhrəman oğullar dünyaya gətirir. Bu oğullar Vətənin ən ağır günlərində dayaq olaraq, sipər qalaraq elə şücaətlər göstərirlər ki, nəinki bizləri, bütün dünya xalqlarını heyrətə gətirdilər. Cəngavər, igid oğullarımız 44 günlük müharibədə bunu sübut etdilər. Fəxr yerimiz oldular, qürur mənbəyimizə çevrildilər.***

Azərbaycanda yaşayan dinindən, dilindən, millətindən asılı olmayaraq can deyib, onun uğrunda ölümün gözünə dik baxaraq döyüşlərə qatıldılar. Öz hünərləri ilə şanlı tarix yazdılar və şəhid oldular, Vətən üçün, Ana üçün, Bacı üçün, qardaş üçün... Bütün-bütün xalqlar üçün... Vətən müharibəsindəki qələbəmiz bu oğulların çiyinlərində xalqımıza əvəzsiz töhfə oldu... Haqqında söhbət açmaq istədiyim əfsanəvi döyüşçülərdən biri də Əhməd Qurban oğlu Laçınovdur. Şəhidlik zirvəsinə ucalan bu Vətən fədaisi Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndində 28 iyul 1999 -cu il tarixində dünyaya gəlib. Uşaqlığını qədim tarixə malik neçə-neçə üsyanların, döyüşlərin, tarixi prosseslərin şahidi olmuş, görkəmli sərkərdələrin, dəstə başçılarının təslim olduğu, hətta torpaq iddiası ilə yürüş edən Gürcü Çariçası Tamaranın məğlub olduğu bu dağlar diyarında keçib. Əhməd idmanı çox sevib, hələ Yuxarı Çardaxlar kəndindəki Birinci Qarabağ Müharibəsində həlak olmuş Ramaza Muradov adına tam orta məktəbində təhsil aldığı dövrdən döyüşkən ruhlu olub, hərbi hazırlıq dərslərində həmişə fərqlənib. Rayonda keçirilən hərbi idman yarışlarında dəfələrlə qalib yerləri tutub...

Əhməd Laçınov ailəsinin son beşiyi, 3 bacının 1 qardaşı olub. Onun valideynləri Qurban kişini və Züleyxa ananı Yuxarı Çardaxlar kəndində çox zəhmətsevər, mülayim təbiətli, çox tərbiyəli insanlar kimi tanıyırlar. Onlar övladlarını da əməksevər, tərbiyəli, ağıllı, savadlı böyüdüblər. Ailə başçısı Qurban Laçınov uşaqlarını böyüdüb, ərsəyə çatdırmaq, təhsilli etmək üçün həyat yoldaşı Züleyxa xanımla birlikdə çox əziyyət, gərgin zəhmət çəkiblər. Buna görə də şəhidin atası uzun müddət Rusiya Federasiyasının müxtəlif şəhərlərində və Mahaçqala şəhərində müxtəlif sahələrdə çalışıb. 3 qızını və 1 oğlunu öz arzularını uyğun oxutdurub və eyni zamanda da Vətəninə, əməyə bağlılıq və sevgi aşılayıblar...

...Şəhid Əhməd Laçınovun ailəsində olarkən bir daha bu ailənin bir nümunəvi, ibrətamiz, sakit, mülayim xasiyyətli, hələ də İkinci Vətən Müharibəsində itirdikləri, qurban verdikləri, qaytara bilməyəcəkləri, dəyərli bir el oğlunun sevgisi, yanğısı, acısı, itkisi, ağrısı ilə yaşadıqlarının şahidi oldum.

Şəhid atası Qurban kişi hələ də susur, anası Züleyxa xanım gözlərinin yaşını saxlaya bilmir, qardaş itkisindən özlərinə gələ bilməyən bir-birindən zərif, yüksək dəyərlərə malik, ağıllı-kamallı bacıları sanki baş verənlərə inanmırdılar. Yeganə qardaşına qarşı olan sevgidən doymayan şəhidin əzizləri kövrələ-kövrələ, sakitcə Əhməd haqqında xatirələrini və bacıları üçün necə qardaş olduqlarından danışırdılar. Mənimlə daha çox söhbət edən isə şəhidin 1995 -ci il təvəllüdlü Əhməddən 4 il böyük bacısı Mesed xanım oldu. Onların söhbətlərindən məlum oldu ki, Əhməd Qurban oğlu Laçınov 2015 -ci ildə Yuxarı Çardaxlar kəndindəki şəhid Ramazan Muradov adına tam orta məktəbinin 9 -cu sinfini bitirdikdən sonra Zaqatala İdarəetmə və Texnologiya Kollecinə daxil olub. Elə həmin ilin iyul ayının 8 -də Zaqatalanın vətənpərvər, mərd oğlu, böyük həvəslə, dəyanətlə, kişi qeyrəti ilə Milli Ordu sıralarına həqiqi hərbi xidmətə getdi...

Qeyd etmişdim ki, ruhu Vətənin göylərində bərq vuran Azərbaycanımızın xilaskarı olan Əhməd Laçınov ailədə sonuncu övlad olub. Bu ailənin ilk övladı şəhidin bacısı 1991 -ci il təvəllüdlü, ixtisasca mühasib olan Aytən xanım artıq ailə həyatı qurub və qız övladı da var. Sakitcə söhbətimizi müşahidə edərək-hələ də qardaş itkisinin şokunda yaşayan di bəracısı Çinarə də ailə həyatını qurub. Bir oğlan anası olan Çinarə ibtidai sinif müəllimisi olsa da işləmir. Laçınovlar ailəsinin 3 -cü övladı, şəhid qardaşını, daima ciyər parasını saymış Mesed xanım isə qardaşı kimi Zaqatala İdarəetmə və Texnologiya Kollecini elə qiymətlərlə bitirib.



**Bacısı Mesedin dediklərindən:**

-Bizim əvəzolunmaz, şirin, canlara dəyən qardaşımız, məktəb illərindən hərbiyə meyilli idi. İdmanla çox məşğul olurdu, tez-tez dağlara qaçaraq yürüş edər, qaçardı. Qardaşım çox zəhmətkeş, ailəcanlı, qayğıkeş və səmimi bir gənc idi. Həm yaşıdları, qohum-əqrəması arasında böyük hörməti var idi... Böyüklərlə böyük, kiçiklərlə kiçik kimi münasibət bəsləyirdi. Valideynlərimizin və bizim sağ əlimizdi. Hərbiyə marağı çox idi... Gecə-gündüz Azərbaycanla - Ermənistan arasında olan gərgin münasibətlərdən, işğal altında olan Qarabağ torpaqlarından çox narahatlıq keçirərdi... Mənfur düşmənə nifrəti çox idi, onların törətdikləri vəhşiliklərini əvəzini çıxmaq hissləri ilə yaşayırdı... Niyyəti hərbi xidmətinin müvəffəqiyyətlə başa vurub, nəqliyyat polisində işləmək idi... Lakin bizim də, qardaşımızın şirin arzularımız yarımçıq qalıb...

...İkinci Vətən Müharibəsində cəngavərliyi, cəsurluğu silinməz izlər qoymuş - Əhməd Laçınov 2019-cu iyulun 8-də Milli Ordu Sıralarına həqiqi hərbi xidmətə gedib... Əhməd əvvəlcə Gəncə şəhərindəki N saylı hərbi hissədə xidmət edib. Atasının dediklərinə görə oğlu Əhməd Laçınov and içmə mərasimindən sonra hərbi xidmətini Cəlilabad rayonu Göytəpə şəhid bacısı Mesed Laçınova söhbət zamanı bildirdi ki, Xüsusi Təyinatlılarda xidmət edəndən sonra qardaşı Əhməd tamamilə dəyişilmiş, əsil idmançı cüssəli, mərd, cəsur hərbiçi olmuşdur. O, bizimlə telefonla danışanda deyirdi ki: "Allah Sizi qorusun, bizdən narahat olmayın hər şey əladır, sakitlikdir, kişi kimi hərbi xidməti borcumuzu layaqətlə yerinə yetiririk. Erməni düşmənlərə həm psixoloji, mənəvi və digər təsirlər göstəririk. Onlar tülkü kimi gizlənərək, qəfildən atəşkəsi pozur, ərazilərimizi tərk etmək istəmirdilər... Artıq onların öz yuvalarına qovmağı, susdurmağın və gəbərtməyin vaxtı çatmışdı...

...Qardaşım bizimlə danışanda heç vaxt onların respublikamızın müxtəlif bölgələrində, türk zabitlərinin rəhbərliyi ilə, çox ciddi, çox şaxəli təlimlər keçmişdilər və tam müharibəyə hazırlanmışdılar. Ancaq Əhməd Müharibənin reallaşmasından danışmırdı. Demə, əzizimiz o xəyanətkarlara hərbiçi yoldaşlarıyla cavab verməyə hazır idilər..." deyə - Mesed bacısı əlavə etdi...

Məhz, belə azğın düşmənə qar üz-üzə mübarizə aparmaq üçün tam təcrübəli, peşəkar hərbiçi kimi.

Əhməd hələ Zaqatala İdarəetmə və Texnologiya Kollecində təhsil alandan elə bil duymuşdu ki, Qarabağda işğal altında olan torpaqların işğaldan azad edilməsində iştirak edəcək və... hətta hərbi yoldaşları ilə zarafatlaşarkən demişdi ki, vaxt gələcək Siz mənimlə qürur hissi duyacaqsınız və adımı fəxarətlə yad edəcəksiniz..." Bacıları Aytən, Çinarə və Mesed xatırladılar ki, fiziki cəhətdən hazırlıqlı, mənəvi cəhətdən möhkəm olan qardaşları Əhməd daima idmanla məşğul olurdu. Həyətlərində hər gün saatlarla dartındığı turnik yadigar qalıb... deyirlər əzizləri... Elə bil ki, Əhməd Laçınov hələ tələbəlik dövründən müharibəyə hazırlaşırdı... O da məlum idi ki, indi adını fəxarətlə çəkilən Yuxarı Çardaxlar kəndinin igid oğlu Əhməd Laçınov hərbi xidmətə çağırılandan Xüsusi Təyinatlılarda xidmət etmək istəyirdi. Şübhəsiz ki, onun bu istəyi and içmədən sonra həyata keçir.

Əhməd xüsusi qabiliyyəti ilə seçilən hərbiçi kimi Xüsusi Təyinatlıların Dəstəsinin tərkibinə təlimlərə göndərildi: "Əhməd ən aktiv təlimlərdə, aylarla dağlıq ərazilərdə keçirilən ən qorxulu tiryonlarda xüsusilə fərqlənirdi..."

Bəli, 27 sentyabr 2020 -ci il tarixində mənfur qonşuların təxribatları nəticəsində başlayan - İkinci Vətən Müharibəsində ermənilərə qan uduranlardan və yuxularına haram qatanlardan biri də Əhməd Qurban oğlu Laçınov olub. Mərd döyüşçü,üç bacının əziz qardaşı olan Əhmədin döyüş yolu Murov dağ silsiləsindən başlayıb. Xüsusi Təyinatlılar qısa müddət ərzində çətin şəraitdə yerləşən mövqelərimizi erməni hərbiçilərindən təmizlədilər. Həmin vaxtlar Əhməd ilə birlikdə Zaqatala rayonunun Qandax kəndindən olan İsgəndərov Şahin, Yeni Suvagil kəndində olan Ehtiram Əhmədov, Zilban kəndindən olan Mütəllib Serov da döyüşürdülər. Hansı ki, onlarda Əhməd kimi şəhidlik zirvəsini fəth ediblər... Əhmədin yaxınları deyir ki, o, belə qızğın döyüşlərdə iştirak etməsinə baxmayaraq, tez-tez anası, atası, bacıları ilə telefonla danışardı və həmişədə tezliklə onlarla görüşməyini deyərdi. "Əziz ana, sevimli ata, ciyər paralarım, bacılarım səbr edin, narahat olmayın, bilirəm Siz ermənilərlə müharibədə iştirak etdiyimdən xəbərdarsınız. Unutmayın ki, düşmənə qarşı bizim kimi qeyrətli oğullar döyüşürlər, qorxaqlar və satqınlar yox! Mən Sizin yanınıza qalib bir hərbiçi kimi üzü ağ, qalib kimi qayıdacağam..." O, bu sözləri inamla, təmkinlə deyərdi. Qardaşımız Vətənin hər qarışını sevirdi, fərq qoymurdu. Onda döyüşkən ruh daha çoxdu... İşğal altında olan torpaqlarımızın azad olunmasında itkilərimiz az olanda çox sevinirdi, ancaq həlak olan oğullarımıza çox heyfislənərdi. Düşməndən onların intiqamını qat-qat artıq çıxartmağa çalışardı, vuruşardı - Əhməd! Bu barədə isə onun döyüşçü dostları və komandirləri bizə bildirmişdilər" - deyə şəhidin anası Züleyxa xanım və atası Qurban Ata məni məlumatlandırdılar. Ailəsindən həm də öyrəndim ki, Əhməd Laçınov xüsusi Təyinatlıların cəsur döyüşçüsü kimi Zəngilan, Qubadlı, Hadrut və Füzulidəki mövqelərimizi erməni mənfurlarından azad olunmasında fədakarlıqla iştirak edib və hərbiçi qüvvələrimizin hərbi əməliyyatlarının davam etdirilməsinə şərait yaradıblar...

Oğul itkinsindən sonra şok vəziyyətindən ayılmayan ana, ata, böyük bacıları danışa bilməsələrdə, balaca bacısı Mesed qardaşının gerçəkləşən yuxusundan danışdı: "Qardaşımla 2 oktyabr 2020 -ci il tarixində baş verən son döyüşdə iştirak edən komandirinin söylədiyinə görə oktyabr ayının 2 -də Vətən Müharibəsinin ən ağır döyüşlərindən biri oldu. Füzulinin təmas xəttində bəşəriyyətin ən azğınları olan ermənilər bir neçə müdafiə xətti qurmuşdu. Həmin əraziyə güclü texnika və canlı qüvvə toplamışdı. Əhmədin də olduğu tabor həmin cəbhə xəttini yarıb, düşməni məhv etməliydi. Əmrdən sonra qanlı döyüş başlayır, el oğlumuz komandirlə yanaşı mövqedə dvyüşmüşdü və qan içənlərə hər tərəfdən güclü müqavimət göstərərək, mərmi yağdırmışdılar. Hərbiçilərin bildirdiklərinə görə qardaşımız "TSK" qoruyucu silahla düşmənə qan uddurmuşdu - həmin döyüşdə... Əhməd xeyli müddət erməni faşistlərinə aman verməmişdi... Döyüş məqamında qorxmaz hərbiçimizin silahı dayanmır. Ayağından yaralanan komandiri onu səsləyir, lakin namərdlərin açdıqları atəşlər nəticəsində ağır yaralanan Əhməd, artıq əbədiyyətə qovuşmuşdu. Vəziyyətinin ağır olmasına baxmayaraq, komandirləri Əhmədin nəşini döyüş meydanından çıxarır...

Yaralı döyüşçü yoldaşları söyləyirdilər ki, həmin günki döyüşdə biz tərəfdən şəhidlər və xeyli sayda yaralı olmasına baxmayaraq, Xüsusi Təyinatlılar düşmənləri məhv edərək, onların tutduqları mövqelərini təmizləyərək, növbəti uğurlu əməliyyat həyata keçiriblər...

Bu əməliyyatın ən böyük şücaət göstərən qəhrəmanlarından biri də Zaqatala rayonunun, tarixlər şahidi olmuş Yuxarı Çardaxlar kəndinin dönməz, əvəz olunmaz oğlu, üç bacının yeganə qardaşı, Züleyxa ananın, Qurban atanın qeyrətli, namuslu ürək parası olan Əhməd Laçınov oldu. Bütün Azərbaycanın xilaskarı, ömrünün ən şirin vaxtlarında düşmənə layiqli cavab verən, əfsanəvi ölümü ilə milyonlarla qəlbi riqqətə gətirən, daima Böyük Qafqaz sıra dağlarının zirvələrində sığıyan Zaqatalanın qartalı, məğrur oğlu - Əhməd!

...Söz yox ki, Əhmədin şəhid olması qürurdur, fəxrdir, bir təkrar olunmazlıqdır, hər oğul bu yolu seçmir, ancaq dünyaya gələnlərdən halallıqla, əziyyətlə, zəhmətlə böyüyənlər...

...Belə məqamlarda ən ağır zərbəni isə analar, atalar, bacılar, qardaşlar dadırlar...

Necə ki, Əhmədin anası Züleyxa Ana, Atası Qurban Ata, bacıları Aytən, Çinarə Mesed...

Qeyd edim ki, 2 oktyabr 2020 -ci il tarixində İkinci Vətən Savaşında Füzuli döyüşlərində şəhid olan Xüsusi Təyinatlıların fəxri Əhməd Qurban oğlu Laçənov 3 oktyabr 2020 -ci il tarixində dünyaya göz açdığı Yuxarı Çardaxlar kənd qəbristanlığında dəfn olunub... Onu və doğma Vətəni əsil qəlblə sevənlərin iştirakı ilə...

Belə igidləri isə, heç kim əvəz edə bilməz... Ancaq onlar onların əzizlərinə dayaq, mənəvi yardımçı olmaq, onları həm də, kədər dünyasından uzaqlaşdırmaq hər birimizin Allah qarşısında borcumuzdur. Unutmayaq ki, Vətən yolunda əzizlərini qurban verən valideynlər qiymətsizdirlər. Züleyxa ana, Qurban ata kimi... Başınızı uca edən Əhməd Laçınovu isə daima ürəklərdə yaşatmalıyıq...

Onlar bizim qəhrəmanlıq simvolumuzdur...

Prezidentin sərəncamı ilə Zaqatalanın ölməz qəhrəmanı Əhməd Qurban oğlu Laçınov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

***Elman Maliyev***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# "Uşaqlığın son gecəsi"nin "Elya"sı: "Axşamlar məni hamı qonaq dəvət edirdi"

***Megi Kejeradze - bu ad və soyad oxucuya bəlkə də heç nə demir, lakin bu gürcü xanım Azərbaycan kinosunun incisi olan "Uşaqlığın son gecəsi" bədii filmində (1968) yaddaqalan, işvə-nazlı, gözəl "Elya" obrazı ilə kino tariximizə düşüb.***

Megi xanımı xeyli müddətdir axtarırdıq, amma tapa bilmirdik. Hətta Gürcüstanın Mədəniyyət Nazirliyi belə onun hazırkı həyatı haqqında hər hansı bir məlumat təqdim edə bilmədi. Bəzi şəxslər isə M.Kejeradzenin artıq həyatda olmadığı və 2019-cu ildə vəfat etdiyini iddia edirdilər.

Buna baxmayaraq axtarışlarımızı dayandırmadıq və cəhdlərimiz sonda müsbət nəticə verdi. Megi xanımı tapdıq, müsahibə üçün onunla əlaqə saxladıq. Onu müsahibəyə razı salmaq asan olmadı. Azərbaycan mediası üçün onunla görüşmək istədiyimizi bilən kimi "Bakıda çəkildiyim filmlə bağlı olacaq müsahibə, elə deyilmi?" şərti ilə razılaşdı.

Müsahibəyə yollanarkən "Uşaqlığın son gecəsi" filmində Murad rolunun ifaçısı, Xalq artisti, "Elya"nı uzun illərdir axtaran Ənvər Həsənovla əlaqə saxlayıb Megi xanımı tapdığımızı bildiririk. O, bu xəbərdən çox sevindiyini qeyd edərək, "Elya"ya salam və ən xoş arzularını çatdırmağımızı xahiş edir. Aktyorun sözlərinə görə, Megi Kejeradzeni çox axtarsa da, tapa bilməyib və buna görə də onun artıq həyatda olmadığını düşünüb. Ə.Həsənov film barədə danışanda hər zaman Megi xanımı da yad etdiyini vurğulayıb. Məşğul olduğundan onu Megi xanımla müsahibə zamanı danışdırmaq istəyimiz baş tutmadı.

"Elya"nın yaşadığı ünvanı tapmağımız da asan olmur. Onun dediyi ünvana çatırıq, amma yaşadığı bloku tapa bilmirik. Tərslikdən Megi xanım ardıcıl zənglərimizə cavab vermir. Bir saata yaxın vaxt keçir. Nəhayət özü telefon açır, zənglərimizə cavab vermədiyi və ünvanı düzgün izah etmədiyinə görə üzrxahlığını bildirir. Həyətə daxil oluruq, 2 nömrəli bloku axtarırıq. İki blokun girişində 2 nömrəsinin yazıldığı lövhəni görürük. Eyvanların birindən həyətə baxan bir kişi bizi görüb kimi axtardığımızla maraqlanır. "Megi Kejeradze bu binada yaşayır?" sualımıza "Gəlinciklər gülümsəyir" filmində çəkilən?" deyib bloku işarə edir. Liftin işlək vəziyyətdə olmasını desələr də, qapıları bizim üçün açılmır. Yeddinci mərtəbəyə ayaqla qalxmalı oluruq. Megi xanım bizi mənzilinin qapısında gözləyirdi. Mənzilə daxil oluruq, "Elya"nı tapdığımıza sevinirik. Ondan müsahibə üçün foto və video çəkiliş üçün icazə alırıq, o isə bunun üçün uyğun geyimdə və formada olmadığını əsas gətirərək razılaşmır. Megi xanımı dilə tutub çəkilişə razı sala bilirik.

Milli.Az Megi Kejeradzenin "Report"a müsahibəsini təqdim edir.

***- Megi xanım, 53 il bundan öncə "Uşaqlığın son gecəsi" filminə dəvət olunduğunuzu necə xatırlayırsınız?***

- Həmin dövrdə mən "Gürcüstan filmi"nin istehsalı olan "Gəlinciklər gülümsəyir" (1963) filmində çəkilmişdim. Kinorejissor Arif Babayev məni o filmdə görüb bəyənmişdi. Daha sonra məni Bakıya çağırdılar. "Elya" rolu üçün çox gözəl və yaxşı xanım olan Tamillanı sınaqdan keçirmişdilər. (müsahibim Tamilla xanımın soyadını Əsədullayeva kimi xatırlayır. Lakin bu ad-soyadlı aktrisa barədə hər hansı bir məlumat yoxdur. Bəlkə də həmin aktrisa "Ulduz" filmində "Ulduz" və "Böyük dayaq" filmində "Maya" rollarının ifaçısı Tamilla Rüstəmovadır). Həmin rolda o çəkilməli idi. Mən bunu sonradan bildim. Tamilla rola artıq hazırlaşmışdı. Lakin elə alındı ki, onun yerinə məni təsdiqlədilər. Arif Babayev "Elya rolunda Megidən başqa heç kəsi istəmirəm" demişdi. Tamilla çox incimişdi, lakin buna baxmayaraq, biz çox dostlaşdıq və uzun illər rəfiqəlik etdik. Sonralar təəssüf ki, əlaqəmiz kəsildi.

***- Çəkiliş meydançasında sizə münasibət necə idi?***

- Çəkilişlər yarım il davam etdi. Mən bununla bağlı Bakıya gedib gəlirdim. Hamı məni çox əzizləyirdi. Ətrafdakılardan yalnız xoş münasibət görürdüm. Özümü çox xoşbəxt hiss edirdim. Mənə dost və doğma insan kimi münasibət bəsləyirdilər. Çox razı idim. O qədər doğmalaşdıq, hətta Azərbaycan dilində bir neçə söz öyrəndim. İndi yalnız "necəsən" sözü yadımda qalıb.

Elə bu arada Megi xanıma Ənvər Həsənovun salamını və xoş arzularını çatdırırıq. Azərbaycanlı aktyorun tərəf müqabili - "Elya"nı axtardığını qeyd edirik. Megi xanım "doğrudan?" deyib təəccüblənir, kövrəlir, susaraq xatirələrə dalır... "Çox sağ olsun! Məndən də salam yetirin" deyib gülümsəyir.

***- Peşəkar aktrisa olmamısınız, elə deyilmi?***

- Bəli, mən aktrisa deyiləm. İngilis dili pedaqoquyam. "Uşaqlığın son gecəsi" filmindən öncə bir neçə ekran əsərində yer almışam. Ötən əsrin 60-cı illərində gənc idim. Gənclik illərimdə yəqin xarici görkəmim filmlərə çəkilməyimə imkan verib. Arif Babayevin filmində çəkiləndə 24 yaşım var idi, çox utancaq idim.

***- Arif Babayevi xatırladınız. Onu necə yadda saxlamısınız?***

- O, çox koloritli, tələbkar və eyni zamanda çox şən insan idi. Yaxşı zövqü ilə seçilirdi. Mən deyərdim ki, o, özünü lazımı qədər qiymətləndirmirdi. Onun lentə aldığı bütün filmlər qeyri-adidir.

***- Filmin çəkilişləri dövründən ən çox nə yadınızda qalıb?***

- Hansısa epizodun çəkilişində Arif Babayev üstümə qışqırdı və mən ağlamağa başladım. Artıq çəkilmək istəmədiyimi və çəkilişlərə gəlməyəcəyimi bildirdim. Hamı məni əzizləyərək sakitləşdirməyə başladı. Dedilər ki, rejissor mənə görə hirslənməyib.

***- Filmə ekrana çıxmasından sonra baxmısınızmı?***

- Bəli, izlədim və çox bəyəndim. Filmdə çəkilənlərin hamısı mənə çox əziz və xeyirxah insanlar idilər. Bakı dövrü deyərdim ki, həyatımın ən yaxşı dövrlərindən biridir. Çünki hamı məni böyük sevinclə qarşılamışdı. Axşamlar məni hamı qonaq dəvət edirdi. O qədər dəvət alırdım ki, bilmirdim birinci hansını qəbul edim (gülür).

***- Sonralar Azərbaycandan filmlərə dəvət aldınızmı?***

- Bəli. Zənglər oldu. İki dəfə dəvət etmək istədilər, lakin baş tutmadı.

***- Bakıda daha sonralar olmusunuzmu?***

- Bəli. Bakıda olduğum vaxtda çoxlu dost və rəfiqə qazandım. Azərbaycanlıların hamısı məni çox sevirdi. Dostlarım çox idi, dəvətlər alırdım. Zağulbada dəniz sahilində dincəlmişəm. Ora çox gözəl idi. Bakılı dostlarım da Tbilisidə tez-tez qonağım olurdular. Azərbaycanda həm dostlarım, həm də pərəstişkarlarım vardı. Çox xoş vaxt keçirirdim. Məni tanıyanlar çox idi.

Deyərdim ki, Bakı həyatımın sevincidir. Kədərli olanda, əhvalımın pis vaxtında Bakı dövrümü, oradakı dostlarımı yadıma salıram və yüngülləşirəm. Orada heç kəs mənim xətrimə dəyməyib. Həmin günlər həyatımın ən xoşbəxt və yaddaqalan dövrüdür. Elə gün olmur ki, o günləri yada salmayım. Sonuncu dəfə Azərbaycanda nə vaxt olduğumu xatırlamıram. Dəvət olsa, böyük məmnuniyyətlə Bakıya gedərəm. Bunu çox arzulayıram.

Bakıdan özümə boyunbağı və qolbaq almışdım. Təəssüflər olsun ki, onları sonra itirdim.



***- İndi həyatınız necə keçir? Harada işləyirsiniz?***

- Bakıda çəkiləndə həyat yoldaşımdan ayrılmışdım. İkinci dəfə ailə qurdum. Həyat yoldaşım artıq vəfat edib. Bir qızım var, o da kino sahəsində özünü sınayıb. İki nəvəm var. Əvvəllər Xarici Dillər İnstitutunda müəllimlik etmişəm, hazırda isə Texniki Universitetdə ingilis dilli müəllimi kimi çalışıram. Yəqin bu il ali məktəbdə son ilimdir, çünki pedaqoji fəaliyyət üçün artıq çox qocalmışam. Mənsub olduğum nəsil artıq gedir...

***- Gürcüstan mətbuatında barənizdə çox az məlumata rast gəlinir. Sizin ictimaiyyətə qapalı olduğunuzu deyirlər.***

- Bilirsiniz, bu, mənim çox məşğul olmağımla bağlıdır. Vaxt tapa bilmirəm. Nəvələrimə baxıram. Tələbələrim var və vaxtımın böyük hissəsini onlara ayırıram.

***- Sonda azərbaycanlı kinosevərlərə və Azərbaycandakı pərəstişkarlarınıza nə demək istəyərdiniz?***

- Sizinlə söhbət edərkən yenidən Bakıda keçirdiyim xoş günlərə qayıtdım, rəfiqələrimi və yaxın tanışlarımı yada saldım. Azərbaycanlılar mənə çox doğma və əzizdirlər. Onlar qeyri-adi yaxşı, mehriban insanlardır və bu, yalnız mənim fikrim deyil. Tələbələrim arasında Gürcüstanda yaşayan azərbaycanlılar da var. Onların bəziləri məni Azərbaycan filminə çəkilən aktrisa kimi tanıyır. Azərbaycanlılardan həmişə böyük minnətdarlıq və razılıq hissi ilə danışıram. Çox şadam ki, Azərbaycanda məni unutmayıblar. Azərbaycanlı jurnalistin məni tapıb müsahibə alması da bunu təsdiqləyir.

# Təzyiqi ölçəndə yol verilən 8 səhv - Niyə düz göstərmir?



***Arterial təzyiq sağlamlıq göstəriciləri arasında ən vacib olanlardan biridir. Həkimlər vaxtaşırı olaraq hamıya (xüsusilə 40 yaşdan sonra olan insanlara) təzyiqini ölçməyi tövsiyə edirlər.***

Bununla siz hipertoniyanın inkişafını ilk mərhələlərdə aşkar edə bilərsiniz.

Hipertoniya çox hiyləgər xəstəlikdir ki, ilk mərhələlərdə heç bir simptomla özünü büruzə vermir. Bu isə çox təhlükəlidir. Gizli inkişaf edən hipertoniya tədricən insanın ürək-damar sistemini, böyrəklərini, gözlərini sıradan çıxardır. Bu səbəbdən təzyiqin vaxtaşırı olaraq ölçülməsi olduqca vacibdir.

Medicina.az xəbər verir ki, təzyiqi ölçən insan müəyyən qaydaları bilməlidir. Bu qaydalara əməl etməmək təzyiqin göstəricilərinə təsir edir, təzyiqin səhv ölçülməsinə səbəb olur.

1. Təzyiqi yemək yedikdən, çay və ya qəhvə içdikdən, siqaret çəkdikdən dərhal sonra ölçmək olmaz. Sidik kisəsi boş olmalıdır.
2. Təzyiqi ölçdükdə danışmaq, gülmək, yemək yemək və s. olmaz. Bu göstəricilərin daha yüksək olduğuna səbəb olur.
3. Təzyiqi ölçdükdən əvvəl 5 dəqiqə sakit oturun. Ölçülmədən əvvəl fizki işlə məşğul olan, pilləkənlə qalxan insanın təzyiqi daha yüksək olacaq.
4. Təzyiq ölçülən qolu masanın üzərinə rahat qoymaq lazımdır. Qolun gərgin olması, ”sallanması” zamanı təzyqin göstəriciləri daha yüksək olur.
5. Paltarın qolunu mütləq qatlamaq lazımdır. Tonometrin manjeti paltarın üzərində yerləşdikdə bu təzyiqin səhv ölçülməsinə gətirib çıxardır.
6. Təzyiqin ölçülməsi zamanı ayağı ayağın üzərinə qoymaq, narahat poza almaq, önə əyilmək olmaz.
7. Təzyiqi 5-10 dəqiqə fasilələrlə 3 dəfə ölçün və ən aşağı göstəricini götürün. Məsələn, birinci dəfə 140/90 mm c. st., 2-ci dəfə 135/86 mm c. st, 3-cü dəfə 138/90 mm c.st göstərilibsə, 135/86 mm c.st götürülür.

Əgər təzyiqin ölçülməsi zamanı orta yaşlı insanda göstəricilər daim 139/89 mm c.st-dan yuxarıdırsa, həkimə müraciət edin. Bu sizdə hipertoniyanın inkişafına işarə edə bilər.

# Sonsuzluq, impotensiya, cinsi zəifliyə qarşı - 2 manatlıq ÇARƏ

***Küncütün faydalı və müalicəvi xüsusiyyətləri insanlara qədim zamanlardan məlumdur.***

Medicina.az xəbər verir ki, qədimdən küncüt və küncüt yağı ilə sonsuzluğu, cinsi zəifliyi müalicə edirdilər. Küncüt qadın və kişi cinsiyyət sistemləri üçün həqiqətən çox faydalıdır. Bu bitki güclü afrodiziakdır (cinsi həvəsi artıran məhsul), həmçinin onun tərkibində olan fitoestrogenlər qadın dölyaratma sisteminin fəaliyyətinə çox müsbət təsir edir.

Küncüt qanda ”pis” xolesterolun və şəkərin səviyyəsini aşağı salmaq xüsusiyyətinə malikdir.

Küncütün tərkibində güclü antioksidant ”sezamin” var. Bu maddə xərçəngin profilaktikasında effektlidir.

Toxumların tərkibində olan yağlı turşular ürək-damar sisteminin sağlamlığı üçün çox faydalıdır, insult və infarktın riskini azaldır.

Küncüt immun sistemini möhkəmləndirir. Bu məqsədlə küncütün balla qarışığı istifadə olunur. Bu faydalı qarışıq insanı qripp və soyuqdəymə xəstəliklərindən qoruyur, orqanizmə yaxşı iltihab, virus və mikrob əleyhinə təsir edir.

Qidalı liflərlə zəngin küncütün həzm sisteminə olan müsbət təsiri danılmazdır - bağırsaqların fəaliyyətini yaxşılaşdırır, qəbizliyi müalicə edir, orqanizmi ziyanlı maddələrdən təmizləyir. Bu məqsədlə 1 x.q. küncütü qatığa əlavə edin, qarışdırın, yarım saat saxlayın və sonra bu qarışığı qəbul edin.

Kalsiumla zəngin olan küncüt sümük və oynaqların sağlamlığı üçün də olduqca faydalıdır. Mütəxəssislər sümük və oynaqları sağlam saxlamaq istəyənlərə hər gün 1 x.q. küncütü (uşaqlar üçün 1 ç.q.) yarım saat ərzində ılıq suda islatmağı və sonra qəbul etməyi tövsiyə edirlər.

Tərkibində A, E və C vitaminləri kimi güclü antioksidantların sayəsində küncüt orqanizmi cavanlaşdırır, xroniki xəstəliklərinin inkişafına mane olur.

Küncütün faydalarından biri də radiasiyaya və ya davamlı bənzər şüalara məruz qalaraq işləyənlərə bərpaedici təsir verməsidir. Bu şəxslərin küncüt istehlak etmə vərdişini qazanmaları faydalıdır.

Nəzərə almaq lazımdır ki, gün ərzində 1-2 x.q. küncüt orqanizm üçün kifayətdir. Mütəxəssislər küncütü çiy halda yeməyi tövsiyə edirlər. Qəbul etdikdən əvvəl küncütü suda isladın və ya quru tavada bir az (!) qızdırın - bu, küncütün mənimsənilməsini asanlaşdırır.

# İnsanda tükənmişlik sindromu necə başlayır? - 7 mərhələsi



***Son illərin ən böyük bəlalarından biri depressiyadır. ÜST-ün proqnozlarına görə, 2020-ci ildə ÜDS xəstəliklərindən sonra yayılmasına görə depressiya 2-ci yeri tutacaq. Buna görə də bu qlobal mövzunun daha ətraflı araşdırılması günümüzün aktual məsələlərindəndir. Alimlər tezliklə depressiyanın hətta epidemiya şəklində yayılacağını proqnozlaşdırır.***

Çox zaman depressiyanın ilkin səbəbi kimi xroniki yorğunluq sindromu və ya tükənmə sindromu göstərilir. Termini (“burn out”) təbabətə amerikalı psixoanalitik H.Froydenberger gətirmişdir. Sindromun yaranmasında əsas rolu uzunmüddətli və həllini tapmamış streslər oynayır. Sindromun ağır fəsadlar yaratması ilə əlaqədar ÜST stresi XXI əsrin əsas problemlərindən hesab edir.

Sindromun digər psixoloji səbəbi - insana qarşı çox yüksək tələblərin qoyulması, daimi təzyiq və artıq dərəcədə rəqabətli mühitin olmasıdır. Bu faktorlar pasiyentin istirahətsiz işləməsinə, özünü bütövlükdə bu fəaliyyətə həsr etməsinə səbəb olur; onlar hətta evdə də dincəlmədən aktiv işləməyə davam edir. Gördüyü işin müqabilində lazımi dəyər və qiyməti almadıqda isə özünəinam azalır, daxili balans pozulur və psixoloji kriz qaçılmaz olur. Tükənmə sindromuna meyilli pasiyentlər sırasına ilk növbədə, həkimlər, müəllimlər, menecer və şirkət rəhbərləri, sürücü, pilot və maşinistlər, həmçinin, elektronika və informatika üzrə mütəxəssislər aiddir.

Tükənmə sindromu öz inkişafında 7 əsas fazadan keçir.

Birinci fazada pasientlər çox yüksək aktivlik və güclü iradə nümayiş etdirirlər: onlar ən çətin işin öhdəsindən asanlıqla gəlirlər.

İkinci fazada pasient lazımi qiymət alma-dığına görə işdən bir qədər soyuyur, özünə qapanır. İş qabiliyyəti və işə olan həvəsi azalır.

Üçüncü fazada duyğusal tükənmə, yorğunluq, enerji qıtlığı, ürək narahatlığı, əsəbilik, səbrsizlik, özgüvənin azalması, dəyərsizlik hissi, tənqidə qarşı həssaslıq, qərar verməde çətinlik, süstlük, boşluq və mənasızlıq hissi, ümidsizlik və 2 tip reaksiya müşahidə oluna bilər: derpessiv (özünəqapanma, özünü günahlandırma), yaxud aqressiv (bütün günahı ətrafdakılarda görür, hər qıcığa qəzəblə reaksiya verir). Bu məqamadək sindromun inkişafı ətrafdakılar üçün nisbətən gizli keçir.

Dördüncü fazadan başlayaraq psixoloji durum və iş qabiliyyətində olan dəyişikliklər artıq qabarıq şəkildə özünü büruzə verir, məsələn, işində yaranan yanlışlıqlar, işlərini təxirə salma, işə gecikmək və s.

Beşinci fazada ətraf mühit onun üçün bütün əhəmiyyətini itirir, psixi simptomlara fiziki (somatik) simptomlar, o cümlədən, xroniki, güclü baş ağrıları, yuxusuzluq, bütün bədəni əhatə edən naməlum mənşəli ağrılar, residivləşən infeksiyalar, mədə - bağırsaq şikayətləri əlavə olunur. Altıncı fazada fiziki simptomlar ön plana keçir, sadalanan əlamətlərə ürək-damar sistemi tərəfindən simptomlar əlavə olunur, metabolik pozulmalar yaranır.

Yeddinci faza tam ümidsizlik, depressiya, yalqızlıq və ətraf mühitdən təcrid ilə xarakterizə olunur; suisidal fikirlər baş qaldıra bilər.

İnsanı bütövlükdə - həm cismini, həm ruhunu zədələyən bu patoloji sindromun ənənəvi təbabətlə müalicəsi birmənalı nəticə vermir; istifadə olunan kimyəvi preparatlara qarşı asılılığın yaranması ilə yanaşı, onların ciddi yan təsirləri mövcuddur.

Bioloji təbabətlə müalicə üsulları (biotənzimləyici preparatlar, ortomolekulyar vasitələrg) tükənmə sindromunun səbəb və nəticələri ilə effektiv, toksiki təsir olmadan mübarizə aparmağa imkan verir.

Müalicə tədbirləri fazadan asılı olaraq müxtəlif aspektləri əhatə edir. İlk növbədə pasient həyat tərzinin dəyişməsinə, özünə və ailəsinə daha çox vaxt ayırmasına motivasiya olunmalıdır. Yuxu və qida rejiminin normallaşdırılması, açıq havada, təbiət qoynunda gəzinti, aktiv idman, yoqa, meditasiya kimi qeyri-medikamentoz üsullardan geniş istifadə olunur.

Başlanğıc fazalarda terapiyanın bazis preparatı Neurexan və Valerianaheel-dir (narahatlıq, yuxusuz-luq..). Sindrom zamanı orqanizm bütövlükdə zədələndiyindən vitamin və mikroelementlərlə əvəzləyici terapiya aparılmalıdır (vit. B6, B12, C, D, Zn, Mg). “Burn out” zamanı oksidativ stress markerlərinin yüksəlməsi müşahidə olunduğundan sərbəst radikalların artmış səviyyəsini dəf etmək üçün yüksəkdozalı vitamin C-dən - Pascorbin 7,5 q kimi antioksidantdan istifadə olunur.

Özünəqapanma, depressiya qabarıq şəkildə özünü büruzə verdikdə (dördüncü faza) Nervoheel preparatının istifadəsi məqsədəuyğundur.

Son illər sübut olunmuşdur ki, artıq sindromun erkən fazalarında mitoxondrilərdə müşahidə olunan disfunksiya (azot oksidinin və onun mübadilə məhsullarının artıqlığı nəticəsində yaranmış nitrostress) enerji qıtlığına səbəb olur. Energetik balansın bərpası üçün biotənzimləyici biokatalizatorlar olan Coenzyme compositum və Ubichinon compositum preparatları məsləhət görülür.

İstənilən fazada müşahidə olunan toxuma asidozunu qələviləşdirici qidaya keçməklə (əsasən tərəvəzlər) və qələvi qarışıq olan “Alkala N” preparatının qəbulu ilə aradan qaldırmaq olar - 1 ölçü qaş. toz isti suda həll olunaraq yeməkdən 2 saat əvvəl içilir. Bioloji təbabətlə, onun üsul və preparatları ilə zamanında aparılmış müalicə orqanizmin özünütənzimləmə mexanizmlərini işə salaraq yaxşı terapevtik effekt verir və depressiyanın inkişafının qarşısını alır. Bu terapiya həm də aqressiv kimyəvi preparatların tətbiqindən, onların fəsadlarından qaçmağa imkan verir.

# "Zirə" "Qarabağ"ın rəqibindən müdafiəçi istəyir

***Yay fasiləsində heyətində köklü islahatlar aparan "Zirə" yaranan boşluqları doldurmaq üçün çox sayda transfer həyata keçirmək niyyətindədir.***



Apasport.az saytının əldə etdiyi məlumata görə, Bakı təmsilçisi müdafiənin mərkəzinə ənənəbi futbolçu axtarışındadır. Baş məşqçi Rəşad Sadıqovun siyahısında adı olan oyunçulardan biri İsrailin "Aşdod" klubunun üzvü Nenad Çvetkovdur. Zirəlilər 25 yaşlı serbiyalını icarəyə götürmək üçün ilkin təmaslarını da qurublar.

Lakin Çvetkovu heyətə qatmaq heç də asan olmayacaq. Çünki ötən il "Vozdaç"dan alınan futbolçunun "Aşdod"la müqavilə müddəti 2024-cü ilin yayına qədərdir. Üstəlik, müdafiəçi keçən mövsüm İsrail klubunun heyətində 35 oyun keçirməklə əsas heyətin aparıcı üzvlərindən birinə çevrilib.

Qeyd edək ki, "Aşdod" Konfrans Liqasının II təsnifat mərhələsində Azərbaycanın digər təmsilçisi "Qarabağ"a rəqib olacaq. Nenad Çvetkov həmin vaxta qədər komandasında qalsa, iyulun 22-də Bakıya səfər edəcək heyətdə yer alacaq.

# "Yenidən Bakıda olmaq üçün fədakarlığımızı davam etdirəcəyik" - Rob Peyc

***"Avropanın hər tərəfində olmaq çox yaxşı bir fikir kimi səslənir. Amma məntiqi baxımdan turnir ərzində bu qədər uzun səfərlər kabusdur".***



Bunu Uels millisinin baş məşqçisi Rob Peyc deyib. AVRO-2020-nin qrup mərhələsində Bakıda İsveçrə (1:1) və Türkiyə (2:0) ilə, Romada isə İtaliya (0:1) ilə qarşılaşan britaniyalılar ikinci yeri tutaraq, 1/8 finalda Danimarkaya rəqib olub.

Baş məşqçi qarşılaşma öncəsi uzun səfərlərdən şikayətlənib. Buna baxmayaraq, o, Danimarkanı məğlub edərək, yenidən Bakıda 1/4 final matçına çıxmaq arzusunda olduqlarını da gizlətməyib: "İnsanların görə bilmədiyi bəzi fədakarlıqlara görə futbolçular mükafata layiqdirlər. Uzun səfərlər işi çətinləşdirir. Amma vəziyyət budur, yolumuza davam etməliyik. Təbii ki, asan olmadı. Bakıya, oradan da Romaya yollandıq. İndi də Amsterdama getmək məcburiyyətindəyik. Səyahət gününü elə müəyyənləşdiririk ki, məşq proqramımıza təsir etməsin. Bu çətinliklərə rəğmən yenidən Bakıda olmaq üçün fədakarlığımızı davam etdirəcəyik. Çünki qarşıda duran hədəf 1/4 finala adlamaqdır".

Qeyd edək ki, Uels - Danimarka görüşü iyunun 26-da Amsterdamda keçiriləcək. Bu matçın qalibi Niderland - Çexiya cütündən üstün ayrılacaq komanda ilə Bakıda 1/4 final mərhələsində üz-üzə gələcək.

# "1/4 finalda onları qarşılamaqdan məmnun olarıq" - Elxan Məmmədov

***"Türkiyənin yerli azarkeşləri də daxil olmaqla Uels, İsveçrə və Türkiyədən səyahət edənlər buradakı oyunlar ərzində Bakıya xüsusi rəng və xarakter qatdılar".***

Bunu AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov Britaniya mətbuatına açıqlamasında deyib.

AVRO-2020-nin qrup mərhələsində Bakıda keçirilən Uels - İsveçrə (1:1), Türkiyə - Uels (0:2) və İsveçrə - Türkiyə (3:1) oyunlarından bəhs edən assosiasiya rəsmisi artıq 1/4 finalı qəbul etməyə hazır olduqlarını bildirib: "Ümid edirəm ki, azarkeşlər buradan məmnun qaldılar və Azərbaycanla yaxınlıqlıq hiss etdilər. Bakı 1/4 finala vəsiqə qazanacaq komandaları salamlamağa hazırdır və bundan məmnunluq duyar. Uels millisinin iyulun 3-də yenidən Bakıda oynamaq ehtimalı var. 1/8 final səddini keçsələr, onları yenidən qarşılamaqdan məmnun olarıq".

Elxan Məmmədov əlavə edib ki, Uels millisini 1/4 final mərhələsində yenidən Bakıda görməkdən şad olarlar: "Azərbaycan vətəndaşları əvvəlcə "Formula-1"lə, indi isə Avropa çempionatı ilə böyük tədbirə ev sahibliyi etməkdən məmnun oldular. Bu, ölkəmiz üçün əla reklamdır. Uels azarkeşləri Bakıya yalnız futbol izləmək üçün deyil, həm də Bakının mədəniyyətinə, tariximizə, şəhərimizin müasir, qədim memarlıq abidələrinə şahidlik etmək və bundan zövq almaq üçün gəldilər. Uels və İngiltərədən gələn səyahət pərəstişkarları arasında son dərəcə populyar olan publardan bəhs etmirik. Bakı gələcəkdə Qaret Beyl, Robert Peyc və uelslilər üçün Xəzər dənizindəki ikinci ev kimi qala bilər".



Qeyd edək ki, Uels yığması AVRO-2020-nin 1/8 final mərhələsində Danimarka üzərində qələbə qazanarsa, növbəti mərhələ çərçivəsində iyulun 3-də Niderland - Çexiya cütünün qalibi ilə Bakı Olimpiya Stadionunda üz-üzə gələcək.

# Zidanın rekordunu yenilədi - Benzema

***Fransa millisinin hücumçusu Kərim Benzema tarixə düşüb.***



O, AVRO-2020-nin qrup mərhələsinin son turunda Portuqaliya ilə keçirilən matçda buna nail olub.

Benzema 2:2 hesabı ilə başa çatan qarşılaşmada dubla imza atıb. O, bunu 33 yaş 186 günlüyündə həyata keçirməklə fransızların Avropa və dünya çempionatları tarixində bir görüşdə 1-dən çox qol vuran ən yaşlı oyunçusu ünvanına yiyələnib. Benzema sabiq baş məşqçisi Zinəddin Zidanın rekordunu yeniləyib. Zizu AVRO-2004-də İngiltərə ilə matçda dubl edəndə 31 yaş 356 günündə olub.

Qeyd edək ki, 1/8 finala qrup birincisi kimi vəsiqə qazanan Fransa yığması bu mərhələdə İsveçrə ilə (28 iyun) üz-üzə gələcək.

# Azərbaycanı təşkilatçı ölkələrə nümunə göstərdi - uelslilər

***AVRO-2020-nin 1/8 final mərhələsində Danimarka ilə Amsterdamda qarşılaşacaq Uels yığmasının azarkeşləri ciddi problemlə üzləşib.***

Apasport.az saytının məlumatına görə, Bakıdan Moskvaya, oradan isə görüşün baş tutacağı şəhərə yollanan britaniyalı fanatlar Amsterdam Hava Limanından geri qaytarılırlar.

Niderland hökuməti danimarkalılardan fərqli, Avropa Birliyinə daxil olmayan Uels vətəndaşlarının Amsterdama buraxılmasına icazə vermir. Səyahət edənlər də Niderland hökumətini oyun üçün ölkəyə kimin gedə biləcəyi, kimin gedə bilməyəcəyi barədə dəqiq məlumat verməməkdə günahlandırıb.

Uelsin Bakıdakı matçlarını izləyən azarkeşlərdən Ceymi Şipp deyib ki, qərarın bu cür olduğunu öncədən bilsəydi, Azərbaycanda qalardı: "Yoluxma riskinin nisbətən az olduğu bir yerdən gəldiyim üçün içəri girməyə icazə veriləcəyini düşünürdüm. Amma Amsterdamdakı hava limanında təhlükəsizlik pasportuma baxıb, İngiltərə vətəndaşı olduğumu gördülər və sonra məni içəri buraxmayacaqlarını anladım. Kaş Bakıda qalaydım. Çünki komandamız Danimarkanı məğlub etsə, 1/4 finalda yenidən Bakıda matç izləmə şansım olacaqdı".

Digər uelsli Hyuel Lovqrin digər təşkilatçı ölkələrə Azərbaycanı nümunə göstərib: "Bakıda koronavirusa qarşı yüksək tədbirlər alınıb. Bakıdakı təcrübəmiz fantastik və təhlükəsiz idi. Bundan fərqli, bir neçə minlik insanı niyə Amsterdama buraxa bilmədiklərini başa düşə bilmirəm. Bakıda yalnız oyun biletlərimizi göstərməklə və neqativ olan test cavabı almaqla təyyarədən düşə bilirik. Bu nümunənin başqa ölkələrdə niyə fərqli olduğunu anlamıram". Qeyd edək ki, Uels - Danimarka görüşü iyunun 26-da keçiriləcək.

# "Tottenhem"lə danışıqlara başladı - Merih Demiral

***Türkiyə millisinin futbolçusu Merih Demiral karyerasını İngiltərədə davam etdirməyə yaxındır.***

Apasport.az saytının məlumatına görə, müdafiəçi İtaliyanın "Yuventus" klubunu Premyer Liqa təmsilçisinə dəyişə bilər.

Onun nümayəndələri "Tottenhem"lə danışıqlara başlayıb. Merihin xidmətində "Everton"la "Atalanta"da maraqlıdır.

Qeyd edək ki, türkiyəli futbolçu A seriyasının ötən mövsümündə 15 oyun keçirib.

# Maaşının artırılmasını tələb etdi - "Real"ın futbolçusu

***"Real"ın futbolçusu Ferlan Mendi klubdakı durumundan narazıdır.***

26 yaşlı sol cinah müdafiəçisi bununla bağlı rəhbərliyə müraciət edib. Maaşından narazı olan fransalı oyunçu məvacibinin yaxşılaşdırılmasını tələb edib. Mendi maaşının artırılması şərtilə yeni müqavilə imzalanmasını istəyib. Lakin "kral klubu" maliyyə problemi üzündən buna hazır olmadığı bildirib.

Qeyd edək ki, Ferlan Mendinin "Real"la müqavilə müddəti 2025-ci ilin yayına qədərdir.

Səhifəni hazırladı: Aygün İlqarqızı